- 22183 -

Rəşad Qardaşov

# AZƏRBAYCANDA KİTABXANAÇILIQ TƏHSİLİ

## (YARANMASI, İNKİŞAFI VƏ MÜASİR VƏZİYYƏTİ)

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – Mütərcim – 2018

1Y.D [...]
9

**Elmi redaktoru:** **Xəlil İsmayıl oğlu İsmayılov**
*əməkdar mədəniyyət işçisi,*
*tarix üzrə elmlərdoktoru, professor*

**Rəyçilər:** **Nadir İslam oğlu İsmayılov**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*

**Sevda Abbasqulu qızı Xələfova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

Rəşad Qardaşov. AZƏRBAYCANDA KİTABXANAÇILIQ TƏHSİLİ (YARANMASI, İNKİŞAFI VƏ MÜASİR VƏZİYYƏTİ). *Monoqrafiya.* – Bakı: Mütərcim, 2018. – 160 səh.

*Monoqrafiyada Azərbaycanda kitabxanaçılıq təhsilinin keçdiyi tarixi yola nəzər salınmışdır. Azərbaycanda ilk kitabxanaçılıq kurslarından başlayaraq ali kitabxanaçılıq təhsilinə qədər keçilən yol müvafiq fəsil və bölmələrdə şərh edilmişdir.Həmçinin kitabxanaçılıq təhsilinin məzmunu, peşə kompitensiyası, kitabxanaçılıq peşəsinin professioqramması, kitabxanaçılıq təhsilində müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi araşdırılmışdır. Dünya təcrübəsində meydana gələn innovativ meyllər, Azərbaycan kitabxanaçılıq təhsili konteksində başda duran vəzifələr elmi əsaslarla müəyyən edilmişdir.*

Q $\frac{4702060000}{026}$ 262-18

© R.Qardaşov, 2018

# MÜNDƏRİCAT

GİRİŞ ..... 4

**I FƏSİL. KİTABXANAÇILIQ TƏHSİLİNİN YARANMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ**
1.1. İlk kitabxanaçılıq kurslarının təşkili ..... 13
1.2. Azərbaycanda kitabxanaçılıq üzrə orta ixtisas təhsilinin yaranması və inkişafı ..... 17
1.3. Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yaranması və onun formalaşması mərhələləri ..... 24

**II FƏSİL. KİTABXANAÇILIQ TƏHSİLİNİN MƏZMUNUVƏ ONA VERİLƏN TƏLƏBLƏR**
2.1. Kitabxanaçılıq peşəsinin professioqramması ..... 47
2.2 Dövlət standartları, tədris planları, onların quruluşu və kitabxanaçı-biblioqraf kadr hazırlığı strategiyasında yeri ..... 59
2.3. Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi ..... 74
2.4. Kitabxanaçılıq təhsilinin tədris-metodik təminatı ..... 83

**III FƏSİL. KİTABXANAÇILIQ TƏHSİLİNİN MÜASİR VƏZİYYƏTİVƏ İNKŞAF PRESPEKTİVLƏRİ**
3.1. Müstəqillik illərində Azərbaycanda ali kitabxanaçılıq təhsilinin inkişafı ..... 94
3.2. Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin və kitabxanaçılıq təcrübəsinin rolu ..... 103
3.3. Kitabxanaçılıq təhsilinin inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanları ..... 119

NƏTİCƏ ..... 131
İSTİFADƏEDİLMİŞ ƏDƏBİYYAT ..... 146

# GİRİŞ

İnformasiya cəmiyyətində sosial-iqtisadi sahələrdə rəqabətin güclənddiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu daha da artmaqdadır. Birləşmiş Millətlər Təşkilatının "Təhsil əsri" elan etdiyi XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin, xüsusilə ali təhsilin rolu son dərəcə aktuallıq kəsb edir. Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da insan kapitalının formalaşmasında ali təhsilin rolu danılmazdır. Dövlətlərarası inteqrasiya prosesinin sürətləndiyi bir şəraitdə təhsilin və elmin beynəlxalq standartlar səviyyəsində inkişafı, təhsil müəssisələrinin fəaliyyətinin genişləndirilməsi zamanın tələbinə çevrilmişdir. Uzun illər ərzində tədrisin təşkilində, elmi tədqiqat işlərinin istiqamətlərinin seçilməsində və kadrların hazırlanmasında müəyyən nailiyyətlər əldə etmiş təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi təhsilin inkişafı üçün çox faydalıdır. Çünki hər bir xalqın milli şüurunun formalaşması onun elm və təhsilinin inkişafı ilə şərtlənir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev təhsil işçilərinin bir qrupu ilə görüşündə demişdir: "Təhsil elə bir sahədir ki, bunsuz xalqın, dövlətin inkişafı yoxdur".

Məlumdur ki, təhsil cəmiyyətin bütün üzvlərini əhatə edən, onları daim düşündürən, dövlətin, dövlətçiliyin təməlində duran ümummilli məsələdir. Təsadüfi deyil ki, bu gün Azərbaycan əhalisinin 2 milyon nəfərdən çoxunu təhsil prosesinin birbaşa iştirakçısı olan təhsil alanlar və təhsil verənlər təşkil edir. Belə bir şəraitdə təhsilin bugünkü vəziyyəti, sabahkı taleyi hər bir vətəndaşı, bütövlükdə Azərbaycan dövlətini hər an maraqlandıran prioritet sahədir. Çünki artıq hamıya məlumdur ki, XXI əsrdə müasir dünya intellektin gücü ilə idarə ediləcək, hər bir dövlətin qüdrəti təhsilin səviyyəsi ilə ölçüləcəkdir. Başqa sözlə, dünya birliyi yeni əsri sözün geniş mənasında "Təhsil əsri"nə, "İntellekt əsri"nə çevirməyi strateji xətt kimi qəbul



etmişdir. Bu mənada Azərbaycan təhsilinin inkişafını qabaqcıl ölkələrin təhsil sistemlərinə inteqrasiyasız, onlardan təcrid edilmiş şəkildə təsəvvür etmək mümkün deyildir. Buna görə də respublikamızda həyata keçirilməyə başlayan Bolonya prosesinin əsas mahiyyəti Avropa universitetlərinin inteqrasiyası deməkdir. Bu prosesin əsas tələbi istər müəllim, istərsə də tələbə heyəti arasındakı fəallığa müəyyən dərəcədə müstəqilliyin verilməsidir. Bu prosesin Azərbaycan üçün vacibliyi ölkədə inkişaf edən bazar iqtisadiyyatı şəraitində gənclərin qarşısında aktual məsələlər qoymaqla təhsil islahatlarının uğurla həyata keçirilməsindədir. Bu, ilk növbədə, ölkə üçün vacib olan istiqamətləri və ixtisasları, ixtisaslaşmanı müəyyən etməklə alınmış biliklərin tətbiqi sahələrini müəyyənləşdirir, gənclərin dünyada baş verən proseslərə yaradıcı, analitik və tənqidi təfəkkürlə yanaşmasını təmin edir.

Son zamanlar müstəqil Azərbaycanda sosial-iqtisadi və elmi-mədəni istiqamətlərdə ciddi irəliləyişlərin baş verməsi, təhsil sahəsində beynəlxalq standartlara uyğun islahatların aparılması, ali məktəblərin Bolonya prosesinə sürətlə inteqrasiya etməsi elm və təhsil müəssisələrinin qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Bu vəzifələr Prezident İlham Əliyevin 2009-cu il sentyabrın 5-də imzaladığı sərəncamla qüvvəyə minmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit edilmişdir.

Təhsilin inkişaf yollarının təhlili göstərir ki, müstəqil Azərbaycanın milli təhsil sisteminin əsaslarının yaradılması sahəsində dövlət əhəmiyyətli böyük işlər görülmüş və bu işlər hazırda uğurla davam etdirilməkdədir. Belə ki, cağdaş Azərbaycan təhsili həm məzmun, həm də struktur baxımından yeniləşməyə başlamış, onun beynəlxalq əlaqələri genişlənmiş, dünya təhsil sisteminə inteqrasiyası intensivləşmiş, aparılan islahatlara dövlət təminatı artıq reallığa çevrilmişdir. Müstəqillik illərində Azərbaycan təhsilinin bütün pillələrində təhsilə yeni münasibət formalaşmağa başlamış, insan amili, şəxsiyyətin hərtərəfli inkişafı ön plana çəkilmiş, təhsilin məzmununun müəyyənləşməsində həmin faktor ciddi şəkildə nəzərə alınmışdır.

Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor A.Xələfov yazır: "Təhsil sistemində ardıcıl olaraq iştirak edən, onun təşkilinə kömək edən, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin yaş xüsusiyyətlərindən asılı olaraq təhsil prosesinin bütün iştirakçılarına, şagirdlərdən başlamış ali məktəb tələbələrinə, gənclərdən başlamış fasiləsiz təhsillə məşğul olan yaşlı nəslə aşılayan müəssisələrdən biri də kitabxanalardır. Kitabxanalar yarandığı ilk gündən, qədim dövrdən başlayaraq zəmanəmizə qədər həmişə təhsillə bağlı olmuş, təhsil prosesinə xidmət etmiş, onun köməkçilərindən birinə çevrilmişdir. Məhz buna görədir ki, kitabxanalar bütün təhsil müəssisələrinin bir saylı laboratoriyası hesab edilir. Xalqımızın məktəb tarixinə nəzər saldıqda aydın olur ki, bütün məktəblərin yanında bir qayda olaraq təhsil prosesinin müvəffəqiyyətli təşkilini təmin etmək, məktəbdə verilən bilikləri daha da dərinləşdirmək, onu möhkəmləndirmək, təhsil sistemi işçilərini elmi informasiya ilə təmin etmək məqsədilə kitabxanalar yaradılmışdır. Belə kitabxanalara həmişə təcrübəli pedaqoqlar rəhbərlik etmişlər. Beləliklə də dərsin mənimsənilməsində mühüm rolu olan sinifdənkənar mütaliənin təşkilinə kömək etmişlər. Bu baxımdan kitabxanaların təhsil funksiyası mühüm elmi pedaqoji əhəmiyyət kəsb etməklə təhsil sisteminin ən mühüm komponentlərindən birinə çevrilir. Təhsil prosesində kitabxanaçının fəaliyyəti heç də müəllimin fəaliyyətindən az əhəmiyyətli deyildir".

Azərbaycanın müstəqilliyi şəraitində ali kitabxanaçılıq təhsili sahəsində də əhəmiyyətli irəliləyiş baş vermiş, köklü islahatlar və dəyişikliklər edilmiş, yeni dövrün qlobal tələblərinə cavab verə biləcək müasir səviyyəyə çatdırılmışdır. Bu prosesin sovet dövründən bu günə kimi keçdiyi yola nəzər salmaq və onu təhlil etmək xüsusilə vacibdir.

Məlum olduğu kimi, Azərbaycanda kitabxanaçılıq-informasiyaixtisası üzrə ali təhsilli kadrların hazırlanmasında, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin inkişafında



mühüm rol oynayan əsas elmi mərkəz 1947-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində təşkil edilən, 1958-ci ildə Şərqşünaslıq fakültəsinin nəzdinə köçürülən, 1962-ci ildən bu günə kimi müstəqil fakültə kimi fəaliyyət göstərən Kitabxanaçılıq-informasiya fakültəsidir.

Azərbaycanda sovet hakimiyyəti illərində yaranıb formalaşmağa başlayan ali kitabxanaçılıq təhsili müstəqillik illərində böyük bir inkişaf yolu keçmişdir. Bu mərhələdə ali kitabxanaçılıq təhsili sahəsində ciddi islahatlar, köklü dəyişikliklər aparılmış, onun dövrün bütün tələblərinə cavab verməsi, müasir informasiya-kommunikasiya texnologiyaları sistemində özünəməxsus yer tutması istiqamətində mühüm işlər görülmüşdür.Şərəfli bir yol keçmiş kitabxanaçılıq təhsili öz fəaliyyət sferasını günün tələbləri səviyyəsində qurmağa, qloballaşan informasiya əsrində özünə layiq yer tutmağa çalışır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kitabxanaçılıq təhsili XX əsrin 20-ci illərindən ilk kitabxanaçılıq kursları şəklində başlayaraq ali kitabxanaçılıq pilləsinə kimi geniş inkişaf yolu keçmişdir. Ayrı-ayrı dövrlərdə həmin sahədə ciddi islahatlar aparılmış, kitabxanaçılıq təhsilinin məzmunu, ona verilən tələblər xeyli dəyişdirilmiş və dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. İndiyə qədər Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafının ayrı-ayrı mərhələlərinə bir sıra əsərlər həsr olunsa da, bu sahənin təhsil sisteminin və mədəniyyətinin tərkib hissəsi kimi təkmilləşdirilməsi zərurəti onun daha ətraflı və dərindən işlənməsi problemini meydana çıxarmışdır. Bu sahədə əldə olunan nailiyyətlərin qlobal düşüncə ilə, yeni paradiqma və reallıqlar səviyyəsində köklü şəkildə tədqiq edilməsinə ciddi ehtiyac hiss olunmaqdadır. Belə ki, müvafiq sahəyə daxil olan infrastrukturların kitabxanaçılıq-informasiya təhsilinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlərinə dair sənədlər, məlumatlar, faktlar dərindən təhlil olunmamış, elmi dövriyyəyə daxil edilməmişdir. Bu zəngin sənəd kütləsinin üzə çıxarılıb təhlil edilməsi, onların müasir dövrün tələbləri baxımından təkmilləşdirilməsinin nəzəri-konseptual bazasının yaradılması öz həllini gözləyən vəzifələrdəndir. Bütün bu məsələlərin araşdırılması bu

monoqrafiyanın aktuallığını şərtləndirən amillər sistemi kimi olduqca əhəmiyyətlidir.

Problemin mənbəşünaslığının öyrənilməsi göstərir ki, "Azərbaycanda kitabxanaçılıq təhsili (yaranması, inkişafı, müasir vəziyyəti)" mövzusunun ayrı-ayrı aspektləri görkəmli alim və tədqiqatçıların sanballı elmi əsərlərində müəyyən qədər araşdırılmış, XX əsrin 60-cı illərindənbaşlayaraq bu sahəyə dair bir sıra tədqiqat əsərləri meydana gəlmiş, xeyli elmi məqalələr yazılmışdır.

Azərbaycanda kitabxanaçılıq təhsilinin yaranması və inkişafı məsələlərini elmi cəhətdən öz əsərlərində ilk dəfə milli kitabxanaşünaslıq elminin banisi, kitabxana işi tarixinin görkəmli tədqiqatçısı, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov araşdırmışdır. Alimin zəngin elmi yaradıcılığında, o cümlədən Azərbaycanda kitabxana işinin tarixinə həsr etdiyi namizədlik və doktorluq dissertasiyalarında, habelə ikicildlik "Kitabxanaşünaslığa giriş", üçcildlik "Azərbaycanda kitabxana işinin tarixi", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı dərslik və monoqrafiyalarında, eyni zamanda dövri mətbuatda dərc edilmiş məqalələrində həmin problemin ayrı-ayrı istiqamətləri geniş şərh edilmişdir. Alimin xüsusilə "Azərbaycanda kitabxanaçılıq təhsili" və "Azərbaycanda ali kitabxanaçılıq təhsili" adlı əsərləri kitabxanaçılıq təhsilinin yaranması və inkişafına həsr edilmiş ciddi elmi əsərlərdir.

Bundan başqa, ölkəmizin milli kitabxanaşünaslıq məktəbinin digər nümayəndələrindən prof. X.İsmayılov, prof. Z.Əliyev, prof. B.Allahverdiyev, dos. K.Aslan ,dos. Ə.Xələfov, dos. F.Bayramov, dos. Ə.Rüstəmov, dos. S.Rzayev, dos. N.İsmayılov, dos. M.Məmmədov, dos. E.Əhmədov və başqaları öz elmi tədqiqat işlərində problemin müxtəlif istiqamətlərinə dair bir sıra əsərlər çap etdirmiş, müəyyən mülahizələrini söyləmiş və onları sistemləşdirməyə çalışmışlar.

Beləliklə, ölkə kitabxanaşünaslığında müstəqillik illərində Azərbaycanda kitabxanaçılıq təhsilinin formalaşması, inkişafı, müasir vəziyyəti və inkişaf perspektivləri ayrıca tədqiqat obyekti olmamış, bu problemlə əlaqədar heç bir dissertasiya, monoqrafiya meydana gəlməmiş, arxiv materialları, statistik sənədlər və kitabxana-informasiya problemlərinə dair müasir elmi-nəzəri müddəalara əsaslanan tədqiqat işi aparılmamışdır.



Bu baxımdan hazırkı monoqrafiyada respublikada kitabxanaçılıq təhsilinin formalaşması mərhələləri Azərbaycanın müstəqilliyi illərində ilk dəfə olaraq kompleks şəkildə araşdırılmışdır.

Monoqrafiyanın mövzusunun obyektiAzərbaycan Respublikasında kitabxanaçılıq təhsili,predmetiisəAzərbaycanda kitabxanaçılıq təhsilinin təşəkkülü, inkişaf mərhələləri, qanunauyğunluqları, müasir vəziyyəti, təkmilləşdirilməsi yollarıdır.

Monoqrafiyanın qələmə alınmasında başlıca məqsədAzərbaycanda kitabxanaçılıq təhsilinintəşəkkülü, inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yollarının araşdırılması və öyrənilməsidir.

Tədqiqat zamanı qarşıya qoyulan əsas məqsədə nail olmaq üçün müvafiq arxiv və hesabat materialları, dövri mətbuatda dərc edilən məlumatlar, Azərbaycanda kitabxanaçılıq təhsilininyaranması, inkişafı və müasir vəziyyəti ilə əlaqədar olan bütün sənədlər sistemli şəkildə öyrənilmişdir.

Tədqiqatın məqsədi aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi zərurətini qarşıya qoymuşdur:

– Azərbaycanda ilk kitabxanaçılıq kurslarının təşkili və formalaşmasınınspesifik xüsusiyyətlərinin tədqiqi;

– Respublikada kitabxanaçılıq üzrə orta ixtisas təhsilinin yaranmasının və inkişaf xüsusiyyətlərinin tədqiq edilməsi;

– Tədqiq edilən dövrdə Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması mərhələlərinin öyrənilməsi, onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

– Kitabxanaçılıq peşəsinin professioqrammasının müəyyənləşdirilməsi;

– Tədqiq edilən dövrdə Azərbaycanda ali kitabxanaçılıq təhsili üzrə tətbiq edilmiş dövlət standartları və tədris planlarının öyrənilməsi, onların quruluşunun təhlil edilməsi, kitabxanaçı-biblioqraf kadr hazırlığının strategiyasının müəyyənləşdirilməsi;

– Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sisteminin vəziyyətinin araşdırılması;
– Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının öyrənilməsi;
– Müstəqillik illərində kitabxanaçılıq təhsilinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
– Ali kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin və kitabxanaçılıq təcrübəsinin rolunun tədqiq edilib ümumiləşdirilməsi;
– Xarici ölkələrin kitabxanaçılıq təhsili ilə Azərbaycanda kitabxanaçılıq təhsilinin qarşılıqlı müqayisə edilməsi, konkret nəticələrin çıxarılması;
– Kitabxanaçılıq təhsilinin inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənimkanlarının müəyyənləşdirilməsi;
– Respublikada ali kitabxanaçılıq təhsilinin təkmilləşdirilməsi istiqamətində əsaslandırılmış elmi-praktiki tövsiyə və təkliflərin verilməsi.

**Həmçinin**, Azərbaycanda kitabxanaçılıq təhsilinin yaranması, inkişafı və müasir vəziyyətini öyrənmək üçün mütəxəssislərin bu sahədə apardıqları bir sıra tədqiqatlar, dövri mətbuat materialları, elm, təhsil, maarif, mədəniyyət məsələləri üzrə müxtəlif növlü və tipli ədəbiyyat monoqrafiyanın mənbəşünaslıq bazasını təşkil edir.

Tədqiqatın nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Konstitusiyası, təhsil, mədəniyyət, kitabxana işi, informasiya texnologiyaları ilə əlaqədar qəbul edilmiş qanunlar və digər normativ-hüquqi aktlar, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparılmış tədqiqatlar, kitabxanaşünas və biblioqrafiyaşünas alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri təşkil edir.

Monoqrafiyanın elmi yeniliyi aşağıdakı amillərlə səciyyələnir:
– Monoqrafiya arxiv sənədləri, faktiki və statistik materialların elmi dövriyyəyə daxil edilməsi əsasında müstəqillik illərində Azərbaycan Respublikasında kitabxanaçılıq təhsilinin formalaşmasını, inkişaf mərhələlərini, müasir vəziyyətini, yeniləşməsi problemlərini əks etdirən ilk kompleks xarakterli elmi tədqiqat əsəridir;
– Monoqrafiyada ilk dəfə olaraq Azərbaycan Respublikasındakitabxanaçılıq təhsilinin yaranması və tarixi inkişaf mərhələləri sistemli şəkildə tədqiq edilmişdir;
– Monoqrafiyada Bakı Dövlət Universiteti Kitabxanaçılıq informasiya fakültəsinin nümunəsində kitabxanaçılıq təhsilinin cəmiyyətdəki və ümumi təhsil sistemindəki rolu üzə çıxarılmış, kitabxanaçılıq təhsilinin məzmunu tam olaraq açılmış, ona verilən tələblər geniş təhlil edilmiş, mühüm elmi ümumiləşdirmələr aparılmışdır;
– Monoqrafiyada təhsilin bu sahəsi mədəniyyət fenomeni kimi təhlil edilmişdir;
– Tədqiqat işində ilk dəfə olaraq Azərbaycanda kitabxanaçılıq təhsilinin professioqramması açıqlanmış və ona qoyulan tələblər şərh olunmuşdur;
–Monoqrafiyada peşəkar kitabxanaşünas-biblioqraf kadr hazırlığında dövlət standartları, tədris planlarının rolu və əhəmiyyəti barədə geniş məlumat verilmiş, müxtəlif illərdə tətbiq olunmuş tədris planları təhlilə cəlb edilmişdir;
– Tədqiqatdarespublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi və bu sistemdə iştirak edən elmi-metodik mərkəzlərin (Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Respublika ElmiPedaqoji Kitabxanası və s.)fəaliyyəti şərh olunmuşdur;
– Tədqiqat işində ilk dəfə olaraq kitabxanaçılıq təhsilinin Bolonya təhsil sistemində əks olunması xüsusiyyətləri tədqiq edilmiş, bu sahədə Bolonya prosesinin tələblərindən irəli gələn məsələlər şərh edilmiş, həmçinin dövlət tələblərindən irəli gələn bir sıra ümumiləşdirmələr verilmişdir;
–Tədqiqatda müstəqillik illərində Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişaf dinamikası göstərilmiş və perspektivləri müəyyənləşdirilmiş, eyni zamanda beynəlxalq əlaqələrin bu sahəyə müsbət təsiri də əks olunmuşdur;

– Tədqiqat işində Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin vəziyyəti təhlil olunmuşdur.

– Tədqiqatda Azərbaycan Respublikasında kitabxanaçılıq təhsilinin bütövlükdə informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun inkişafı üçün bir sıra ümumiləşdirilmiş tövsiyə və təkliflər verilmişdir.

Tədqiqatın təcrübi əhəmiyyəti kimi qeyd etmək lazımdır ki, monoqrafiyanın elmi nəticələrindən, irəli sürülən təklif və tövsiyələrdən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

– Azərbaycanda klitabxanaçılıq təhsilinin hərtərəfli öyrənilməsi və dünya standartlarına cavab verməsi sahəsində praktiki tədbirlərin həyata keçirilməsində;

– Ali kitabxanaçılıq təhsili sahəsində yeni dövlət standartlarının, yeni tədris planlarının hazırlanmasında;

– Azərbaycanda kitabxanaçılıq təhsilinin bazası sayılan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavr və magistr pillələrində kitabxanaçılıq təhsilinin məzmununu açan ixtisas fənlərinin: "Kitabxanaşünaslığa giriş", "Kitabxana işinin tarixi", "Kitabxana işinin təşkili və idarə olunması", "Kitabxana-informasiya texnologiyaları", "Kitabxanaların elmi-metodik təminatı", "Kitabxana xidməti", "Kitabxana və fasiləsiz təhsil" fənlərinin elmi-nəzəri bazasının təkmilləşdirilməsində.

Aparılan tədqiqatın materiallarından hazırda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində tədris edilən ixtisas fənlərinin tədrisində istifadə edilir.

Monoqrafiyanın quruluşu tədqiqatın məqsəd və vəzifələrinə uyğun müəyyənləşdirilmişdir. Monoqrafiya giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın biblioqrafik siyahısından ibarətdir.



# I FƏSİL

# KİTABXANAÇILIQ TƏHSİLİNİN YARANMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## 1.1. İlk kitabxanaçılıq kurslarının təşkili

Azərbaycan qədim kitabxana-biblioqrafiya mədəniyyətinə, zəngin ənənələrinə malik bir ölkədir. Qədim xalqlardan biri olan Azərbaycan xalqının kitabının izləri tarixin çox qədim dövrlərinə gedib çıxır. Hələ V əsrdə Albaniyada 52 hərfdən ibarət alban əlifbası olmuşdur.

Yazının yaranması kitabçılıq işinin təşəkkül tapmasına səbəb olmuşdur. Əlifba yaradıldıqdan sonra əyan və ruhani uşaqları üçün kilsələrin yanında məktəblər yaradılmışdı. Dini kitablar alban dilinə tərcümə edilirdi. Artıq kilsələrdə kitab toplanmağa başlamışdı. VII əsrdə Albaniyanın tarixinin tərtibinə başlanıldı. Belə ki, Musa Kalankatlının "Alban tarixi" kitabında Azərbaycan tarixinin IV – VII əsrlərinə dair qiymətli məlumatlar vardır. Bu kitaba əsasən məlum olur ki, Albaniyada bəzi antik müəlliflərin əsərləri Homerin "İliada"sı, Vergilinin "Eneida"sı məlum idi [22, 8].

Eramızın əvvəllərində Atropatendə (cənubi Azərbaycan) İran – Aramey əlifbası əsasında inkişaf edən pəhləvi yazısı işlənirdi. Qədim Midiya ədəbiyyatının ən görkəmli nümunəsi fəlsəfi, tarixi, həm də ədəbi-bədii dəyərə malik olan əsəri "Avesta" pəhləvi dilində yazıya köçürülmüşdür. Qədim Atropatendə və Albaniyada yazının meydana gəlməsi, orijinal əsərlərin yazılmasına təşəbbüs göstərilməsi, məktəblər açılması, dini kitabların çoxalması, heç şübhəsiz ki, ilk kitab toplularının (kitabsaxlayıcıların) – kitabxanaların yaranmasına gətirib çıxarmışdı.

VII əsrin ortalarında ərəblər Azərbaycanı işğal edəndə kitab mədəniyyətinə böyük zərbə vuruldu. Ərəblər mövcud ictimai-siyasi

quruluşu və müxtəlif dinləri məhv etmək üçün islamaqədərki yazı və əlifbanı, kitabları və kitabxanaları məhv edirdilər.

Ərəb istilası zamanı İslam dini Azərbaycanda əhaliyə zorla qəbul etdirilir, ərəb əlifbası tətbiq olunur, yaradılan məscidlərdə İslam dininin müqəddəs kitabı olan "Quran" və ərəb əlifbası öyrədilir, təlim etmək üçün məktəblər yaradılırdı. Məscidlərin yanında kitablar toplanmağa, məscid kitabxanaları yaradılmağa başlanmışdı [22, 9].

Orta əsrlərdə Azərbaycanda saray, dini, xüsusi elmi və şəxsi-kitabxana tipləri mövcud idi. Saray kitabxanaları sırasında Şirvanşahlar sarayının kitabxanasını (XIII əsr), Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətinin kitabxanalarını (XIV-XVI əsrlər) xüsusilə vurğulamaq lazımdır. XVI əsrdə Azərbaycan dövlətinin yaradıcısı və qurucusu Şah İsmayıl Xətai tərəfindən yaradılmış Təbriz kitabxanası saray kitabxanaları sırasmda xüsusi yer tuturdu.

Dini kitabxanalardan Ərdəbildəki Şeyx Səfi məqbərəsinin kitabxanası, elmi kitabxanalardan isə Marağa rəsədxanasının (XIII əsr) kitabxanası xüsusi önəm daşıyırdı.

Orta əsrlərdə Nizami, Xətai, Bəhmənyar, Xətib Təbrizi, Əbu Vəfa, Qətran Təbrizi və başqa görkəmli şair və mütəfəkkirlər şəxsi kitabxanalaryaratmışdılar.

XIX əsrin 40-cı illərindən yeni tipli kütləvi kitabxanalar, eləcə də görkəmli şəxslərin (Abbasqulu Ağa Bakıxanov və Mirzə Fətəli Axundov və s.) kitabxanaları yaradılmağa başlandı.

XIX əsrin II yarısından kütləvi kitabxanalar və qiraət komaları təşkil edilməyə başlandı. 1859-cu ildə Şuşada, 1887-ci ildə Bakıda kütləvi kitabxana təşkil olundu.

1905-1907-ci illərdə təşkil olunmuş xeyriyyə cəmiyyətlərinin təsiri altında Azərbaycan milli mədəniyyətinin inkişafı naminə çalışan ziyalılar nəşriyyatı genişləndirməyə, kitabxanalar və qiraətxanalar açmağa cəhd göstərirdilər.

Azərbaycan Demokratik Respublikası dövründə (1918-1920) M.Ə.Sabir adına kitabxana və Bakı Dövlət Universitetinin kitabxanası yaradıldı. 1920-ci ildə Azərbaycanda 965 məktəb kitabxanası, Bakı və onun rayonlarında təqribən 50, rayon və kəndlərdə isə 100-



yə qədər kütləvi kitabxana vardı. Açılan bu yeni kitabxanalarda işləmək üçün daha hazırlıqlı, yüksək mədəni səviyyəli kadrlar tələb olunurdu [32, 7].

1920-ci il aprelin 28-dən sonra - Azərbaycanda sovet hakimiyyəti illərində kitabxanaçı kadrların hazırlanması işinə xüsusi diqqət yetirildi. Dövlətin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxanalar milliləşdirildi. Həyata keçirilən tədbirlər nəticəsində qısa müddət ərzində Azərbaycanda 45-dən çox kitabxana təşkil edilmiş, bu kitabxanaların ümumi kitab fondu 234 min nüsxədən çox olmuşdur [32, 6].

1930-cu illərdən başlayaraq Azərbaycanda kitabxanaların ixtisaslı kadrlarla təmin edilməsi kimi vacib məsələ daha kəskin şəkildə meydana çıxmağa başladı.

Kitabxanaları mütəxəssis və ixtisaslı kadrlarla təmin etmək üçün dövlət məqsədyönlü tədbirlər həyata keçirirdi. Bu tədbirlər planının həyata keçirilməsinə ölkənin tanınmış ziyalı və alimləri cəlb edildi. İlk zamanlar maddi-texniki bazanın çox zəif olması bu işin layiqincə həyata keçirilməsinə mane olurdu. Ona görə də kitabxanaçı kadrların olmamasını nəzərə alan mədəniyyət komissarlığı bu sahə üzrə çalışan işçilər üçün 1920-ci ildən ixtisasartırma kursları təşkil etməyə başladı. Təşkil olunmuş ilk ixtisasartırma kursunda (1920-ci il avqust-sentyabr) 90 nəfər iştirak etmişdir [32, 7].

Bu dövrdə Azərbaycan Xalq Maarif Komissarlığının Məktəbdənkənar İşlər şöbəsinin kollegiyası yeni kitabxanaçı kadrların hazırlanmasını məsləhət bilmişdi. Bütün bunları nəzərə alan Azərbaycan Xalq Maarif Komissarlığı ixtisasartırma kurslarını daha da genişləndirdi vəbu kurslar təkcə mərkəzi sahələri deyil, digər qəza və əyalətləri də əhatə etməyə başladı.

1920-1925-ci illərdə Azərbaycanda zəhmətkeşlərə ən başlıca kitabxana xidməti qiraət komaları hesab olunurdu.Bu komalarda zəhmətkeşlərə kitabxana xidmətini həyata keçirmək üçün ixtisaslı kadrlar lazım idi. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə Baş Siyasi Maarif İdarəsi qiraət komlarını təşkil edənlər üçün yarımaylıq kurslar təşkil etməyə başladı. Bu kursu bitirən 100-ə yaxın ki-

tabxanaçı (artıq bu kitabxanaçılara ixtisaslı kadr demək olardı) qiraət komalarına göndərildi.

1926-cı ildə Azərbaycan SSR KP MK-nın qərarı ilə qiraət komalarına və respublika kitabxanalarına ixtisaslı kitabxanaçılar hazırlamaq məqsədilə respublika səviyyəli kursların təşkil olunması qərara alındı. Bu məsələni həll etmək məqsədilə Baş Siyasi Maarifİdarəsi Bakı və Gəncə şəhərlərində qiraət komaları üçün bir aylıq kurslar təşkil etdi. 1928-ci ildə isə Bakıda yenidən qiraət komalarının kitabxanaları üçün kurs-konfrans keçirildi (kursların müddəti 2 həftəlik olmuşdur). Bu kurslarda kitabxana mədəniyyəti quruculuğu, onun məqsəd və vəzifələri haqqında mühazirələr oxunmuşdu.

Bu dövrdə diqqət çəkən məsələlərdən də biri kitabxanaçı kadrların hazırlanmasında qəzalarda təşkil olunmuş ixtisas kursları olmuşdur. Artıq qəzalarda keçirilən kurslarda dərs deyən mütəxəssislər mərkəzi şəhərlərdə təşkil olunmuş ixtisasartırma kurslarının iştirakçılarındanibarət idi. Bu da həmin sahənin geniş vüsət alması demək idi. 1928-ci ilin mayında Gəncədə, 1928-ci ilin aprel ayında Şəkidə bu tip kitabxanaçılar üçün kurslar təşkil olunmuşdu. Kurslarda tanınmış ziyalılar və sahə mütəxəssisləri mühazirələr oxuyur, təcrübə mübadiləsi aparılırdı. Həmçinin qabaqcıl mədəni-maarif müəssisələrinin iş təcrübəsi ilə tanışlıq kursların əsas fəaliyyət istiqamətlərindən olmuşdur.

İlk kitabxanaçılıq kurslarının yaranmasında Azərbaycan Həmkarlar İttifaqı Şurasının da rolu böyükdür.

1920-ci ilin axırlarından 1921-ci ilin may ayına kimi 15 həmkarlar təşkilatında 66 qiraətxana təşkil edilmişdi. Bununla yanaşı, AHİŞ-in mədəni-maarif şöbəsi Xalq Maarif Komissarlığının kitabxana yarımşöbəsi ilə razılaşıb qiraətxanalarda siyasi, iqtisadi, təbii elmlərə, həmkarlar ittifaqı hərəkatına aid kitablardan ibarət səyyar kitabxanalar da açmışdı.

Həmkarlar İttifaqı sistemində olan kitabxanalarda metodik rəhbərlik göstərmək məqsədilə AHİŞ-nin yanında "Kitabxana bürosu" təşkil edilmişdi ki, bu büro müntəzəm olaraq kitabxana müdirlərinin müzakirəsini keçirir və metodik məruzələri dinləyib yeni, qabaqcıl iş təcrübələrini kitabxanalar arasında yayırdı. Kitabxana işçilərinin ixtisasını təkmilləşdirmək məqsədilə AHİŞ-nin mədəni-maarif şöbəsi hər ay kitabxana işçilərinin metodik müşavirəsini təşkil edirdi.



Azərbaycan Həmkarlar İttifaqı Şurasının "mədəni-maarif şöbəsi", mədəni komissiya respublikada həmkarlar ittifaqı kitabxanalarının işinə yaxından rəhbərlik edir, yoxlamalar aparır, həmkarlar ittifaqı kitabxana işçilərinin müntəzəm müşavirlərini çağırır və bu müşavirələrdə kitabxanalara dair vacib məsələlər müzakirə edirlər. Mədəni-maarif şöbəsi yanında kitabxana bürosu yaradılmışdı. Bu buraya həmkarlar ittifaqı kitabxanalarının ən təcrübəli kitabxanaçıları cəlb edilmişdi. Kitabxana bürosu kitabxanaların işlərini yoxlayır, fəhlələr və onların ailələri arasında kitabxanaların geniş yayılmasında, kitabxana planlarının tərtib edilməsində və gələcək işlərinin müəyyən edilməsində oxucu konfransları və s. tədbirlərin hazırlanıb keçirilməsində kitabxanalara yaxından köməklik edirdi.

- 22183 -

## 1.2. Azərbaycanda kitabxanaçılıq üzrə orta ixtisas təhsilinin yaranması və inkişafı

1920-ci illərin axırlarında Azərbaycanda 39, 1930-cu illərin ortalarında isə 89orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Bu dövrdə savadsızlığın elliklə ləğv edilməsində təhsil müəssisələri ilə yanaşı, kitabxanalar və klublar da mühüm işlər görürdülər.

1923-cü ildə Azərbaycan Dövlət kitabxanasının, 1925-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının açılması Azərbaycanın mədəni həyatında mühüm hadisə oldu.

Mədəni quruculuq işində mədəni-maarif müəssisələrinin təşkil edilməsi dövrün vacib və təxirəsalınmaz vəzifələrindən idi. Kütləvi savadsızlığın ləğvi, əhali arasında siyasi-maarif işinin gücləndirilməsi üçün mədəni-maarif müəssisələri mühüm əhəmiyyətə malik idi. Bunun üçün yerlərdə kitabxanalar, klublar, qırmızı çadırlar, qiraət komaları təşkil edilir, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılırdı. Bütün bunlar isə bir tərəfdən sovet hökumətinin əhaliyə gös-

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

tərdiyi qayğının təbliği idisə, digər tərəfdən sovet quruluşunun prinsiplərini müdafiə edən ideologiya bazarlarının yaradılması idi. Təkcə, 1921-ci ildə Bakıda və onun ətrafında 40 klub açılmışdı. 1922-ci ilin sonuna yaxın isə onların sayı artıq 90 idi. Azərbaycanın ərazisində olan bütün kitabxanalar Respublika Xalq Maarif Komissarlığının tabeliyinə keçirilir, mövcud kitabxanaların fondları əsasında ictimai kitabxanalar yaradılır. Yeni-yeni kitabxanalar açılır. 1921-ci ildə respublikada ümumi kitab fondu 390 min nüsxəni təşkil edən 69 kütləvi kitabxana fəaliyyət göstərdiyi halda, 1940-cı ildə artıq 2 milyon 62 min nüsxə kitabı olan 1383 kütləvi kitabxana oxuculara xidmət edirdi [31, 17].

Bu kitabxanaların 1089-u kənd yerlərində idi. 1940-cı ildə fəaliyyətdə olan 1633 klub müəssisəsindən 1399-u rayon və kənd yerlərində iş aparırdı. Göründüyü kimi, mədəni quruculuq illərində Azərbaycanda klub və kitabxanaların sayı sürətlə artır, şəhər, rayon və kəndlərdə onların geniş şəbəkəsi yaradılırdı. Təbiidir ki, iş təkcə mədəni-maarif müəssisələrinin sayını artırmaqla bitmirdi. Ən vacibi bu müəssisələri səriştəli işçilərlə, ixtisaslı kadrlarla təmin etmək idi.

Lazımi kadrlar hazırlamaq üçün Bakıda, digər iri şəhərlərdə qısamüddətli seminarlar, kurslar təşkil edilirdi. Lakin bunlar gündəngünə artan, getdikcə daha vacib və məsul vəzifələri yerinə yetirməli olan klub və kitabxanaçı kadrlarına olan ehtiyacı ödəyə bilməzdi. 1930-cu illərin axırlarına yaxın Azərbaycanda klub işçisi və kitabxanaçı hazırlayan tədris müəssisəsi yox idi. Azərbaycan hökuməti 1934-cü ildən başlayaraq Moskvanın kitabxanaçılıq institutuna, Leninqradın siyasi-maarif institutuna, habelə şəhərlərin siyasi-maarif məktəblərinə tələbələr göndərməyə başlamışdı. Sonralar həmin tədris müəssisələrini bitirib Azərbaycana qayıdan məzunlar demək olar ki, ilk milli kadrlar kimi mədəni-maarif işinin təşkilatçıları və qurucularından oldular. Lakin onlar ümumən respublikada aparılan geniş mədəni-quruculuq işlərinin tələbatını yerinə yetirə bilmirdilər.

1938-ci ilin martında Azərbaycan hökuməti respublika kitabxanalarını ixtisaslı kadrlarla təmin etmək məqsədilə Bakıda kitabxanaçılıq texnikumunun yaradılması ilə bağlı qərar qəbul etdi. Qərarda deyilirdi:"1938/39-cu dərs ilinin əvvəli üçün Bakıda 3 əsas şöbədən ibarət, təhsil müddəti 3 il olan texnikum açılsın. Azərbaycan, rus və erməni dillərində kadr hazırlamaq üçün 300 nəfərlik və kitabxana işçilərinin ixtisasını artırmaq üçün təhsil müddəti 1 il olan 60 nəfərlik kurslar təşkil edilsin".

Qərarda Azərbaycanın rayonlarından gələn tələbələr üçün 200 nəfərlik və ixtisasartırma kurslarına gələn işçilər üçün 40 nəfərlik – cəmi 240 yerlik yataqxana təşkil edilməsi, texnikumu ixtisaslı müəllimlərlə təmin etmək üçün Moskva və Leninqradın ali kitabxanaçılıq institutlarını bitirənlərdən 5 nəfərin Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamına göndərilməsi, habelə həmin institutlarda Bakı Kitabxanaçılıq Texnikumunu bitirənlər üçün 5 yer ayırması üçün RSFSR Xalq Maarif Komissarlığı qarşısında məsələ qaldırılması da nəzərdə tutulurdu.

Qərar özlüyündə çox geniş və əhatəli idi. Demək olar ki, burada texnikumun yaradılması və normal işləməsi üçün lazım gələn bütün məsələlərə diqqət yetirilirdi.

RSFSR-dən dəvət olunan mütəxəssis müəllimlər üçün şərait yaratmaq, onları mənzillə təmin etmək üçün Azərbaycan Xalq Maarif Komissarlığına göstəriş verildi. 1938-ci ilin iyul ayında respublika qəzetlərində texnikuma qəbul ilə əlaqədar elanlar dərc olunur. Azərbaycan Xalq Maarif Komissarlığı Ələsgərov Əli Qafar oğlunu Kitabxanaçılıq texnikumuna direktor təyin edir.

1938-ci il sentyabr ayının 15-də bu tədris müəssisəsi Azərbaycan Xalq Maarif Komissarlığının Kitabxanaçılıq Məktəbi adı ilə fəaliyyətə başladı. İlk gündən müxtəlif maddi-texniki çətinliklərlə qarşılaşan məktəb normal fəaliyyət göstərə bilmirdi. Bakı Xalq Maarif şöbəsinin ayırdığı sinif otaqlarında bütün gün ərzində ümumtəhsil məktəblərinin dərsləri keçirildiyi üçün onlardan ancaq üçüncü növbədə – axşamlar istifadə olunurdu ki, bu da çox böyük çətinliklər yaradırdı.

1938/39-cu tədris ilində məktəbə 150 nəfər tələbə qəbul olunur. Lakin tələbə qəbulu bununla bitmir və bütün tədris ili ərzində davam edir. Məhz buna görədir ki, 1939/40-cı tədris ilində artıq

məktəbdə 177 nəfər oxuyurdu. İxtisas fənlərindən dərs deyən müəllimlər çatışmırdı. Azərbaycan Xalq Maarif Komissarlığı respublikanın görkəmli maarif xadimi, kitabxana işinin bilicilərindən biri olan M.H.Rzaquliyevi Azərbaycan bölməsinə, 1933-cü ildə Moskva Kitabxanaçılıq İnstitutunu bitirmiş S.Yəhyazadəni isə rus bölməsinə ixtisas fənn müəllimi təsdiq etdi [18, 10].

Siyasi Maarif Məktəbinin 1 oktyabr 1941-ci il tarixli pedaqoji şurasının qərarı ilə tələbələr kitabxanaçılıq və siyasi maarif profili üzrə qruplaşdırılır. Bununla da yeni ixtisas, klub işçisi ixtisası üçün zəmin yaradılır. Öz fəaliyyətin təşkili üzrə peşəkar, ixtisaslı adamlar müəllim kimi dəvət olunurlar.

Respublikamızın görkəmli kitabxanaçılarından tədris prosesində istifadə edilməyə xüsusi diqqət yetirildi ki, bu da tələbələrin əməli biliklərinin möhkəmlənməsinə, kitabxanaçılıq peşəsinə daha dərindən yiyələnməsinə səbəb oldu.

Görülən tədbirlər nəticəsində qısa bir vaxtda texnikumun işində böyük canlanma əmələ gəldi. Tələbə qəbulu ilbəil artırıldı. Təlim-tərbiyə işinin səviyyəsi xeyli yüksəldi. Texnikum 1945-ci ildən 1950-ci ilədək 226 nəfər ixtisaslı mədəni-maarif işçisi hazırlamağa müvəffəq oldu. Artıq 1950-ci ildə texnikumda 364 nəfər tələbə təhsil alırdı.

Orta təhsilli mütəxəssis kadrlara artan böyük tələbatı ödəmək məqsədilə texnikumun nəzdində kitabxanaçılıq şöbəsi yaradıldı və buraya 100 nəfər qəbul edildi. Bu şöbə uzun illərdən bəri kitabxanalarda işləyən, böyük həyat təcrübəsinə malik olan, artıq öz həyatını kitabxanaçılıqla bağlayan şəxslərin ixtisas təhsili alması işində olduqca böyük əhəmiyyətə malik idi. Qiyabi şöbənin ilk buraxılışı 1953-cü ildə oldu. 1953-1958-ci illərdə texnikumun qiyabi şöbəsini 507 nəfər bitirdi. 1953/54-cü dərs ilindən başlayaraq texnikumun qiyabi şöbəsinə orta təhsilli şəxslər də qəbul edilməyə başlandı ki, bu da kitabxanaçılıq peşəsinə tələbatın artması ilə əlaqədar idi.

1959-cu ildən respublikada orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanmasına diqqət daha da artırıldı. Bu diqqət adıçəkilən texnikumda da kadr hazırlığı işinin keyfiyyətcə yaxşılaşdırılmasına və tələbə qəbulunun artırılmasına olduqca müsbət təsir göstərdi, 1960-cı illərdən etibarən texnikuma tələbə qəbulu planı xeyli artdı.



Rayon və kənd kitabxanaları üçün kadr hazırlamaq işində Bakı Kitabxanaçılıq Texnikumu 1960-1970-ci illərdə xüsusilə mühüm rol oynamışdır. 1960-1970-ci illərdən başlayaraq qiyabi şöbəyə qəbulun müntəzəm olaraq artırılması kənd kitabxana işçilərinin kitabxanaçılıq ixtisasına yiyələnməsinə xüsusilə böyük kömək göstərmişdir.

Texnikumun 1966-1985-ci illərdə əyani şöbə üzrə 2816, qiyabi şöbə üzrə isə 2597 tələbə buraxılışı olmuşdur [31, 16]. Göstərilən bu rəqəmlər texnikuma göstərilən diqqətin nəticəsidir.

1980-1985-ci illərdə N.K.Krupskaya adına Bakı Mədəni-Maarif məktəbinin (1980-ci ildən texnikumBakı Mədəni-Maarif məktəbi adlanırdı) maddi-texniki bazası xeyli möhkəmlənmişdir. 16 iyun 2010-cu ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən bu maarif ocağı Bakı Humanitar Kolleci adlandırılmışdır.

Son illərdə kollecin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllim kollektivinin tərkibinin daha da yaxşılaşdırılması kadr hazırlığının keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Burada 15 ixtisas, o cümlədən kitabxana-informasiya təminatı ixtisası üzrə mütəxəssis hazırlanır.

Şuşa Mədəni-Maarif Məktəbi 1921-ci ildən seminariya kimi fəaliyyətə başlamış, 1932-ci ildən pedaqoji (məktəb) texnikum kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə texnikuma M.Əzizbəyovun adı verilmişdir. Texnikumda 1980/81-ci tədris ilinə kimi əsasən orta təhsilli pedaqoji kadr hazırlanmışdır. 1976/77-ci dərs ilindən başlayaraq Şuşa Pedaqoji Məktəbinə əlavə iki ixtisas üzrə tələbə qəbulu keçirildi: kitabxanaçılıq işi ixtisası orta təhsil bazasından 30 nəfər, mədəni-maarif işi ixtisası üzrə 25 nəfər natamam orta təhsil bazasından.

Orta ixtisas təhsilli kitabxanaçı kadrlara ehtiyacı qismən də olsa aradan qaldırmaq məqsədilə 1981-ci il 13 dekabr tarixində SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi Azərbaycanda orta ixtisaslı kadr hazırlayan texnikumların təşkili üçün 93-01-54/109-18 nömrəli məktubuna əsasən Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinə xüsusi göstəriş verdi. Həmin məktubu əsas

götürərək Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin 11 noyabr 1981-ci il 169 nömrəli əmri ilə M.Əzizbəyov adına Şuşa Pedaqoji Məktəbinin adı dəyişdirilərək, Şuşa Mədəni Maarif Məktəbi kimi fəaliyyətə başladı. Odur ki, məktəbə ibtidai sinif müəllimi ixtisası üzrə tələbə qəbulu dayandırıldı və məktəbin yeni profilinə uyğun olaraq tələbə qəbulu iki ixtisas: "Kitabxanaçılıq işi və mədəni-maarif işi" ixtisasları üzrə aparılırdı [31, 18].

1982-ci ildən "Kitabxanaçılıq"və"Mədəni-maarif işi" ixtisasları üzrə şöbələr fəaliyyətə başladı. Artıq bu zaman kitabxanaçılıq işi şöbəsində 228 nəfər, mədəni-maarif işi şöbəsində isə 250 tələbə təhsil alırdı. Tələbə kontingentinin çoxalması ilə əlaqədar olaraq hər iki ixtisas üzrə müxtəlif şöbələr fəaliyyətə başladı. Kitabxanaçılıq şöbəsində 228 nəfər, mədəni-maarif işi şöbəsində isə 250 tələbə təhsil alırdı. Tələbə kontingentinin çoxalması ilə əlaqədar olaraq hər iki ixtisas üzrə müxtəlif şöbələr fəaliyyətə başladı. Kitabxanaçılıq şöbəsinə orta və natamam orta təhsil bazasından qəbul olunanlar 2 il, natamam orta təhsil bazasından qəbul olanlar isə 2 il 10 ay təhsil alırdılar. Təhsil müddəti başa çatdıqdan sonra mövcud tədris planlarına əsasən məzunlara kütləvi kitabxanalarda işləmək hüququ ilə kitabxanaçı ixtisası verilirdi. Ümumiyyətlə, 1982-ci ildən şöbəyə tələbə qəbulu planı Respublika Təhsil Nazirliyi tərəfindən müntəzəm olaraq ildən-ilə artırılmağa başlandı. Əyani şöbəyə 90 nəfər tələbə qəbul edildi. Onlardan 30 nəfəri natamam orta təhsil bazasmdan, 60 nəfəri isə orta təhsil bazasmdan qəbul edilmişdi. 1983-cü il tələbə qəbulu planı bu şöbədə bir qədər də artırılır. Belə ki, natamam orta təhsil bazasından 60 nəfər, yəni 2 qrup, orta təhsil bazasından isə 90 nəfər,yəni 3 qrup qəbul edilmişdi [50, 123].

Ermənistanın Azərbaycana təcavüz siyasəti, torpaqlarımızı işğal etməsi nəticəsində Şuşa Mədəni Maarif məktəbi əvvəllər Ağcabədidə, sonralar Bakıda Neft Texnikumunun binasında fəaliyyət göstərdi, 1996-cı ildən isə fəaliyyətini 161 saylı orta ümumtəhsil məktəbinin binasında davam etdirir.

Şuşa Humanitar Kolleci öz ənənələrini müəyyən qədər qoruyub saxlaya bilmişdir. 2007-ci ildə Prezident İlham Əliyevin sərən-



camı ilə kollecin 85 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. 16 iyun 2010-cu ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən bu maarif ocağı Şuşa Humanitar Kolleci adlandırılmışdır.

Hazırda kollecdə aşağıdakı ixtisaslar üzrə kadr hazırlanır:

- Məktəbəqədər təlim və tərbiyə;
- İbtidai təhsil;
- Xarici dil;
- Kitabxana-informasiya təminatı;
- İnstrumental ifaçılıq;
- Xalq çalğı alətləri;
- Xanəndəlik;
- Təsviri incəsənət və rəsmxətt;
- Fiziki tərbiyə müəllimliyi.

Son iki ildə isə Ailə və ev təhsili, Musiqi nəzəriyyəsi ixtisasları üzrə də tələbə qəbulu aparılır. Kollecdə 11 ixtisas üzrə 700-ə yaxın tələbə təhsil alır [49, 7].

1948-ci ildə çağırılmış Azərbaycan Respublikası kitabxana işçilərinin müşavirəsində ixtisaslı kitabxana işçilərinin hazırlanması sahəsində yeni vəzifələr irəli sürülür. Təhsilin səviyyəsini yüksəltmək üçün Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini ayrıca kitabxanaçılıq fakültəsinə çevirmək və siyasi maarif məktəbində keçirilən kitabxanaşünaslıq və biblioqrafiya fənlərinə dair dərs kitabları hazırlamaq, siyasi-maarif məktəbində qiyabi şöbə yaratmaq kimi vəzifələri mədəni-maarif müəssisələri komitəsi qarşısında qoyur.

Beləliklə, respublikada kitabxanaların sayının artması və mövcud kitabxanaların maddi-texniki bazasının güclənməsi ixtisaslı kadrların yetişdirilməsinə diqqəti artırdı. Artıq 40-cı illərin sonlarından başlayaraq respublikada ali təhsilli kitabxanaçı kadrların hazırlanması prosesi başlandı.

## 1.3. Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yaranması və onun formalaşması mərhələləri

XX əsrin 30-40-cı illərindəAzərbaycanda elmi işçilərə və mütəxəssislərə kitabxana xidmətinin təşkili məsələsi günün mühüm tələblərindən biri idi. Yüksəkixtisaslı, peşəkar kitabxanaçı kadrların hazırlanması problemi ön planda dururdu. Buna görə də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1947-ci ildə mədəni-maarif müəssisələri üçün kadr hazırlığı haqqında xüsusi qərar qəbul etdi. Qərardan irəli gələn məsələlərdən biri də 1947-1948-ci tədris ilində Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinin nəzdində yüksəkixtisash kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsi təşkil edildi.

Məlumdur ki, kitabxanaçı-biblioqraf ixtisası üzrə kadr hazırlanmasını nəzərdə tutan tədris planı bu peşənin spesifikasına uyğun olan fənlərdən ibarət olmalı idi. Bu şöbənin açılmasında görkəmli yazıçı və ictimai xadim Süleyman Rəhimovun böyük əməyi olmuşdur. O, kitabxana işini yüksək qiymətləndirir, cəmiyyətin şüurlu fəaliyyətində mütaliə mədəniyyətini önə çəkirdi.

Beləliklə, 1947-1948-ci ildə tədris ilində universitetin Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə 20 tələbə qəbul olundu. Respublikamızda ilk dəfə olaraq yüksəkixtisaslı kitabxanaçılar hazırlayan ayrıca şöbənin açılması bu sahə üçün tarixi uğur hesab olunurdu. Artıq bu dövrdən başlayaraq, cəmiyyətdə özünə şərəfli yer tutan kitabxanaçılıq sənəti bu sahədə tələbatdan irəli gələn boşluğu doldurmağa çalışırdı. Yüksəkixtisaslı ali kitabxanaçı kadrlar hazırlayan bu şöbənin ADU-da açılması bu sahədə fəaliyyət dairəsinin daha da genişlənməsinə böyük imkanlar yaradırdı. Belə ki, universitetdə gələcək perspektivləri nəzərə alan kadrların hazırlanmasında çoxpredmetlilik, komplekslilik mövcud idi.

Məlum olduğu kimi, yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında ixtisas bilikləri ilə yanaşı, başqa fənlər də tədris olunmalı idi ki, bu tədris strategiyası da universitetdə mövcud idi.



Filologiya fakültəsinin nəzdində yaradılmış Kitabxanaçılıq şöbəsinin tələbə kontingentinin yetkinliyini təmin etmək üçün fakültənin tədris planı bazasında Rusiyanın ali kitabxanaçılıq məktəblərinin təcrübəsindən istifadə olunaraq, yeni tədris proqramları tərtib edilirdi. Bu sahə üzrə mütəxəssislərin, ixtisaslı kadrların, pedaqoqların çatışmaması (demək olar ki, olmaması) şöbənin tələbələrinə dərs demək üçün respublikanın aparıcı kitabxanalarının əməkdaşlarını dəvət etmək zərurətini yaratdı. İlk dövrlərdə mühazirə fənlərini aparacaq müəllimlər olmadığına görərespublikanın böyük kitabxanalarından və digər müəssisələrindən şöbəyə müəllimlər dəvət edilməyə başlandı. Şöbənin ilk müəllimləri arasında yazıçı S.Rəhimov, Azərbaycan Kitab Palatasının direktoru Əliheydər Qəhrəmanov, M.F.Axundov adın Milli Kitabxananın direktoru Hüseyn Tağıyev, həmin kitabxananın direktor müavini Məryəmxanım Səmədova və başqaları vardı. Qeyd etmək lazımdır ki, şöbəyə dəvət olunmuş müəllimlərin heç biri kitabxanaçılıq təhsilinə malik deyildi.

Kitabxanaçılıq şöbəsinə 1947-1948-ci tədris ilində 20 nəfər, 1948-1949-cu tədris ilində isə 25 nəfər qəbul edilmişdi.

Məlumdur ki, SSRİ-də, o cümlədən Azərbaycanda qiyabi və axşam təhsili geniş inkişaf etmişdi. Bu şöbələr konkret ixtisas üzrə istehsalatda çalışan, praktik peşə bacarığı olan şəxslər üçün nəzərdə tutulmuşdu. Buraya adətən böyük təcrübi staja malik olan mütəxəssislər dəvət alırdı.

Ümumiyyətlə, tarixən Azərbaycanda ali kitabxanaçılıq təhsili 3 əsas mərhələdə həyata keçirilmişdir:

1. 1947-1958-ci illər – Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin nəzdində Kitabxanaçılıq şöbəsi kimi;
2. 1958-1962-ci illər – Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin nəzdində şöbə kimi;
3. 1962-ci ildən Bakı Dövlət Universitetində müstəqil fakültə kimi [43, 6].

Bu bölgünü nəzərə alaraq, Azərbaycanda ali kitabxanaçılıq təhsilinin 4 əsas mərhələsini müəyyənləşdirmək olar: yaranması, formalaşması, inkişafı, müasir vəziyyəti.

Bakı Dövlət Universitetində Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığı tarixində çox mühüm bir hadisə idi. İlk elmi özək kimi bu kafedra kitabxanaçılıq şöbəsinin yüksək ixtisaslı müəllim kadrları ilə təmini, ilk elmi mühazirələrin oxunmasının təşkili, fənn proqramlarının tərtibi, dərs vəsaitlərinin, elmi məqalələrin yazılması və müzakirəsi işində mühüm rol oynayırdı. Respublikamızda kitabxanaşünaslıq və biblioqrafiya elminə dair ilk sanballı elmi tədqiqatların aparılması üçün şərait yarandı. Məhz bu kafedranın fəaliyyəti nəticəsində Azərbaycan kitabxanaşünaslıq elminin bünövrəsi qoyulmuşdur, eyni zamanda respublikada kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın əsaslı şəkildə elmi tədqiqinə başlanmışdır. Bu fikri söyləməklə XX əsrin I yarısından sonra kitabxanaşünaslıq və biblioqrafiya sahəsində görülən işlərə kölgə salınmır. Burada söhbət fundamental elmi tədqiqat işlərinin aparılmasından gedir. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasmda və fəaliyyətə başlanmasında xalq yazıçısı, böyük ziyalı Süleyman Rəhimovun xüsusi rolu olmuşdur. O dövrdə ixtisas üzrə elmi adlı və elmi dərəcəli mütəxəssislər olmadığına görə kafedranın təşkilində ciddi çətinliklər meydana gəlmişdi. Süleyman Rəhimov az bir zaman içərisində universitetin rəhbərliyi ilə birlikdə bu kafedrada işləmək üçün mütəxəssislər seçmiş, onlar universitetə dəvət edilmişdilər.

1947-ci ildə kafedranın ilk müdiri vəzifəsinə görkəmli biblioqraf alim Əliheydər Qəhrəmanov təyin edilmişdi. İxtisasca filoloq olan Ə.Qəhrəmanov uzun illər Bakının kütləvi kitabxanalarında kitabxanaçı, kitabxana müdiri işləmiş, Bakı kitabxanaçılıq texnikumunda müəllim, sonra direktor vəzifələrində çalışmışdır. Bir müddət Respublika Dövlət Kitab Palatasmın müdiri işləyən Ə.Qəhrəmanov dissertasiya işi müdafiə etdikdən sonra ömrünün axırınadək Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına rəhbərlik etmişdir. Ə.Qəhrəmanov kitabxanaşünaslıq və biblioqrafiyanı dərindən sevən, kitabxanaçılıq təhsilinin inkişafına xidmət edən, özünə qarşı tələbkar, zəhmətkeş tələbələrə hörmətlə yanaşan sadə, təvazökar bir alim idi.



Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına dəvət edilən ilk müəllimlərdən biri də M.F.Axundov adına Milli Kitabxananın direktoru Hüseyn Tağıyev olmuşdur. O, 1948-ci ildən "Kitabxanaşünaslıq" fənnindən mühazirə oxumuşdur.Respublikamızın kitabxana xadimlərindən biri olan H.Tağıyev həmçinin bir neçə vəsaitin və kitabın müəllifidir.

Bununla yanaşı, XX əsrin 50-ci illərində Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında M.F.Axundov adına MilliKitabxananın elmi işlər üzrə direktor müavini Məryəmxanım Səmədova da dərs keçmişdir. O, kitabxanaçılıq işinə dair bir sıra vəsaitlər hazırlamışdır.

1952-ci ildə universitetdə kitabxanaçılıq şöbəsinin ilk buraxılışı oldu. Şöbəni bitirən 16 nəfər yüksək ixtisaslı mütəxəssis respublikamızın kitabxanalarına işə göndərildi. Artıq universitet təhsilli gənc mütəxəssislərlə kafedranın elmi potensialını gücləndirmək imkanı yaranmışdı və belə kadrlara böyük ehtiyac duyulmaqda idi. Həm də şöbədə yeni tədris planının tətbiqi ilə əlaqədar dərslər artmışdı. Ancaq bu imkandan bir neçə il sonra istifadə etmək mümkün oldu. 1955-ci ilin yanvar ayında Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası şöbənin V kurs tələbəsi Abuzər Alı oğlu Xələfovun yüksək təhsil göstəricilərini və ictimai fəaliyyətini nəzərə alaraq müəllim saxlanılması haqqında qərar qəbul etdi və rektorluqdan bu qərarın icrasını xahiş etdi.

Bu dövrdə universitetin rektoru, akademik Y.Məmmədəliyev kafedranın xahişini nəzərə aldı. Abuzər Xələfov 1955-ci ilin iyun ayında qiyabi şöbədə, sentyabr ayında isə əyani şöbədə mühazirələr oxumağa başladı. Elə bu təyinat demək olar ki, kitabxanaşünaslıq elminin və ali kitabxanaşünaslıq təhsilinin inkişafına böyük təkan verdi. 1956-cı ildə kitabxanaçılıq şöbəsinin ilk məzunlarından biri Murad Şəmsizadə kafedraya müəllimdəvət edildi. 1950-ci illərin axırında fakültənin məzunlarından Hacı Balay oğlu Həsənov və Əşrəf Teymur oğlu Xələfov kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında işləməyə başladılar. Kitabxanaşünaslıq şöbəsini müvəffəqiyyətlə bitirən gənclərin Kitabxanaşünaslıq-biblioqrafiya kafedra-

sına cəlb edilməsi kafedranın işinin canlanmasına, tədris keyfiyyətinin yüksəlməsinə, ixtisas kurslarının artmasına, tələbələr arasında elmi tədqiqat və tərbiyə işinin yaxşılaşdırılmasına səbəb oldu. Kafedranın elmi tədqiqat işlərində də böyük dəyişiklik baş verdi. Gənc müəllimlər namizədlik dissertasiyası müdafiə etmək üçün elmi mövzular üzərində işləməyə başladılar. Həmçinin kafedraya aspirant yeri verildi. Biblioqrafiya ixtisası üzrə verilmiş bu yeri – kitabxanaşünaslıq şöbəsini 1954-cü ildə bitirmiş Zöhrab Hüseyn oğlu Əliyev tutdu [43, 10].

1959-cu ildən1963-cü ilə qədər Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq kafedrasına Şərqşünaslıq fakültəsinin fars dili kafedrasının dosenti, filologiya elmləri namizədi Həsən Əlizadə rəhbərlik etmişdir.

1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi bölməsi yaradıldı, bu bölməyə birinci il 50 nəfər qəbul edildi. Bölmədə təhsil alan tələbələrdən çoxu istehsalatdan ayrılmadan oxuyurdu. 1959-cu ildə Kitabxanaçılıq şöbəsində rus bölməsi yaradılmışdır [43, 11].

Qeyd etmək lazımdır ki, Zaqafqaziyada rus dilində ilk dəfə açılan kitabxanaçılıq bölməsində Gürcüstan, Ermənistan və Dağıstandan gələn tələbələr də təhsil alırdılar.

1958-ci ildə BDU-nun nəzdində müstəqil Şərqşünaslıq fakültəsi yaradıldı. O vaxta qədər bu şöbə Filologiya fakültəsinin tərkibində fəaliyyət göstərirdi. Şərqşünaslıq fakültəsi yaradılarkən tələbə kontingentinin az olduğunu nəzərə alan universitet rəhbərliyi Kitabxanaçılıq şöbəsini müvəqqəti olaraq yeni fakültənin nəzdinə keçirdi. Bu şöbənin tanınmış ziyalılarının narazılığına baxmayaraq, 1958-1962-ci illər ərzində Kitabxanaçılıq şöbəsi Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi.

Şərqşünaslıq fakültəsinin profili kitabxanaşünaslıqla uyğunluq təşkil etmirdi. Fakültə Elmi Şurasmm tərkibində kitabxanaşünas-biblioqraf mütəxəssislər yox idi. Bu sahə üzrə diplom, dissertasiya işləri, dərs vəsaitləri, tədris proqramları, tədris planları lazımi səviyyədə müzakirə və həll edilə bilmirdi. Belə bir şəraitdə bu şöbənin inkişaf etməsi, yüksəkixtisaslı kadrlar hazırlamaq strategiyası böyük



çətinliklərlə üzləşirdi. Ona görə də Filologiya fakültəsinin dekanlığı və Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası birgə iclas keçirərdi. Kitabxanaçılıq şöbəsinin 1962-ci ilin sentyabr ayından Şərqşünaslıq fakültəsindən alınıb Filologiya fakültəsinə qaytarılması barədə qərar qəbul etdilər. Lakin Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsinin1962-ci ilin avqust ayında BDU-nun nəzdində müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında qərar qəbul etməsi yeni mərhələnin başlanğıcını qoydu.

Beləliklə, dinamik inkişaf yolu keçmiş Azərbaycan kitabxanaçılıq təhsili tarixinə yeni bir səhifə yazıldı, respublikanın bir nömrəli təhsil ocağında müstəqil Kitabxanaçılıq fakültəsi yaradıldı. Şübhəsiz, bu da yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasına öz müsbət təsirini göstərdi.

Qeyd edək ki, 1960-cı illərdə respublikada kitabxana işi sahəsində vəziyyət qənaətbəxş deyildi. 2 min nəfər kitabxana işçisindən yalnız 10 faizinin ali ixtisas təhsili var idi. Kitabxanaların kitabxanaçı kadrlarla təminatının ürəkaçan olmamasının əsas səbəbigeniş kitabxana şəbəkələrində işləyəcək kadrların hazırlanmasında kəmiyyət və keyfiyyət göstəricilərinin aşağı olması idi.

Beləliklə, 1962-ci il oktyabr ayının 1-də BDU-da müstəqil Kitabxanaçılıq fakültəsi yaradıldı. Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının müəllimi, tarix elmləri namizədi Abuzər Alı oğlu Xələfov ilk dekan təyin edildi.

Müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığının tarixində mühüm hadisə idi. 1963-cü ildə fakültənin nəzdində yeni bir şöbə - Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi yaradıldı.

Ümumilikdə 1970-ci illər respublikada kitabxanaşünas-biblioqraf kadrların hazırlanmasında xüsusi mərhələ ili olmuşdur. Belə ki, yeni şöbənin açılması, qəbul arsenalının artırılması, kitab ticarətinin təşkili ixtisasına böyük tələbatın olması bu faktı əsaslandıran əsas amillərdən biri idi. Beləliklə, 1970-1980-ci illərdə fakültəyə tələbə qəbulu, demək olar ki, iki dəfə, müxtəlif şöbələr (gündüz, axşam,

qiyabi) tələbə qəbulu dəfələrlə artmışdır. 1987-ci ildə fakültənin yaradılmasının 40 illiyi qeyd olunarkən artıq 2876 kadr hazırlanmışdı.

1970-1980-ci illərdə fakültənin həyatında bir sıra ciddi keyfiyyət dəyişiklikləri baş vermişdir. 8 namizədlik, bir doktorluq dissertasiyasının uğurla müdafiə olunması bu keyfiyyət dəyişikliyinə bariz nümunə ola bilər. 1980-ci illərin ortalarında fakültənin ən böyük nailiyyətlərindən biri də onun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni texniki vasitələrin alınması, fakültə tarixində ilk dəfə olaraq tədris laboratoriyalarının təşkili olmuşdur.

Məlumdur ki, hər bir elmi öyrənərkən və tədqiq edərkən ona 3 prizmadan yanaşmaq lazım gəlir:

1. Elmin tarixi;
2. Bu elm haqqında nəzəriyyələr;
3. Tətbiq üsulları.

Kitabxanaçılıq təhsilində də nəzəri bilikləri yaxşı mənimsəmək və dolğun şəkildə həyata keçirmək üçün təcrübi, tətbiqi hissəyə geniş yer ayrılmışdır. Bunun bariz nümunəsi olaraq, fakültədə keçirilən seminar məşğələləri ilə yanaşı, laboratoriya məşğələlərinin də sayı artırılmışdır.

Fənlərin tədrisində əyani vəsaitlərə, texniki vasitələrə böyük ehtiyac duyulurdu. Beləliklə, laboratoriyaların təşkilində adıçəkilən vəsaitlərdən geniş istifadə olundu. Nəhayət, 1986-1987-ci tədris ilində fakültədə 3 laboratoriya – "Kitabxana işinin təşkili və idarə olunması", "Kitabxana fondu və kataloqların təşkili","Biblioqrafik məlumat və axtarış sistemləri" laboratoriyaları təşkil olundu. Respublikamızda kitabxanaçılıq təhsili sahəsində bu tip tədris laboratoriyalarının yaradılması ilk hadisə idi və böyük əhəmiyyəti var idi.

Hazırda ali kitabxanaçı kadrlar hazırlayan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin 4 kafedrası mövcuddur:

1. Kitabxanaşünaslıq kafedrası;
2. Biblioqrafiyaşünaslıq kafedrası;
3. Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrası;
4. Kitabşünaslıq və nəşriyyat işi kafedrası.



Kitabxanaşünaslıq kafedrası bu ixtisas üzrə təşkil olunmuş ilk kafedradır. 1947-ci ilin oktyabr ayında Filologiya fakültəsinin nəzdində təşkil edilmiş bu kafedranın yaranması Azərbaycan kitabxanaşünaslığı və biblioqrafiyaşünaslığının tarixində mühüm hadisə idi. 1947-ci ildə kafedranın müdiri vəzifəsinə Ə.H.Qəhrəmanov təyin edilmiş, 1963-cü ildən indiyə qədər bu vəzifəni kitabxanaçılıq fakültəsinin yetirməsiAbuzər Alı oğlu Xələfov tutur.

Azərbaycanda kitabxanaşünaslıq elminin banisi Xələfov Abuzər Alı oğlu Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin Fəxri professoru,tarix üzrə elmlər doktoru, professordur.

Azərbaycanda ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından biri, respublikanın görkəmli elm və mədəniyyət xadimi Abuzər Xələfov 1955-ci ildən səmərəli elmi və pedaqoji fəaliyyətlə məşğuldur. Mədəniyyət, kitabxana işi, kitabxanaşünaslıq, təhsil və informatika sahələrinin tarixinə və nəzəriyyəsinə dair 250-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, elmi məqalə, tədris-metodik materialı və s. əsərlərin müəllifidir.

O, 1931-ci ildə Qərbi Azərbaycanda anadan olmuşdur. 1941-1946-cı illərdə kolxozda işləmiş və 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Rəşadətli əməyinə görə" medalı ilə təltif edilmişdir.

1950-ci ildə orta təhsilini başa vurmuş və Bakı Dövlət Universitetinin Kitabxanaçılıq şöbəsinə daxil olmuşdur. 1955-ci ildə ali təhsilini tamamlayaraq universitetin Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsində saxlanılmışdır. 1961-ci ildə ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin tarixinə dair namizədlik dissertasiyasını müdafiə etmişdir [12, 16].

1962-ci ildə BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilərkən dosent A.Xələfov ilk dekanseçilmiş, 25 il bu vəzifədə səmərəli fəaliyyət göstərmişdir. A.Xələfov yüksəksəviyyəli alim, pedaqoq, rəhbər işçi, fəal ictimai xadimdir. Onun səmərəli elmi tədqiqat fəaliyyəti Azərbaycanda və xarici ölkə-

lərdə geniş şöhrət qazanmışdır. Yaradıcılıq fəaliyyətinin lap əvvəllərindən başlayaraq mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi və bir sıra digər aktual elmi problemlər A.Xələfovun diqqət mərkəzində dayanmışdır. Onun elmi tədqiqatlarının nəticələri bütövlükdə mədəniyyətşünaslıq, kitabxanaçılıq elmi və təcrübəsi üçün böyük əhəmiyyət kəsb edən sanballı əsərlərdə öz parlaq əksini tapmışdır. Bu əsərlərin əksəriyyəti həm Azərbaycanda, həm də xarici ölkələrdə yüksək qiymətləndirilmişdir.

A.Xələfov Azərbaycanda kitabxana işinin çoxəsrlik tarixinə onlarla kitab, elmi məqalə və başqa materiallar həsr etmişdir. Onlardan "Azərbaycanda kitabxana işinin tarixindən (ən qədim zamanlardan başlayaraq XVIII əsrə qədər)", "Azərbaycanda kitabxana işinin tarixi (1870-1920-ci illər)", "Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932-ci illər)", "Azərbaycanda kitabxana işinin tarixi (1933-1959-cu illər)", "Kitabxana işinin tarixi kursu", "Azərbaycanda kitabxana işinin tarixi (ən qədim dövrlərdən XX əsrə qədər)" və s. göstərmək olar. A.Xələfovun elmi tədqiqat fəaliyyətində humanitar elm kimi kitabxanaşünaslığın ümumnəzəri və metodoloji problemlərinin işlənilməsi, kitabxanaların sosial funksiyalarının inkişafının araşdırılması, cəmiyyətin intellektual inkişafı prosesində, insanların mədəni-mənəvi tərbiyəsində, təhsil prosesində kitabxanaların rolunun öyrənilməsi çox böyük yer tutur. Alimin "Kitabxanaşünaslığa giriş" adlı iki cildlik sanballı monoqrafiyasında bütün bu məsələlər yüksək elmi səviyyədə ümumiləşdirilmişdir.

Prof. A.Xələfovun 2006-cı ildə nəşr etdirdiyi "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", həmçinin "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işi", həmçinin "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar)" monoqrafiyaları müstəqillik illərində Azərbaycanda kitabxanaşünaslıq fikrinin zirvəsidir.

Həmin monoqrafiyada dünyada və Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişaf tarixi, kitabxanaşünaslığın nəzəriyyə, metodologiya və metodikasının əsasları, elmlər sistemində kitabxanaşünaslığın yeri, kitabxanaların bir sistem kimi struktur xarakteristikası, kitabxanaların tipologiyası, kitabxanaçılıq peşəsinin, bir sözlə, kitabxanaşünaslıq elminin inkişaf problemləri və müasir vəziyyəti və s. kimi aktual məsələlər əhatə olunmuşdur.



A.Xələfovun elmi araşdırmalarında Azərbaycanda ali kitabxanaçı-biblioqrafiya təhsilinin tarixi və nəzəri problemləri mühüm yer tutur. Onun "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı", "Azərbaycanda ali kitabxanaçılıq təhsili" kitabları, çoxsaylı məqalələri, tədris-metodik materialları respublikada kitabxanaçılıq-biblioqrafiya təhsilinin, yüksəkixtisaslı mütəxəssislər hazırlanmasının konseptual cəhətdən həllinə ciddi təsir göstərmişdir [43, 14].

Elmi-pedaqoji kadrlar hazırlığında da A.Xələfovun xidmətləri böyükdür. Onun rəhbərliyi ilə 20-dən çox namizədlik dissertasiyası müdafiə edilmiş, xüsusi elmi məktəb yaranmış, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında kitabxanaçılıq işinin tarixinə və nəzəriyyəsinə dair iri həcmli nəzəri tədqiqatlar yerinə yetirilmişdir. O, həmçinin Azərbaycanda, Rusiyada, Gürcüstanda, Özbəkistanda mədəniyyət, kitabxana işi quruculuğu, kitabxanaşünaslıq tarixi və nəzəriyyəsi problemləri üzrə müdafiə edilmiş çoxlu namizədlik və doktorluq dissertasiyalarının opponenti olmuşdur. A.Xələfov uzun illər ərzində Sovet İttifaqında – Moskva şəhərində fəaliyyət göstərmiş doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü olmuşdur.

A.Xələfov öz yetirmələri olan çoxsaylı kitabxana ictimaiyyəti arasında çox böyük hörmətə və nüfuza malikdir. O, özünün çoxcəhətli elmi və pedaqoji fəaliyyətini səmərəli ictimai işlə sıx əlaqələndirir. Alim Respublika Kitabxana Şurasına rəhbərlik etmiş, 1998-ci ildəAzərbaycan Kitabxanaçılar Cəmiyyətini yaratmış, onun ilk prezidenti seçilmişdir.

A.Xələfov bir sıra dövri mətbuat orqanlarının, "BDU-nun elmi əsərləri"nin, kitabxanaşünaslığın tarixi və nəzəriyyəsi üzrə elmi məqalələr məcmuələrinin, mədəniyyətə dair qəzet və jurnalların redaktoru və redaksiya heyətlərinin üzvüdür. O, həmçinin elm, mədə-

niyyət və təhsil sahələrinə dair bir sıra elmi şuraların, komissiyaların və ictimai birliklərin üzvüdür.

Alim kitabxana işinin inkişafının hüquqi normalarının işlənilib hazırlanmasına böyük əmək sərf etmiş, 1999-cu ildə qəbul olunmuş "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun hazırlanması üzrə işçi qrupuna rəhbərlik etmişdir. A.Xələfovun cəmiyyət qarşısında xidmətləri bir sıra medallarla, dövlət orqanlarının və ictimai təşkilatların fəxri fərmanları ilə qiymətləndirilmişdir.

A.Xələfovun elm, mədəniyyət və təhsilin inkişafında xidmətləri Azərbaycan Respublikasının "Şöhrət" ordeninə və "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilməsi onun xidmətlərinin beynəlxalq miqyasda tanınmasını bir daha təsdiq edir.

Kitabxanaşünaslıq kafedrası yüksək ixtisaslı müəllim kadrların yetişdirilməsində də mühüm rol oynamışdır. Kafedrada belə bir ənənə formalaşmışdı: fakültəni müvəffəqiyyətlə bitirən gənc kadrlar laborant vəzifəsinə işə götürülür, sonra əyani və qiyabi aspiranturaya qəbul edilir, yaxud kafedranın dissertantı kimi fəaliyyət göstərirdi. Aspiranturanı bitirmiş şəxslər isə kafedraya müəllim qəbul edilirdi.

Müxtəlif illərdə T.Quliyev, X.İsmayılov, Z.Baxşəliyev, A.Əliyev aspiranturanı bitirdikdən sonra kafedraya müəllim vəzifəsinə keçirilmişlər. E.Bədəlov, M.Həsənov, S.Rzayev, A.Abbasova kafedrada laborant işləməklə namizədlik dissertasiyaları müdafiə etmiş və müəllim vəzifəsinə seçilmişlər.

Kitabxanaşünaslıq kafedrasının elmi tədqiqat sahəsində işlərin təşkili, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi müstəqillik dövründə milli ideoloji istiqamət olaraq davam etdirilmişdir. Kitabxanaşünaslıq kafedrası müstəqillik illərində Azərbaycanda əhaliyə kitabxana xidmətinin mühüm istiqamətləri problemini ümumi tədqiqata cəlb edərək kafedranın elmi istiqamətini müəyyən etmişdir. Kafedranın müasir dövrədək fəaliyyətini təhlil edərkən onu iki mərhələyə bölmək olar. Birinci mərhələ postsovet məkanı mərhələsi, ikinci mərhələ isə müstəqillik dövrünə təsadüf edir. Birinci



mərhələdə həm postsovet məkanı dövründə Kitabxanaşünaslıq kafedrası öz fəaliyyətini zəmanənin tələbinə uyğun qurmuş, elmi tədqiqat işlərinin məzmununda partiyalılıq prinsiplərini rəhbər tutaraq inkişaf mərhələləri keçmişdir. Kitabxanaşünaslıq kafedrasında aparılan elmi tədqiqat işləri, dissertasiya işlərinin bir hissəsi məhz həmin dövrə təsadüf etmişdir.

Kitabxanaşünaslıq kafedrası müstəqillik illərində kitabxana işinin müxtəlif problemlərinə dair namizədlik və doktorluq dissertasiyalarının müdafiələri ilə əlamətdar olmuşdur. Belə ki, 2000-ci illərin əvvəllərində Kitabxanaşünaslıq kafedrasının müəllimlərindən M.Ə.Məmmədov «Azərbaycan Respublikası kitabxanalarında KAA sistemi (1918-1990)», E.Y.Əhmədov isə «Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (1901-1995)» mövzularında namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi elmi dərəcələr almışlar. Bundan bir il sonra kafedranın dissertantı Ə.Ş.Nəcəfov MEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində ixtisaslaşdırılmış müdafiə şurasının iclasında «Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi (1923-1990-cı illər)» mövzusunda, daha sonra kafedranın dissertantı Ş.İ.İslamova, «Azərbaycan EA-nın kitabxana şəbəkəsinin yaranması və inkişafı» (1923-1990) mövzusunda, Kitabxanaşünaslıq kafedrasının baş müəllimi K.İ.Aslan «Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu» mövzusunda namizədlik dissertasiyaları müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışlar. Qeyd etmək lazımdır ki, müdafiə edən bütün aspirant və dissertantlaraprof. A.Xələfov rəhbərlik etmişdir.

Müstəqillik illərində Kitabxanaşünaslıq kafedrasmda aparılan ən mühüm elmi nailiyyətlərdən biri də uzun fasilədən sonra doktorluq dissertasiyasının müdafiəsi olmuşdur. Belə ki, kafedranın dosenti X.İ.İsmayılov 2004-cü ildə «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi: 1918-2000-ci illər (Tarixi, müasir vəziyyəti və perspektivləri)» mövzusunda müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi adı almışdır.

Kafedranın nəzdindəki«Kitabxana işinin kompüterləşdirilməsi» elmi tədqiqat laboratoriyasında hazırda kitabxanaçılıq-informasiya fakültəsinində tədrisin təşkilində, elmi tədqiqat işlərinin aparılmasında mühüm nailiyyətlər əldə etmişdir. 2007-ci il kitabxanaçılıq-informasiya fakültəsi məhz Kitabxanaşünaslıq kafedrasının elmi fəaliyyətinə görə BDU-da reytinq şkalası üzrə fakültələr sırasında birinci yeri tutmuşdur. Fakültənin bu yüksək göstəriciyə nail olması ilk növbədə məhz Kitabxanaşünaslıq kafedrasında aparılan elmi işlərin səviyyəsinə görə mümkün olmuşdur.

Biblioqrafiyaşünaslıq kafedrasının da özünəməxsus inkişaf tarixi var. Belə ki, 1960-cı illərdə fakültənin qəbul planı artmış, maddi-texniki bazası möhkəmlənmiş, elmi kadrların, xüsusilə elmlər namizədlərinin hazırlanması sahəsində dönüş baş vermişdi. Bütün bunlar fakültədə yeni, müstəqil Biblioqrafiya kafedrasının yaradılması üçün əlverişli şərait yaratmışdı. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi 1968-ci ildə BDU rektorluğunun xahişini nəzərə alaraq Kitabxanaçılıq fakültəsində Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının bazasında ayrıca Biblioqrafiya kafedrasının təşkil edilməsi haqqında əmr verdi. Biblioqrafiya kafedrasının ilk müdiri vəzifəsinə pedaqoji elmlər namizədi, dosent, uzun illər təcrübi sahədə işləmiş peşəkar biblioqraf, bir sıra elmi əsərlərin və biblioqrafik göstəricilərin müəllifi, fakültənin ilk yetirmələrindən biri olan Əşrəf Teymur oğlu Xələfov seçildi.

Müstəqil Biblioqrafiya kafedrasının yaranması ali kitabxanaçılıq təhsilinin daha da təkmilləşməsi, biblioqrafiya fənlərinin tədrisinin keyfiyyətcə yaxşılaşdırılması, biblioqrafiyaşünaslığa dair elmi tədqiqat işlərinin aparılması üçün müstəsna əhəmiyyət kəsb edirdi.

Biblioqrafiyaşünaslıq kafedrası respublikada biblioqrafiyaşünaslıq sahəsində elmi tədqiqat işi aparan əsas mərkəzdir. Müstəqillik əldə edildikdən sonra biblioqrafik fəaliyyətin ayrı-ayrı sahələri üzrə qoyulan problemlər də bilavasitə milli biblioqrafik dəyərlərimizin yeni istiqamətdən öyrənilməsi və müasir tələblər əsasında qiymətləndirilməsi ilə əlaqədardır. Kafedrada aparılan elmi tədqiqatların əsas məqsədlərindən biri də milli dəyərlərimizə əsaslanır. Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi uğrunda gedən ciddi mübarizə zamanının və buna müvafiq səviyyədə ali təhsilli peşəkar kitabxanaçı-biblioqraf kadrların hazırlanması tələblərinə uyğun gələn tədris ədəbiyyatını yaratmaqdan ibarətdir. Azərbaycan biblioqrafiyasının tarixi, respublikanın mühüm kitabxanalarında biblioqrafik fəaliyyətin ayrı-ayrı sahələrinin təşkili, alim və mütəxəssislərin biblioqrafik informasiya təminatının müasir problemləri ilə əlaqədar aparılan tədqiqatlar bu cəhətdən diqqətəlayiqdir.



Bakalavr pilləsi üçün təsdiq olunmuş tədris planına görə fakültədə "Ümumi biblioqrafiyaşünaslıq", "Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası", "Sahəvi biblioqrafiya", "Sosial-siyasi ədəbiyyatın biblioqrafiyası", "Təbii-elmi, texniki və kənd təsərrüfatı ədəbiyyatını biblioqrafiyası", "Xarici biblioqrafiya", "Azərbaycan biblioqrafiyasının tarixi", "Ölkəşünaslıq biblioqrafiyası", "Uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafiyası", "Patent və normativ-texniki sənədlərin biblioqrafiyası", "Bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və incəsənətin biblioqrafiyası", "Regionların informasiya təminatı", "Nəşriyyat və kitab ticarəti biblioqrafiyası" kimi fənlər tədris olunur. Magistratura pilləsində isə "Biblioqrafik nəşrlərin tərtibi metodikası", "Milli ideologiyanın biblioqrafik informasiya təminatı", "Beynəlxalq biblioqrafik əməkdaşlıq", "Humanitar elmlərin biblioqrafiyası" fənləri keçilir.

Biblioqrafik fəaliyyətin ayrı-ayrı prosesləri bu sahədə əldə edilən nailiyyətləri bilməyi, keçmiş biblioqrafik informasiya mənbələrindən xəbərdar olmağı və onlardan istifadəni bacarmağı, keçmişin qabaqcıl metodiki ənənələrini mənimsəməyi, ümumiyyətlə, dünya miqyasında mövcud olan biblioqrafik məhsuldan xəbərdar olmağı tələb edir. Məhz buna görə də tədris planında «Xarici biblioqrafiyasının tarixi» və «Azərbaycan biblioqrafiyasının tarixi» fənlərinə xeyli saat verilmişdir.

Bakalavr mərhələsində müstəqil Azərbaycan Respublikasının yerli şəraitə, milli ənənələrimizə uyğun, yeni dövlət quruculuğumuzun tələblərinə cavab verən tədris proqramları hazırlanmış və tələbələrin istifadəsinə verilmişdir.

Qeyd etmək lazımdır ki, 1997-1998-ci tədris ilindənKitabxanaçılıq fakültəsində magistr mərhələsi üçün verilən istiqamət «Kitabxanaşünaslıq və biblioqrafiya – HS-151700» adlanırdı. Bununla əlaqədar olaraq Biblioqrafiyaşünaslıq kafedrasında yeni fənlər silsiləsi yaranmış və bunlar üç qrupda ümumiləşdirilmişdir. Birinci, sosial-iqtisadi fənlər sırasındadır və «Biblioqrafik fənlərin tədrisi metodikası» adlanır. İkinci ixtisaslaşmaya uyğun ümumi fundamental elmi fənn kimi götürülən «Biblioqrafik informasiya: nəzəri-metodoloji əsasları» kursudur. Üçüncü qrup isə ixtisaslaşma fənlərindən ibarət olan 8 kursdan ibarətdir.

1986-cı ildən kafedranın nəzdində «Biblioqrafik-informasiya axtarış sistemləri» tədris laboratoriyası fəaliyyət göstərmiş, biblioqrafiyaya dair təcrübi fənlərin tədrisində mühüm rol oynamışdı.Müəllim və tələbələrin müxtəlif növ sənədlərə – dərsliklərə, dərs vəsaitlərinə, proqramlara, biblioqrafik göstəricilərə və digər tədris ədəbiyyatına olan tələbatını ödəmək məqsədilə laboratoriyada 2000-ə yaxın müxtəlif mənbəni əhatə edən fond yaradılmışdı. Burada toplanmış məlumat nəşrləri, biblioqrafik nəşrlər, kataloq və kartoteka sistemi müxtəlif növ biblioqrafik axtarış aparmağa imkan vermiş və tələbə, müəllim kollektivinə biblioqrafik xidmət göstərilir.

Kitabxanaçılıq fakültəsində professor və müəllim kadrların çoxalması, elmi dərəcəsi olan müəllimlərin sayının artması yeni kafedraların açılması üçün şərait yaradırdı. Məhz buna görə də 1990-1991-ci tədris ilində fakültə rəhbərliyi rektorluğun qarşısında Kitabxanaşünaslıq kafedrasının bazasında yeni Kitabxanafondu və kataloqların təşkili kafedrasının açılması məsələsini qaldırdı. Rektorluq bu məsələyə müsbət münasibətini bildirdi və universitetin böyük Elmi Şurası həmin kafedranın açılması haqqında qərar çıxardı. Beləliklə, Kitabxanaşünaslıq kafedrası iki yerə bölündü. «Kitabxana kataloqları», «Kitabxana fondu» fənlərinin dərsləri və bu fənlərdən dərs deyən müəllimlər - dos. T.F.Quliyev, dos. E.M.Bədəlov,dos. A.Abbasova, dos. A.M.Əliyev, dos. M.M.Həsənov, baş müəllim S.M.Mustafayeva, baş müəllim K.M.Şeyxzamanova Kitabxanaşünaslıq kafedrasından ayrılıb yeni təşkil edilən kafedraya keçirildi.



Bu cür bölgü ilk illərdən«Kitabxana fondu» və «Kitabxana kataloqları» fənlərinin tədrisinin yaxşılaşdırılmasına, göstərilən sahələr üzrə elmi tədqiqat işlərinin canlanmasına səbəb oldu.

Kafedranın ilk müdiri vəzifəsinə Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi Tacəddin Fərhad oğlu Quliyev seçildi. Vaxtilə Kitabxanaşünaslıq kafedrasının ilk aspirantı olmuş T.F.Quliyev «Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının tarixi» mövzusunda dissertasiyamüdafiə etmiş, uzun illər həmin kafedrada işləmişdi. Sonrakı illərdə laboratoriya müdiri Elmira Əhmədova, laborant Səfurə Hacıyeva, aspirant Seymur Şeydayev kafedraya müəllim qəbul edilmişlər. Lakin dərs yükünün azalması ilə əlaqədar olaraq sonuncu üç nəfər ixtisara düşmüşlər.

Adları qeyd edilən müəllimlərdən 4 nəfəri kitabxanaşünaslığın müxtəlif sahələri üzrə: «Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi» (dos. T.F.Quliyev); «Kənd əhalisinə kitabxana xidmətinin təşkili (1959-1970)» (dos. E.Bədəlov); «Naxçıvan MR-da kitabxana işinin tarixi (1920-1980-ci illər)» (dos. A.Əliyev); «M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişaf meyilləri, fəaliyyətinin təkmilləşdirilməsi (1959-1985)» (dos. A.Abbasova) adlı mövzularda namizədlik dissertasiyaları müdafiə etmişlər [43, 28].

Beləliklə, hazırda kafedra 8 nəfər professor-müəllim, laborant, texniki işçi heyətindən ibarətdir. Bunlardan X.İ.İsmayılov kafedra müdiri t.e.d. prof., A.M.Əliyev, S.Xələfova dosent, S.M.Mustafayeva, R.Ə.Qardaşov baş müəllim və Z.T.Rzayeva müəllimdir. Kafedranın nəzdində ayrıca «Kitabxana fondu və kataloqlar» tədris laboratoriyası fəaliyyət göstərir. Bu laboratoriya 1987-ci ildə Kitabxanaşünaslıq kafedrasının yanında təşkil edilmiş, sonra isə yeni açılan kafedraya verilmişdir.

Kafedra təşkil edildikdən sonra tədris prosesinin təşkili daha da yaxşılaşdı, ixtisas kursları oxunmağa başladı, elmi tədqiqat işlərində irəliləyişlər oldu.«Kitabxana fondu», «Kataloqların təşkili» fənlərinin ayrı-ayrı bölmələri üzrə ciddi tədqiqatlar aparıldı. Kafed-

ranın müəllimləri tərəfindən son zamanlar bir sıra dərs vəsaitləri və proqramlar hazırlanıb nəşr edilmişdir.

1996-cı ildə kafedranın müəllimləri tərəfindən hazırlanıb, prof. A.Xələfovun redaktorluğu ilə nəşr edilən «Kitabxana kataloqları» adlı dərs vəsaiti fakültənin tarixində mühüm hadisəsayıla bilər. Respublikamızda ilk dəfə çap olunmuş bu vəsaitdə kitabxana kataloqlarının ayrı-ayrı sahələri ətraflı təhlil edilib işıqlandırılmışdır. Dərs vəsaiti fakültənin tələbələri üçün böyük əhəmiyyətə malikdir. Bu cür vəsaitlərin nəşri respublikamızın kitabxanalarında fond və kataloqların təşkili prosesinə, onların müasir şəraitləayaqlaşmasına müsbət təsir göstərir.

Kafedranın müəllimləri tərəfindən müxtəlif illərdə ayrı-ayrı sahələr üzrə dərs vəsaitləri hazırlanmışdır. Dos. Tacəddin Quliyevin «Azərbaycanda kitabxanaçılıq işi» (Respublika Həmkarlar ittifaqı kitabxanalarının materialları əsasında: I və II hissələr) (1996, 2004); dos. Mayıl Həsənov və dos.Almaz Abbasovanın «Bədii və incəsənət əsərlərinin biblioqrafik təsviri qaydaları» (1994); dos. T.Quliyev, dos. M.Həsənov və dos. A.Əliyevin «Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi (Metodik vəsait)» (1996); dos. T.Quliyev, dos. A.Abbasova və baş müəllim Sənubər Mustafayevanın «Biblioqrafik təsvirin tərtibi qaydaları» (1996); baş müəllim S.Mustafayevanın «Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi» (2001); dos. M.Həsənovun «Kitabxana fondunun formalaşması və idarə edilməsi» (2004); baş müəllim S.Mustafayevanın «Biblioqrafik təsvirin tərtibi qaydaları (2-ci nəşri)» (2007) Xəlil İsmayılov və Sənubər Mustafayeva tərəfindən “Sənədlərin biblioqrafik təsviri” və “Sənədlərin biblioqrafik təsnifləşdirilməsi”(2018) adlı dərslik, və dərs vəsaitləri çap edilmişdir [43, 29].

Qiyabi şöbənin tələbələri üçün dos. A.Əliyevin «Kitabxana fondu» fənni üzrə, baş müəllim S.Mustafayevanm «Kitabxana kataloqları», «Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi» fənləri üzrə metodik göstərişləri hazırlanmışdır.

Kafedrada tədris edilən fənlərin proqramları da hazırlanıb çap edilmişdir. Belə ki, kafedranın müəllimləri tərəfindən «Kitabxana



kataloqları» (1994), dos. T.Quliyev tərəfindən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində (MKS) informasiya-axtarış sistemləri» (2001), «Kataloqlaşdırmanın müasir problemləri» (2003); dos. M.Həsənov tərəfindən «Kitabxana fondu» (2001), «Sənədlərin elmi sistemləşdirilməsi metodikası» (2003); dos. A.Əliyev tərəfindən «Sənədlərin predmetləşdirilməsi, predmet kataloqu və onun avtomatlaşdırılması (seçmə fənn)» (2001), «UOT: quruluşu və tətbiqi prinsipləri» (2003); baş müəllim S.Mustafayeva tərəfindən «Normativ-texnikisənədlərin təsviri və təsnifləşdirilməsi» (2001) fənləri üzrə bakalavr və magistratura pillələri üçün tədris proqramları çap edilmişdir.

Kafedranın müəllimi Sevda Xələfova 2008-ci ildə «XX əsrin II yarısında Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili (1970-1980-ci illər) (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyikütləvi kitabxanalarının materialları əsasmda)» (elmi rəhbər prof. X.İ.İsmayılov) mövzusunda dissertasiya işini müdafiə etmiş və «Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990)» adlı monoqrafiya nəşr etdirmişdir [43, 30].

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə, o cümlədən təhsil sahəsində də geniş islahatlar həyata keçirilməyə başlandı. Bunun nəticəsi olaraq «Kitabxana fondu və kataloqların təşkili» kafedrasında mütəxəssis kadrlar hazırlamaq məqsədilə 1997-ci ildən Kitabxanaşünaslıq kafedrası üzrə qəbul olunan magistrlərdən hər il 2 nəfər bu kafedraya verilirdi.2007-ci ildən kafedra üçün isə ayrıca magistraturaya yer ayrılmışdır.

Hazırda kafedrada respublika kitabxanalarında avtomatlaşdırılmış kataloqlaşdırmanın inkişafına,elektron kataloqunun yaradılması sahəsində elmi tədqiqat işlərinin aparılmasına diqqət yetirilir. Bununla əlaqədar olaraq kafedranın adı müasir dövrün tələblərinə uyğun olaraq dəyişdirilmiş və «Kitabxana resursları və informasiya-axtarış sistemləri» adlandırılmışdır. Bu dəyişiklik təkcə kafedranın adında deyil, burada həyata keçirilən işlərin məzmununda da aşkar şəkildə özünü göstərir. Məsələn fənlərin tədrisi zamanı müasir dövrün tələblərinə cavab verən və cəmiyyətdə baş verən dəyişiklikləri

özündə əks etdirən «Kitabxana-informasiya resurslarının idarə olunması», «Universal Onluq Təsnifat: Quruluşu və tətbiqi prinsipləri», «Kitabxana sənədlərinin mühafizəsi və bərpası», «Sənədlərin biblioqrafik təsviri, təsnifləşdirilməsi və nəşr standartları» kimi fənlərin tədris planına salınması buna misal ola bilər.

Bundan əlavə, kafedranın müdiri prof. X.İ.İsmayılovun rəhbərliyi ilə 1998-ci ildə yaradılan Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosasiyasının beynəlxalq səviyyədə həyata keçirdiyi tədbirlər birbaşa kafedranm tədris problemləri ilə əlaqələndirilmişdir.

Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasında tədris olunan fənlər həm bakalavr, həm də magistratura pillələrini əhatə edir. Bakalavr pilləsində kafedra üzrə aşağıdakı fənlər tədris olunur: "Kitabxana informasiya resursları", "Sənədlərin biblioqrafik təsviri", "Sənədlərin təsnifləşdirilməsi", "Normativ-texniki, patent sənədlərinin təsviri və təsnifləşdirilməsi", "Beynəlxalq kitabxana təsnifatları", "Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri", "Elektron kataloqlar", "Məktəb kitabxanalarında məlumat axtarış sistemlərinin təşkili", "MKS-lərin informasiya təminatı", "Kitabxanalarda elektron informasiya resursları".

Magistratura pilləsində isə "Kitabxanalarda sənədlərin mühafizəsi və bərpası", "UOT-un quruluşu və tətbiqi prinsiplər", "Sənədlərin analitik-sintetik işlənməsi", "Kitabxanalarda informasiya ehtiyatlarının idarə edilməsi", "Sənədlərin elmi sistemləşdirilməsi metodikası fənləri keçilir.

1991/1992-ci tədris ilində Bakı Dövlət Universitetinə kitabşünaslıq və nəşriyyat işi ixtisası üzrə kadrlar hazırlamaq üçün tələbə qəbuluna başlanıldı.

Rektorluğun,fakültənin dekanı prof. A.Xələfovun bu işə xüsusi səy göstərməsi nəticəsində prof. B.V.Allahverdiyev Moskva şəhərinə ezam olundu və Kitabşünaslıq ixtisası üzrə tədris planını gətirdi.

Nəticədə, Azərbaycan Respublikası Nazirlər Sovetinin xüsusi qərarı ilə 1991/1992-ci tədris ilindən bu yeni ixtisas üzrə Bakı Dövlət Universitetində tələbə qəbuluna başlanıldı. Kitabşünaslıq ixtisası üzrə yüksək səviyyəli kadrların hazırlanması, elmi tədqiqat işlərinin



aparılması «Kitabşünaslıq və nəşriyyat işi» kafedrasının təşkilini zərurətə çevirdi. Bu kafedra kitabın nəşri, təbliği və yayılması ilə məşğul olan kitabşünaslıq ixtisası üzrə kadrların hazırlanmasının bünövrəsi oldu. Kitabşünaslıq ixtisası onun inkişaf etdirilməsi üçün əlaqədar kafedranın yaradılmasını zərurətə çevirdi.

1993-cü ilin mart ayında Bakı Dövlət Universiteti nəzdində Kitabşünaslıq və kitab ticarətinin təşkili kafedrası (1997-1998-ci ildən Kitabşünaslıq və nəşriyyat işi kafedrası adlanır) fəaliyyətə başladı. Kafedranıntərkibi bu əməkdaşlardan ibarət idi: kafedra müdiri, tarix elmləri doktoru, professor Allahverdiyev Bayram Vəli oğlu, tarix elmləri namizədi, dosent Həsənov Hacı Balay oğlu, filologiya elmləri namizədi Süleymanov Rasim İmamqulu oğlu, baş müəllim Əsədullayev Akif Məhəmməd oğlu və kafedranın laborantı Quliyeva Sevda Feyruz qızı olmuşlar.

1995-1996-cı illərdə kafedranın professor-müəllim heyəti yeni kadrlarla daha da möhkəmləndirildi. Məmmədov Mehmanəli Əkbər oğlu və Həmidov Ramiz Hacıbala oğlu kafedrada baş müəllim vəzifələrinə təyin olundular. Bu dövrdə eyni zamanda filologiya elmləri doktoru, professor Vəliyev İsmayıl Ömər oğlu və Mehrəliyeva Nailə Müzəffər qızı kafedranın əməkdaşları sırasma daxil oldu.

Bütün bunlar kafedranın kitabşünaslıq və nəşriyyat işi, redaktəetmə ixtisasları üzrə kadrların hazırlanmasına, tədris işinin səmərəli təşkilinə, elmi tədqiqat fəaliyyətinin genişlənməsinə, proqram, dərslik, dərs vəsaitlərinin yazılmasma və çapdan buraxılmasına əsaslı təsir göstərdi.

Bir sıra yeni ixtisas fənləri üzrə proqramlar (məsələn, Kitabxanaşünaslıq və ümumi kitab tarixi (Tərtib edəni prof. B.V.Allahverdiyev, 1995); Kitabçılıq işinin tarixi (Tərtib edəni dos. H.B.Həsənov, 1995) və s.) hazırlandı.

Təsadüfi deyildir ki, Kitabşünaslıq və nəşriyyat işi kafedrası yaranandan indiyə qədər professor-müəllim heyətinin 200-dən çox elmi məqaləsi respublikamızın və xarici ölkələrin nüfuzlu nəşrlərində, o cümlədən elmi jurnallarda dərc edilmişdir.

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının elmi fəaliyyətində elmi-nəzəri seminarların təşkili və aparılması xüsusi əhəmiyyət kəsb edir. Kafedrada 1994-cü ildən kitabşünaslıq, kitabın nəşri, kitab yayımı və s. kimi problemlər üzrə elmi-nəzəri seminarlar aparılmışdır. Bu elmi seminarlar kitab tarixinin, kitab tərtibatının, kitab nəşrinin aktual məsələlərinə həsr edilmişdir. Məsələn, professor B.V.Allahverdiyevin «Azərbaycan kitabının nəşri», «İlk Azərbaycan çap kitabları», baş müəllim R.Həmidovun «Azərbaycanda kitabın təbliği və yayılması» mövzusunda məruzələri həm elmi, həm də təcrübi cəhətdən olduqca əhəmiyyətli olmuşdur.1997-1998-ci illərdən Kitabşünaslıq və nəşriyyat işi kafedrasında elmi-nəzəri seminarların mövzu dairəsi daha da genişlənmiş, təşkili təkmilləşdirilmiş, müzakirələr maraqlı, əhəmiyyətli xarakter almışdır. Kafedranın elmi-nəzəri seminarlarında professor İ.Ö.Vəliyevin «Kitab nəşri və redaktənin nəzəri məsələləri»nə dair məruzələri öz aktuallığı və yeniliyi ilə daha çox diqqəti cəlb edirdi.2000-ci illərdə kafedraya yeni əməkdaşların cəlb edilməsi, elmi dərəcəli müəllimlərin artması, elmi-nəzəri seminarın daha mütəşəkkil və sistemli şəkildə təşkilinə imkan vermişdir. Kafedranın elmi seminarlarında kafedranın dissertantlarının iştirakı da təşkil edilmişdir. Dissertantlar apardıqları elmi tədqiqat mövzuları üzrə əldə etdikləri yenilikləri elmi-nəzəri seminarlarda əməkdaşların nəzərinə çatdırırlar. Bu cür seminarlar onların elmi tədqiqat işlərinin daha ətraflı şəkildə aparılmasma və elmi istiqamətlərin düzgün müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir. Hər il kafedrada kitabşünaslığın, kitab nəşrinin, kitab tarixinin, redaktə işinin, kitab tərtibatının aktual mövzuları üzrə 4-5 adda məruzə dinlənilir.

Kitabşünaslıq və nəşriyyat işi kafedrasının əməkdaşlarının alimlik dərəcələri almaları tədris edilən fənlərin elmi səviyyəsinin, məzmununun daha ətraflı, əsaslı şəkildə öyrənilməsinə və tələbələrə çatdırılmasına çox müsbət təsir göstərmişdir. Kafedranın yeni mütəxəssis heyəti ilə möhkəmlənməsi, bakalavr və magistr pillələrində tədris edilən bütün fənlər üçün demək olar ki, məzmunlu, elmi səviyyəsi yüksək olan, müasir dövrün tələblərinə cavab verən proqramların və metodik göstərişlərin hazırlanmasına və çapdan buraxılmasına imkan vermişdir.



Hazırda tarix elmləri doktoru, professor B.V.Allahverdiyevin rəhbərliyi ilə kafedranın dissertantı Ələsgərova İradə Hacıbala qızı «Azərbaycan kitabının bədii tərtibatı məsələləri» mövzusunda namizədlik dissertasiyasını tamamlamış və müdafiə şurasına təqdim etmişdir. Həmçinin prof. B.V.Allahverdiyevin rəhbərliyi ilə Abasova Leyla Qabil qızı "Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in yaranması və fəaliyyəti" mövzusunda dissertasiya işini yekunlaşdırmışdır.

Hazırda kafedraya dosent Knyaz Aslan rəhbərlik edir.

Kafedranın fəaliyyətində magistrantların elmi iş yazmalarına və müvəffəqiyyətlə dissertasiya müdafiə etmələrinə də diqqət yetirilir. Onların kitabşünaslıq, nəşriyyat işi və redaktəetmə məsələlərinə dair qiymətli elmi əsərləri dərc edilir.

Hazırda Kitabşünaslıq və nəşriyyat işi kafedrasının professor və müəllim heyəti müstəqillik şəraitinə uyğun olaraq, tədris, elmi tədqiqat, elmi kadr hazırlamaq sahəsindəki fəaliyyətini daha da genişləndirmək və inkişaf etdirmək əzmindədir.65 il müddətində Kitabxanaçılıq-informasiya fakültəsi 5 mindənçoxyüksək ixtisaslı kadr hazırlamışdır. Belə ki,1952-1961-ci illər ərzində fakültəniəyani və qiyabişöbə üzrə 250 nəfərə yaxın kadr bitirmişdir. Bunlardan 200-üəyani şöbənin, 50-si isə qiyabi şöbənin payına düşür. Müstəqil Kitabxanaçılıq fakültəsi yaranandan sonra, yəni 1962-1970-ci illərdə fakültəni bitirən məzunların sayı 450 nəfər olmuşdur. Onları təhsilin formalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar: əyani şöbədə 217 nəfər, qiyabi şöbədə 202 nəfər, axşam şöbəsində 31 nəfər. 1971-1980-ci illərdə fakültənin mə-zunla-rının sayı 800-ü keçmişdir. Bundan 50%-dən çoxu əyani şöbənin payına düşmüşdür. Axşamşöbəsində qəbulun artması məzunların sayına də təsir göstərmişdir. Həmin dövrdə 200-dən çox axşam şöbəsində kadr hazırlanmışdır. Kitabxanaçılıq-informasiya fakültəsinin inkişafında mühüm mərhələlərdən biri XX əsrin 80-ci illərihesab edilir. Məhz bu dövrdə fakültədə kadr hazırlığı əvvəlki onilliklə müqayisədə 2 dəfədən çox artaraq 2000-dən çox olmuşdur. Bu dövrdə əyani və qiyabi şöbələr-

də məzun buraxılışı demək olar ki, say etibarilə bərabər olmuşdur. Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin kadr hazırlığı sahəsində fəaliyyəti həm kəmiyyət, həm də keyfiyyət cəhətdən yaxşılaşmışdır.

Yalnız 1991-1996-cı illərdə fakültənin 1200 dən çox məzunu olmuşdur. Fakültənin maddi-texniki bazasının və elmi-pedaqoji kadr təminatı sisteminin yaxşılaşdırılması 1997-ci ildə çoxpilləli təhsil sisteminə keçidin yeni mərhələsinin başlanğıcı olmuşdur. Fakültədə ayrı-ayrı ixtisaslar üzrə magistr pilləsi üzrə kadr hazırlığına başlanmışdır. Son 15 ildə Kitabxanaçılıq-informasiya fakültəsində bütün pillələr üzrə 1400-ə yaxın kadr hazırlanmışdır. Bunlar təhsilin əyani və qiyabi formasında həyata keçirilmişdir. Respublikamızın müstəqilliyi şəraitində təhsil sahəsində aparılan islahatların əsas məqsədi müstəqil Azərbaycanın təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması məsələsini həll etməkdir. Bu mühüm işdə Fakültə Elmi Şurası kollektivin əsas istinad nöqtəsi kimi fəaliyyət göstərir, onun işini istiqamətləndirir. Kitabxanaçılıq-informasiya fakültəsində yüksək ixtisaslı kadrların hazırlanmasında, elmi tədqiqat və metodiki işlərin aparılmasında, pedaqoji kadrların seçilib, yerləşdirilməsində 1962-ci ildən yaradılan Fakültə Elmi Şurasının rolu böyükdür.

Respublikamızda ali kitabxanaçılıq təhsilinin ən böyük və yeganə bazası sayılan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi respublikada elmi dünyagörüşü, intellektual səviyyəsi, professionallığı, yüksək mədəniyyəti ilə fərqlənən yüksək ixtisaslı kadrların hazırlanmasında müstəsna əhəmiyyətə malikdir. Müasir dövrdə ən böyük funksiyası informasiya funksiyası olan kitabxanalar üçün yüksək ixtisaslı kadr hazırlığı da fakültədə davam edir və fakültə öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır.



# II FƏSİL

# KİTABXANAÇILIQ TƏHSİLİNİN MƏZMUNU VƏ ONA VERİLƏN TƏLƏBLƏR

## 2.1. Kitabxanaçılıq peşəsinin professioqramması

Professioqramma latın sözü olub, "professio" – ixtisas, "gramma" – yazıram mənasını verir. Burada konkret ixtisasın fəaliyyət dairəsinin təsviri, peşəkar əmək və tələbatlar bir-biri ilə sıx şəkildə təhlil olunur. O, özündə texniki istehsal, iqtisadi, sosial şərtlər daxilində əmək fəaliyyətini, həmçinin psixoloji, fizioloji tələblərin insanın seçdiyi ixtisasa hansı səviyyədə təsir göstərdiyini birləşdirir.

Professioqramma hər hansı bir sahədə işləyən mütəxəssislərin müəyyən tələblər daxilində fəaliyyət göstərməsini şərtləndirir. Bu tələbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– işçinin vəzifə səlahiyyətlərinə olan tələblər;
– iş yerinə olan tələb;
– işçinin gələcək peşəkar fəaliyyət dairəsinə olan tələblər;
– peşəkar təhsil vasitələri: ixtisasın təsnifat dərəcəsinin artırılması.

Professioqrammanın 5 əsas metodoloji prinsipi müəyyənləşdirilmişdir:

1. Sistemlilik – professioqrammada işçinin seçdiyi ixtisas üzrə fəaliyyəti, işlədiyi müəssisədə fəaliyyət dairəsinin, fəaliyyət istiqamətinin sistemli şəkildə olması;
2. Tamlıq – şəxsiyyətin peşəkar fəaliyyəti zamanı ən vacib keyfiyyətlərdən hesab olunur. Bu zaman psixoloji və fizioloji amillər önə çəkilir.
3. Əyanilik – həyata keçirilən və aparılan tədqiqatlar zamanı konkret peşə fəaliyyətində alınan nəticələri əyani təsvir edir.

4. Elmilik və müasirlik – aparılan tədqiqatlar metodoloji baxımdan elə işlənib hazırlanmalıdır ki, bu zaman müasir elmi konsepsiyalar, bilik və bacarıqlar öz əksini tapır.

5. Effektivlik – nəticə etibarilə həyata keçirilən tədbirlər, həllini tapan problemlər müasir dövrdə öz əhəmiyyətini qoruyub saxlaya bilsin və ətraf aləm üçün effektiv olsun [83, 114].

Respublikamız çoxsahəli təsərrüfat sistemini elmi cəhətdən idarə etməyi bacaran kifayət qədər kadr potensialına malikdir. Çünki hazırda istehsalatın müxtəlif sahələri üzrə ixtisaslı kadrlar hazırlayan kifayət qədər ali və orta ixtisas məktəbləri fəaliyyət göstərir. Öz peşəsi üzrə xüsusi biliklərə müraciət etmək bütün tip istifa-dəçilər üçün xarakterik xüsusiyyətdir. Mütəxəssislər müxtəlif sahələr üzrə ixtisaslaşır, elmi, peşə biliklərini təkmilləşdirir, günün tələbləri səviyyəsində qurur.

Təbiidir ki, kitabxana fəaliyyətinin effektli və səmərəli olması üçün əməyin bölgüsü düzgün aparılmalı, əsas üstünlük işçilərin peşəkarlığına, biliyinə, bacarığına, təcrübəsinə verilməlidir. Əməkdaşların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi, onlar tərəfindən texnoloji intizamın gözlənilməsi göstəricilərinin qiymətləndirilməsi də öz növbəsində kitabxana proseslərinin kifayət qədər normallaşdırma səviyyəsindən, dəqiq tələblər və texnoloji təlimatların mövcudluğundan asılıdır. Buradan da kitabxana fəaliyyətinin struktur xarakteristikasını reqlamentləşdirən informasiyanın əhəmiyyəti müəyyən edilir. Bu informasiya kitabxana proseslərinin normalarını, tələblərini, qaydalarını və ardıcıllığını təyin edir, istehsal olunan məhsulların və xidmətlərin nümunələrini və etalonlarını müəyyənləşdirir. Kitabxanada tələb olunan çeşid, kəmiyyət və keyfiyyətdə informasiya məhsulları və xidmətlərinin istehsalı üçün vacib olan informasiyanın yaradılması, təşkili və istifadəsi kitabxana texnologiyasının normativ-metodik təminatının mahiyyətini təşkil edir. O, nəzəri, metodik biliyin və praktiki təcrübənin təhlilini; tələb, qayda və tövsiyələrin müəyyənləşdirilməsi; real və potensial məsələlərin həlli üçün onların dəfələrlə istifadəsini nəzərdə tutur.



Nəhayət, kitabxana fəaliyyəti strukturunun yekunlaşdırıcı komponenti, onun nəticəsi olan müxtəlif məzmunlu və təyinatlı informasiya məhsulları və xidmətləridir. Məhz bu komponent kitabxananın servis sistemi kimi fəaliyyətinin mənasıdır.

Müasir mərhələdə son dərəcə mürəkkəbləşmiş olan kitabxana-biblioqrafiya proseslərinin idarə edilməsi kitabxana işçisində geniş ictimai-siyasi görüş dairəsinin formalaşmasını, onların kitabxanaşünaslıq və biblioqrafiyaya dair dərin nəzəri və praktiki biliklərlə silahlanmasını tələb edir. Kitabxana işinə aid meydana gəlmiş müasir ənənə və meyillərə, qabaqcıl iş təcrübəsinə hərtərəfli və dərindən yiyələnmək hər bir kitabxana işçisinin borcu və vəzifəsidir.

Professioqramma peşəkar fəaliyyətin məzmununun analizi nəticəsində yaranır və özündə ixtisasın (peşənin) insanda təlqin etdiyi ümumi məcmusunu birləşdirir.

Əgər insan özünün fərdi keyfiyyətlərinə əsaslanan ixtisasa sahib olmaq istəyirsə, bu zaman ona peşənin (ixtisasın) psixoloji sferasını dərindən öyrənən biliklər lazımdır. İxtisas və peşə seçimi zamanı aşağıda adları çəkilən psixoloji xarakteristikaları özündə birləşdirən fəaliyyət istiqamətləri üzrə ixtisaslaşmaq lazımdır:

1. Düşünmə qabiliyyəti;
2. Fərdi keyfiyyətlər;
3. Ətraf mühitlə əlaqəyə girmək bacarığı.

Hər bir professioqramma aşağıdakı bölmələrdən ibarətdir:

– İxtisasın təsnifat kartoçkası;
– Peşəkar fəaliyyətin uğurla yerinə yetirilməsi səviyyəsi (qabiliyyət, şəxsi keyfiyyətlər, maraqlar və s.)
– Effektiv peşəkarlıq qabiliyyətinin səviyyəsi;
– İxtisas tarixi;
– Peşəkar biliklərin tətbiqi sahələri;
– İnsanda onun şəxsi keyfiyyətləri ilə uyğunluq təşkil edən müxtəlif peşələr;
– Bu peşəni tədris edən təhsil müəssisələri.

Kitabxanaçı kitabxanada işləyən və oxuculara xidmət göstərən şəxsdir. Bu tərif hamı və hər kəs üçün qəbul edilən anlamdır.

Lakin hazırda həyatımızın bütün sferasını əhatə edən elektron hesablama maşınları və kompüter texnologiyası kitabxanaçını yalnız kitab xidməti göstərmək kimi dar fəaliyyət çərçivəsində qoymur. Belə zənn etmək olar ki, kitabxanaçı təhsil aldığı müddət ərzində ixtisas bilikləri ilə yanaşı, yardımçı biliklərə də yiyələnir [84, 8].

Birinci növbədə bunu bilmək və müəyyənləşdirmək lazımdır: bu ixtisas ümumilikdə nəyə lazımdır? Kompüter və internet hazırda bütün dünya üzrə sərhədsiz informasiya axtarışı imkanı yaradır. İstəyimizə uyğun olaraq, bu imkanlardan yararlanıb ən qədim salnamələr haqqında məlumat ala bilərik. Amma hamı bu fikirlə razı olmaz ki, ən son model monitordan informasiya oxumaq ən pis vəziyyətdə olan kitabdan məlumat almaqdan yaxşı deyil. Amma bütün kitabları da əldə etmək mümkün deyil. Beləliklə, kitabxana yarandığı gündən bu günə kimi bizə informasiya-axtarış sahəsində hər cür yardım göstərir. Kitabxanaçı isə bu prosesin tez və dəqiq parametrləri üzrə yerinə yetirilməsinə kömək göstərən əsas faktdır. Baş verməkdə olan bu inkişaf onu deməyə imkan verir ki, gələcəkdə bütün bu informasiya axtarışları dövrün ən müasir tələblərinə uyğun kompüterlərlə həyata keçiriləcək. Bütün bu inkişafın önündə insan faktoru dayanır. Sadəcə olaraq kitabxanaçı peşəsinə verilən tələblər daha da təkmilləşəcəkdir. Bir misal ətrafında bu fikri təsdiqləmək mümkündür. Bir kitabı kompüterdən və kitabxanaçıdan sifariş edək. Komputerlə bu kitab haqqmda müzakirə aparmaq mümkün deyil. Amma kitabxanaçı ilə həmin kitab haqqında əhəmiyyətli müzakirə aparmaq mümkündür. Ancaq kitabxanaçının üzərinə düşən iş ənənəvi əməliyyatlarla məhdudlaşmır. Çox vaxt bu peşə muzey işi ilə, diyarşünaslıq işləri ilə bağlı olmuşdur. Məhz buna görə də bu peşəyə olan diqqət və qayğı artırılmış, ilk kitabxanaçı kurslarından ali kitabxanaçılıq təhsilinə qədər dinamik inkişaf yolu keçmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, respublika miqyaslı iri kitabxanalarda işləyən kitabxanaçıların digər kiçik rayon kitabxa-nalarında işləyən kitabxanaçılarla bir çox səviyyə fərqi vardır. Təbiidir ki, Milli Kitabxana müasir kompüter kitabxanası və avadanlığı ilə təchiz olunmuşdur (elektron kataloq, verilənlər bazası və s.). Bu texnikalarla işləyən *mütəxəssislərin keyfiyyət göstəriciləri də yüksək olmalıdır.*



Rayon və digər kitabxanalarda ən mürəkkəb texniki avadanlıqlar surətçıxarma aparatları, çap qurğuları və başqa yüngül texniki avadanlıqlardır ki, bunların öhdəsindən hər bir insan gələ bilər. Amma tələb olunan odur ki, bütün kitabxanalarda kompüterlər, verilənlər bazası, elektron kataloq, elektron poçt ünvanı, məsafədən asılı olmayaraq oxucuya xidmət imkanı olmalıdır. Bütün bu sadalananlar kitabxanaçılıq peşəsinə, onun professioqrammasına təsir göstərən amillərdir. *Kitabxanaçı peşəsi həmçinin sosial amillərlə sıx bağlıdır.* Çünki kitabxanaçı cəmiyyətin bütün təbəqələri ilə sıx əlaqədə olur.

Kitabxanaçılıq peşəsinin professioqramması əsasən 3 istiqamətdə formalaşır:

1. Həyata keçirilən əməliyyatlar;
2. Əmək şəraiti;
3. Psixoqramma [94, 121].

Kitabxanaçılıq peşəsinin həyata keçirdiyi əməliyyatlar bir çox amillərlə sıx bağlıdır:

– Oxuculara xidmət, ədəbiyyatın qeydiyyatının aparılması;

– Sərgilərin təşkili, mədəni kütləvi tədbirlərin, müxtəlif mövzular üzrə müzakirələrin təşkili;

– Elektron kataloqların təşkili və xidmət göstərilməsi;

– Elektrondaşıyıcılarda informasiyaların yaradılması və saxlanmasını təmin etmək və s.

Əmək şəraiti isə kitabxanaçı peşəsinə aşağıdakıları düzgün həyata keçirməyi tələb edir: iş yerinin düzgün təşkili, invertarların düzgün yerləşdirilməsi, kitab xalayıcıların, fondların düzgün qurulması, müxtəlif tədbirlərin keçirilməsi üçün binanın maddi-texniki bazasının düzgün təşkil olunması. Buraya kitabxana zallarının düzgün seçilməsi, binadaxili texniki avadanlıqların daim işlək vəziyyətdə olması, binanın düzgün işıqlandırılması, havalandırılması, istirahət guşəsi, bufetin olması və s. aiddir.

Psixoqramma: kitabxanaçının vacib fiziki keyfiyyətləri aşağıdakılardır:

1. Yaxşı yaddaş – ümumi oxu zallarında kataloqlarda sənədlərin necə yerləşdirilməsini yadda saxlamaq;

2. Güclü mütaliə qabiliyyəti – bu qabiliyyət kitabxanaçının çoxlu miqdarda kitabın məzmunu haqqında məlumatlı olmasına imkan yaradır;

3. Görmə qabiliyyətinin yüksək olması;

4. Güclü düşünmə və analiz qabiliyyəti – daxil olan informasiya haqqında tez, düzgün qərar vermək.

Vacib şəxsi keyfiyyətlərə bunlar daxildir:

– Müəyyən bir iş ətrafında qısa müddətdə fikrini cəmləşdirməyi bacarmalıdır;

– Tez yazıb çap etmək bacarığı (müasir texniki avadanlıqlardan istifadə);

– Uzun sürən fiziki və emosional yüklənmələrə dözmək bacarığı;

– Bütün tip oxuculara eyni səviyyədə xidmət etmək bacarığı;

– Estetik gözəllik bacarığı;

– İntellektual səviyyənin yüksək olması;

Beləliklə, belə bir qənaətə gəlmək olar ki, kitabxanaçılıq peşəsinin vacib cəhətlərindən biri kommunikativlik özünüidarə, insanlara və hadisələrə diqqətli olmaq, irimiqyaslı informasiyalarla işləmək bacarığıdır. Bütün bunlar kitabxanaçıya seçdiyi peşədə düzgün işləmək üçün və cəmiyyətə yararlı olmaq üçün düzgün keyfiyyətdir.

Kitabxanaçı peşəsinin özəlliyi ondan ibarətdir ki, bu peşə özündə keçmişi və gələcəyi birləşdirir. Bu peşə illər, hətta yüz illər boyu qazanılmış təcrübəni əldə rəhbər tutaraq müasir həyatda lazım olan informasiya yeniliklərini həyata keçirir. Bu peşə cəmiyyətin bütün sferalarına və ixtisaslarına düzgün fəaliyyət istiqaməti qurmaqda kömək edir.

Akademik D.S.Lixaçov yazır: "Kitabxanaçı özü alimdir, lakin bu alim bir sahədə deyil, bir neçə sahədə araşdırma aparmağa məhkumdur. Bu alim bütünlükdə özünü başqalarına həsr edir"[83, 114].

Tarixdən yaxşı məlumdur ki, SSRİ-də dövlətin ideoloji dayağı olan Kommunist Partiyasının əsas tələblərindən biri də bütün peşə sahələrində ideoloji məsələlərin önə çəkilməsi idi. Bu ideoloji fikir



kitabxanaçılıq sahəsinə də öz təsirini göstərmişdir. Bu təsirdən çıxmaq üçün ideoloji təbliğat ədəbiyyatını aradan qaldırmaq lazımdır.

XX əsrin 50-60-cı illərində SSRİ-də yaradılmış kitabxana-biblioqrafiya təsnifatının bütün 5 variantında I şöbə ədəbiyyatının marksizm-leninizm ədəbiyyatı olması heç də təsadüfi deyil. Hazırda kitabxanaçı peşəsi bu ideoloji məsələlərdən və fikirlərdən azad olmuşdur. Kitabxanaçı peşəsinin qarşısında yeni problemlər dayanır. Yeni informasiya mənbələrinin tapılması, kitabxana və kitabxana fonduna uzaq olan materialların fondda komplektləşdirilməsi kimi həlli vacib olan məsələlər kitabxanaçı peşəsinin qarşısında durur.

Müstəqillik əldə etdikdən sonra mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanalar çətin vəziyyətə düşmüşdülər. Bu illəri xarakterizə edərkən aşağıdakı faktorlara rast gələrik: Bəzi kitabxanalar bağlanma təhlükəsi ilə üzləşdi, bəzi kitabxanalar isə müasir telekommunikasiya vasitələrindən istifadə etməyə nail oldular.

Kitabxanaçı peşəkardır. Bəs bu gün o, necə fəaliyyət göstərir?

Kitabxanaçılıq təhsili və kitabxanaçılıq peşəsi müəyyən dövrlərdə öz ağır günlərini yaşamışdır. Zaman-zaman bu ixtisasa və bu peşəyə göstərilən "diqqət" bu sahə mütəxəssislərinin qarşısında həlli vacib olan bir məsələni qoymuşdur: "özün-özünə kömək et!"

Həqiqətən də elə bir kitabxanaçı yoxdur ki, onu kitabxananın vəziyyəti, kitabxanaçılıq təhsili və peşəsi narahat etməsin. Müəyyən müddət ərzində kitabxanaçılıq peşəsinin nüfuzu enən istiqamətdə olmuşdur. Doğrudur, bu peşənin və ixtisasın əhəmiyyəti barədə xeyli yazılar, fundamental əsərlər, elmi məqalələr yazılmışdır. Lakin bu fikirlər heç bir əməli addımlarla yekunlaşmamış, əksinə, kitabxanaçılıq sahəsində olan problemlər daha da dərinləşmişdir. Kitabxana işçiləri düşdükləri bu ağır vəziyyəti əmək fəaliyyətinin kəmiyyət və keyfiyyətinə mənfi təsir göstərən avtomatlaşdırma və mexanikləşdirmənin zəif olması ilə izah edirlər.

Həyatımızın müxtəlif sahələrində yüksək keyfiyyət əmsalı ilə seçilən avtomatlaşdırma və mexanikləşdirmənin həyata keçirilməsi mədəniyyət sahəsinə, o cümlədən kitabxanaçılıq sahəsinə də öz müsbət təsirini göstərməli idi. Lakin başqa səbəblər də var idi ki, bu

da həmin sahədə çalışmaq istəyən mütəxəssislərin az olması və yaxud ixtisasa, peşəyə dərindən bağlı olmamaları idi. Bu da peşə nüfuzunun aşağı düşməsinə təsir edən amillərdəndir. Məlumdur ki, kitabxanaçı peşəsinin nüfuzu bu sahədə çalışanların şəxsi keyfiyyətləri ilə də ölçülür. Qeyd etmək lazımdır ki, İ.V.Höte, İ.A.Krılov, V.V.Stasov, N.V.Lovoçevski, İ.Kant kimi alim və yazıçılar kitabxanaçı peşəsinə xüsusi dəyər vermiş və müəyyən müddət kitabxanalarda çalışmışlar. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, hazırda kitabxanalarda işləyənlərin əksəriyyəti qadınlardır. Bu da cəmiyyətdə qadın əməyinə, qadın əməyinin artmasına təsir göstərən amillərdən biridir.

Aparılan tədqiqatlar onu deməyə əsas verir ki, kitabxanaçı peşəsi cəmiyyətdəböyük nüfuzuolmayan peşələrdən sayılır. Dövlət tərəfindən həyata keçirilən sosial, mədəni, siyasi tədbirlər vətəndaşlar arasında bu peşənin sosial əhəmiyyətini daha da dərindən təlqin etməli və maraq oyatmalıdır.

Kitabxanaçılıq fəaliyyəti digər fəaliyyət sahələri kimi yüksək hazırlıq və bacarıq tələb etdiyindən, ali təhsil müəssisələrində bu sahə mütəxəssislərinin hazırlanmasında yeni yardımçı ixtisas biliklərinin tədrisi məqsədəuyğun hesab edilir. Kitabxanaya işçi kimi digər sahələrin mütəxəssislərini qəbul etmək olar, lakin onlar peşəkar kitabxanaçı kadr qədər əməkhaqqı almamalıdırlar. Çünki peşəkar əməkhaqqı yalnız sahə mütəxəssislərinə aid edilməlidir. Əksər kitabxana əməkdaşları qeyri-peşəkarlardır. Azərbaycan kitabxanalarının əksəriyyətində də qeyri-peşəkar kadrlar çalışır.

Əlbəttə, kitabxanaçı əməyinin, kitabxanaçı mədəniyyətinin peşəkarlığına təsir göstərən mənfi amillər də mövcuddur. Buraya kitabxana işinin təşkili, peşəkar fəaliyyət, yaradılmış və təşkil edilmiş əmək şəraiti aid oluna bilər. Kitabxanaçılar bir şeyə dərindən inanırlar ki, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi (müasir kommunikasiya texnologiyaları, internet, elektron kataloq, verilənlər bazası və s.) bu peşənin nüfuzunun artmasına səbəb olacaqdır. Təbii ki, pis təchiz olunmuş, maliyyə qaynaqları olmayan kitabxanalar və mədəniyyət ocaqları müasir dövrlə müqayisədə arxaik gö-



rünür və onlar informasiya axtarışı funksiyasının öhdəsindən uğurla gələ bilməzlər. Cəmiyyətin informasiya geriliyində təkcə kitabxanalar günahkar deyil. Kitabxanalar özləri də informasiya geriliyindən əziyyət çəkirlər. Mədəni əmək fəaliyyəti onu tələb edir ki, kitabxanaçı oxucu ilə bilavasitə əlaqəyə girsin. Azərbaycan kitabxanaçısı öz oxucusunu “sakit, dinməz halda kitab verilişi” funksiyasını yerinə yetirir. Lakin İsveçrə, Almaniya, ABŞ mədəni əlaqələrdə müqayisəolunmaz dərəcədə yüksəkdə dayanır. Adıçəkilən bu ölkələrdə kitabxanaçılar öz kitabxanalarının oxucular üçün yararlı olmasına çalışırlar, nəinki “sakit, dinməz halda kitab verilişi” funksiyasını yerinə yetirməyə. “Peşəkar dinməzlik” (heç nə deməmək) ona gətirib çıxarır ki, kitabxanaçı yalnız informasiyanın və biliyin daşıyıcısı yox, qoruyucusu kimi cəmiyyətdə qəbul edilir və bu peşənin əsas prioritet istiqamətlərindən olan informativlik ikinci pilləyə düşür.

Bəs kitabxanaçı peşəsinin nüfuzunu necə yüksəltmək lazımdır? Bəziləri bu problemin həlli yolunu kitabxanaçıların əməkhaqqılarının artırılmasında görür. Heç şübhəsiz ki, əməkhaqqı bütün sahələrdə olduğu kimi, kitabxanaçı əməyinin qiymətləndirilmə meyarıdır. Lakin əməkhaqqıların artırılması bütün kitabxanaçı problemlərini və peşədə olan ziddiyyətləri aradan qaldırmır. Ən böyük amillərdən biri o hesab olunur ki, peşəkar kitabxanaçı anlamı dəyişməlidir. Xüsusi, mənəvi ab-havanı yeniləmək, XIX əsrin sonu - XX əsrin əvvəllərində formalaşan kitabxanaçı fikrindən kənara çıxmaq lazımdır. Bugünkü kitabxanaçılar cəmiyyətdə lazımi dərəcədə diqqət və qayğı görmədiklərindən məyus olurlar. Onların əmək fəaliyyətinin lazımi dərəcədə qiymətləndirilməsi kitabxanaçıların peşəkar əmək fəaliyyətinə öz təsirini göstərir. Bu problemi aradan qaldırmaq heç də əməkhaqqıların artırılması ilə bağlı deyil. Digər tərəfdən, onların əksəriyyəti öz peşələrinə sadiqlik nümunəsi göstərmirlər. Lazımi ixtisas ədəbiyyatını oxumurlar, öz peşəkar fəaliyyətlərini təhlil etmirlər. Hətta övladlarının onların yolu ilə gedib kitabxanaçı olmasını belə arzulamırlar.

Qeyd etmək lazımdır ki, respublikamızın ali təhsil müəssisələrində ixtisas seçimi aparan abituriyentlərin tam əksəriyyəti bu peşə-

ni onun tam mahiyyətini dərk etmədən seçirlər. Bu fikir də gələcəkdə peşəkar kadrların yetişdirilməsini sual altına qoyur.

Yüksəkstajlı kitabxanaçılar hesab edirlər ki, bu vəziyyəti kökündən dəyişmək məhz onların özü ilə bağlıdır. Məhz kitabxanaçı öz peşəsini cəmiyyətə sevdirməli, onun mahiyyətinin cəmiyyətin bütün sferaları tərəfindən dərk edilməsinə nail olmalı, gənc, peşəkar kadrlara örnək olmalıdırlar. Bu fikirlərin ən öndə olması üçün kitabxanaçı peşəsinə dövlət qayğısının olması vacibdir. Təsadüfi deyil ki, dünyanın fövqəltəbii dövlətlərindən sayılan ABŞ-da kitabxanaçı peşəsinə yiyələnmək üçün mütləq ali təhsilin olması vacibdir.

Bugünkü kitabxanaçı necədir? Müasir şəraitdə o, özünü necə aparmalıdır?

Şübhəsiz ki, kitabxanalarda kollektivin əsas hissəsi hesab edir ki, pul qazanmaq üçün işləmək lazımdır. Prestij, nüfuz isə günbəgün özünü cəmiyyətə lazım olan şəxs kimi təqdim etmək üçündür.

Bütün kitabxanaların ən böyük çatışmayan cəhəti ondan ibarətdir ki, kitabxana əməkdaşları kitabxanaya gələn oxucularla əlaqəni ictimaiyyətlə əlaqə kimi qəbul edir və bu dar çərçivə ilə razılaşır. Həyata keçirilən işin effektivlik dərəcəsi o zaman ictimailəşir ki, bu fəaliyyət təkcə kitabxana oxucuları tərəfindən deyil, bütün ictimaiyyət tərəfindən qəbul olunur. Bu effektivlik əmsalının artmasında da məhz kitabxanaçının böyük əməyi olmalıdır.

70 ildən artıq kitabxana və kitabxanaçı əməyi dövlət tərəfindən aktiv surətdə maliyyələşmişdir. Hazırda bu tendensiya yenə də davam edir, lakin əksər kitabxanalara bazar iqtisadiyyatı dövründə fəaliyyət göstərmək üçün maliyyə müstəqilliyi verilmişdir. Bu maliyyə müstəqilliyi də kitabxanaçıların əmək fəaliyyətinin düzgün qiymətləndirilməsinə yönəldilməlidir. Bu günün kitabxanaçısı oxucusu ilə eyni hüquqda olmaq, onun üzərində informasiya hakimiyyətini qoruyub saxlamağa çalışmır. Kitabxanaçıların belə fəaliyyəti də professioqrammaya mənfi təsir göstərən amillərdəndir.

Göründüyü kimi, müəyyən dövrlər üçün müqəddəs hesab edilən kitabxanaçılıq peşəsinə müasir dövrdə xeyli irad tutmaq olar. Bu iradlar bu sahənin düşdüyü böhranla əlaqədardır.



Bəs bu böhrandan çıxış yolu nədədir? Hər bir kitabxanaya iqtisadi, sosial, mədəni sferada öz fikirlərini diqtə etmək üçün bir konsepsiya lazımdır. Bunun üçün kitabxanaların cəmiyyətdə nəzəri və praktik cəhətdən fəaliyyət sferalarını və nəzər nöqtəsini müəyyənləşdirmək lazımdır. Belə ki, kitabxanalar dinamik, çevik, fasiləsiz, qarşılıq gözləmədən fəaliyyət göstərən sosial qurumlar olmalıdır. Kitabxanaçılıq peşəsi heç də göründüyü və təlqin olunduğu kimi deyil. Kitabxanaçı – bu o peşədir ki, xüsusi kitabxanaçılıq təhsili vardır, kitabxana fondlarının təşkili və xidmət işi ilə məşğuldur. Kitabxanaçı informasiya ilə tələbatçı arasında ən böyük əlaqədir.

Müasir informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaçının fəaliyyət dairəsi tək kitabxana ilə məhdudlaşmalıdır. Bütün bu deyilənləri nəzərə alsaq, müasir kitabxanaçıya verilən tələbləri aşağıdakı kimi qruplaşdıra bilərik:

- İnformasiya aləminə çıxışı təmin etmək;
- Yüksək kitabxana mədəniyyətinin olması;
- İnformasiya biliklərinə yiyələnmək bacarığı;
- Oxucularla yüksək əlaqə qabiliyyəti;
- Yüksək intellektual səviyyə.

Lakin bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, müasir kitabxanaçılara informasiya axtarışını həyata keçirmək üçün ənənəvi məlumat-axtarış sistemləri ilə yanaşı, müasir informasiya-axtarış sistemlərini də bilməsi vacibdir.

Kitabxana insan cəmiyyəti üçün vacib elementdir. Bu elementin düzgün həyata keçirilməsi yenə də insan faktoru ilə (kitabxanaçı) əlaqədardır. Kitabxanaçı oxucuya təkcə maraqlı mövzuda kitabı məsləhət görməməlidir, o, həmçinin, bu ədəbiyyatın mütaliəsindən irəli gələn məsələləri öz oxucusu ilə müzakirə etmək bacarığında olmalıdır. Kitabxanaçılıq peşəsi ona görə maraqlı və diqqəti cəlb edən peşədir ki, kitabxanaçı hər sorğu xidmətini həyata keçirtdikdə özü də müəyyən informasiya əldə etmiş olur. "Dostuna qulluq elə, özün də formalaşarsan". Yüksək pedaqoji qabiliyyət, peşəkar biblioqraf savadlı kitabxanaçıların cəmiyyət üçün yararlı mütəxəssis olmasına təsir göstərən amillərdəndir.

Bu gün oxucularla iş kitabxanaçı peşəsinə kommunikativlik, emosionallıq, dərketmə və dinləmə qabiliyyəti, danışıqda lazımi ton kimi bacarıqları təlqin edir.

Kitabxanaçıların fəaliyyətinin tarixi təcrübəsini araşdırarkən məlum olur ki, oxuculara xidmət etikası kitabxanaçıların, eləcə də kitabxanaşünasların həmişə ciddi əhəmiyyət verdiyi bir məsələ olmuşdur.

Bu günün kitabxanaçısının qarşısında oxuculara xidmət etikasının mühüm tələblərinə əməl etmək kim bir vəzifə durur. Oxucunun mənəvi tələbatının tam dolğun, rahat və etik normalar çər-çivəsində ödənilməsi kitabxanaçının böyük məharəti, pedaqoji ustalığı kimi qiymətləndirilməlidir. Məhz bu cəhətdən öz fəaliyyətində etik normalara ciddi əməl edən kitabxanaçı əməyi yüksək hörmətə və qiymətə layiq görülür.

Kitabxanaçı əməyinin intellektual məzmunu, xeyirxahlıq xarakteri professor A.Xələfovun fikirlərində də öz əksini tapmışdır. O, yazır: "Kitabxanaçı elə əsaslı keyfiyyətlərə malik olmalıdır ki, kitabxananın başqa elementləri ilə mürəkkəb, qarşılıqlı köməyi sayəsində oxucu ilə dinamik canlı əlaqələr yaratsın, kitabxananın fasiləsiz fəaliyyət göstərməsini təmin etsin. Professional bilik və bacarıqları vahid formada formalaşdıran və kitabxanaçılıq sənətinin diferensasiya prinsipini özündə ehtiva edən peşəyə çevrilməlidir" [32, 16].

Beləliklə, kitabxanaçı yüksəktəhsilli insandır. Bu insanda oxucu psixologiyasına rəhbərlik etmək qabiliyyəti, pedaqoji peşəkarlıq, çeşidlərdən düzgün istifadə, texniki avadanlıqlarla davranış bacarığı (informasiya ilə əlaqəli olan texniki avadanlıqlar), təşkilatçılıq və təbliğatçılıq qabiliyyətləri birləşməlidir. Kitabxanaçı ətrafda baş verən hadisələrə laqeyd qalmamalı, aqressiv və özünəqapalı olmamalıdır. Kitabxana prosesində bir fikir xüsusilə təlqin olunur ki, kitabxanaçının oxucuya və ictimaiyyətə olan münasibətini bir-birini tamamlamalıdır.

Bir amerikalı filoloq Fransanın kitabxanalarında və arxivlərində apardığı irimiqyaslı tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmişdir ki, kitabxanada aşağı xidmət, pis təminat fondun tərtibatı və təminatı ilə əlaqədar deyil, xidmət personalının düzgün qurulmamasındadır. Doğrudan da milyonlarla kitab fondu olan kitabxanalarda kitabxanaçı xidməti göstərilməsə, informativlik əmsalı aşağı olar.



1939-cu ildən etibarən ABŞ Kitabxanaçılıq Assosiasiyası sistematik olaraq kitabxanaçılıq etikasına dair müxtəlif kodekslər qəbul etmişdir. 1981-ci ildə qəbul olunmuş etik kodeksdə bir neçə prinsip önə çəkilmişdir:

– Kitabxanaçılara kadrlara yüksəksəviyyəli fəaliyyət şəraiti yaratmaq;

– Kitabxana materiallarına yönələn senzuraya qarşı mübarizə aparmaq;

– Bəzi istifadəçilərin əldə etdiyi informasiyaların məxfiliyini qoruyub saxlamaq.

Məlum olduğu kimi, uzun illər Rusiya kitabxanalarında tətbiq edilən etik kodekslər Azərbaycan kitabxanalarında da eynilə tətbiq olunmuşdur. Rusiya və Azərbaycan kitabxana mütəxəssislərinə Hindistan kitabxanaşünas alimi S.Ranqanatanın "5 qanun" etik kodeksi daha yaxın idi.

Beləliklə, maddi-texniki bazanın yüksək olması, fəaliyyət şəraitinin əlverişli olması, kitabxanaçı kadrların üzərilərinə düşən məsuliyyəti dərindən dərk etmələri və nəhayət, bu peşənin cəmiyyət üçün yararlı olduğunu mənimsəmək kitabxanaçılıq peşəsinə verilən ən mühüm tələblərdən biridir.

## 2.2. Dövlət standartları, tədris planları, onların quruluşu və kitabxanaçı-biblioqraf kadr hazırlığı strategiyasında yeri

Qloballaşan informasiya dövründə cəmiyyət üçün ixtisaslı kadr hazırlamaq günün vacib tələblərindən biridir. Hazırda dünya təhsil təcrübəsinə əsaslanmaqla hazırlanan kitabxanaçı kadrlar kitabxana və informasiya işinin spesifik xüsusiyyətlərini özündə birləşdirməlidir. Dünyanın müxtəlif ölkələrinin ali məktəblərində hazırlanan kitabxanaçı kadrlar kəmiyyət və keyfiyyət etibarilə bir-birindən köklü surətdə fərqlənsə də, bu kadrları birləşdirən bir əsas xüsusiyyət vardır. Bu da bu kadrlara tədris olunan ixtisas fənn blo-

kunun yaxınlığıdır. Təbii ki, bu kadrların hazırlanmasında istifadə olunan tədris planları bir-birindən fərqlənir. Lakin bütün tədris planlarının bir əsas qayəsi vardır: o da yüksəkixtisaslı peşəkar kadr hazırlamaqdır.

Azərbaycan Respublikasında kitabxanaçılıq təhsili ali kitabxanaçı kurslarında, orta ixtisas təhsilli məktəblərdə yaranıb formalaşsa da, yüksəkixtisaslı kitabxanaçı kadr hazırlığı ali təhsil müəssisəsi olan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin üzərinə düşür. Azərbaycanda kitabxanaçılıq təhsilinin formalaşmasında xüsusi xidmətləri olan prof. A.Xələfovun dediyi kimi, "yüksəkixtisaslı kadrların hazırlanması tədris prosesinin planauyğun, ardıcıl və məqsədyönlü təşkilindən ibarətdir. Bu iş isə bilavasitə kadr hazırlığının strategiyası hesab edilən tədris planlarının dövrün tələblərinə, elmi tərəqqinin səviyyəsinə, elmi proqnozlar əsasında bu və ya digər elmi inkişaf perspektivlərinə, ixtisasın, sənətin gələcəyinə əsaslanaraq tərtib edilmişdir" [32, 18].

Bu fikri bir qədər də inkişaf etdirərək əlavə etmək istərdik ki, kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramları eyni zamanda müasir dövrdə dünya informasiya məkanında getdikcə mürəkkəbləşən kitabxana-informasiya proseslərini nəzərə alan, müasir texnologiya zəminində həyata keçirilən kitabxana proseslərini, kitabxana xidmətindəki demokratik prinsipləri, cəmiyyətdə kitabxana işinin idarə olunmasının elmi, iqtisadi, sosioloji, hüquqi və s. məsələlərini əks etdirən sənədlər olmalıdır. Kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramları gündəlik kitabxana təcrübəsi ilə ayaqlaşan, gələcək mütəxəssislərə öz ixtisası üzrə informasiya əsrinə uyğun peşə biliklərini aşılamaq üçün geniş imkanlar açan vasitə olmalıdır. Bütün bunlar tədris planları və proqramlarının tərtibi prosesinə geniş oxucu kütlələrinə, informasiya istehlakçılarına kitabxana xidməti işində zəngin təcrübəyə və mütərəqqi ənənələrə malik olan metodik mərkəzlərin cəlb olunmasını tələb edir.

Prof. A.Xələfov qeyd edirdi ki, müasir şəraitdə kitabxanaçı kadr hazırlığı iki mühüm prinsip əsasında aparılmalıdır:



1. Professional bilik və bacarıqların vahid formalaşmasını nəzərdə tutan kitabxanaçılıq sənətinin bütövlüyü;

2. Kitabxanaçılıq sənətinin differensiasiyası: bunun da əsasında kitabxanaçıların ixtisaslaşması durmalıdır [35, 16].

Kitabxanaçılıq fakültəsi mövcud olduğu vaxtdan (hələ şöbə olarkən) Sovet kitabxanaçılıq təhsilinə əsaslanmış və SSRİ Təhsil Nazirliyi tərəfindən hazırlanmış tədris planına uyğun fəaliyyət göstərmişdir. 1987-ciilədək kitabxanaçı kadr hazırlığını həyata keçirmək üçün 5 tədris planı işlənib hazırlanmışdır. İndi isə bu tədris planlarının müqayisəli təhlilini verək.

Məlum olduğu kimi, Kitabxanaçılıq şöbəsi Filologiya fakültəsinin nəzdində yaradıldığından, ilk illərdə bu şöbənin tələbələrinin sayı az olmuş və əksər dərslər Filologiya fakültəsinin tələbələri ilə birgə keçirilmişdir. Bu zaman da filoloji fənlər bloku üstünlük təşkil etmişdir. Bu tendensiya Şərqşünaslıq fakültəsində də davam etmişdir. Buna görə də BDU-nun Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsi üçün hazırlanan tədris planı respublikamızda kitabxanaşünas-biblioqraf ixtisası üzrə ilk tədris planı olmuşdur.

Filologiya fakültəsi üçün hazırlanmış bu tədris planının 70-80 faizini filoloji elmlər təşkil edirdi. Zaman keçdikcə bu sahə üzrə mütəxəssis kadrların yetişməsi, xüsusilə də Rusiyada hazırlanan tədris planları ilə yaxından tanışlıq bu tədris planına dəyişiklik edilməsinə, ixtisas fənlərinin artırılmasına səbəb oldu və artıq 1955-ci ildə yeni tədris planı təsdiq olundu. 1955-ci ildə SSRİ Təhsil Nazirliyi artıq bir neçə universitetdə kitabxanaçılıq şöbələrinin yaradılmasını nəzərə alaraq, yeni tədris planı hazırladı. Buaddımı atmağa ona görə zəmin yaranmışdı ki, artıq Kitabxanaçılıq şöbəsinin yetərincə məzunu var idi və bu da onu deməyə imkan yaradır ki, bu peşə Filologiya fakültəsinin bir sahəsi deyil, müstəqil fəaliyyət dairəsinə malikdir. Bu, özünəməxsus, spesifik xüsusiyyətləri olan bir sahədir. Bu tendensiya yavaş-yavaş inkişaf etməli, tədris planında olan ixtisas fənlərinin xüsusi çəkisi artmalı idi və gələcəkdə (1962) bu şöbənin müstəqil fakültəyə çevrilməsində şöbədə dərs deyən müəllimlərin fədakar əməyini qeyd etmək lazımdır. İxtisas ədəbiyyatının mey-

dana çıxması, ixtisaslı kadrların formalaşması müstəqil fakültənin yaranması üçün böyük əhəmiyyət kəsb edən faktorlardan biri idi. Artıq növbəti tədris planlarında ixtisas fənlərinin xüsusi çəkisi digər fənlərlə müqayisədə xeyli artdı.

1955-ci ildə qəbul edilmiş tədris planı universallığı, hərtərəfliliyi, ixtisas fənlərinin geniş əhatə edilməsi və kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq fənlərinin xüsusi çəkisinin çox olması ilə diqqəti cəlb edirdi. Bu nailiyyət böyük bir təkamül prosesinin nəticəsi idi. Bu plan kitabxanalar üçün hərtərəfli biliyə və təşkilatçılıq bacarığına malik olan kadrların hazırlanmasını nəzərdə tuturdu. Bu planın qəbulu adi bir embrion vəziyyətdən böyük bir orqanizmə qədər keçilən tarixi yolun nəticəsi idi.

1955-ci il tədris planında ümumtəhsil fənləri ilə yanaşı, ixtisas fənlərinə çox geniş yer verildiyindən professional səviyyədə mütəxəssis hazırlamaq üçün münbit şərait yaranmışdı. Məhz bu planda ilk dəfə olaraq ixtisas fənlərinə dair 15 fənnin keçirilməsi nəzərdə tutulurdu.

1964-cü ildə Bakı Dövlət Universitetinin Tarix, Hüquq və Kitabxanaçılıq fakültələri üçün yeni 4 illik plan hazırlandı. Bu, müstəqil Kitabxanaçılıq fakültəsi üçün sayca birinci, Kitabxanaçılıq şöbəsi üzrə isə üçüncü tədris planı idi. Adıçəkilən bu fakültələr bu 4 illik planla elə 4 il işlədilər.

1968-ci ildə yeni tədris planı (5 illik) təsdiq olundu. Lakin kitabxanaçılıq fakültələri üçün yeni 5 illik tədris planı təsdiq olunmadı, onlar 4 illik tədris planı üzrə fəaliyyət göstərirdilər. Buna görə Vilnüs və Azərbaycan universitetlərinin kitabxanaçılıq şöbələri yeni 5 illik tədris planına keçmək barədə SSRİ Təhsil Nazirliyinə müraciət etdilər (1969) və bu xahiş nəzərə alındı. 1969-cu ildə Vilnüs universitetlərinin kitabxanaçılıq şöbələri 5 illik tədris planına keçdi. 1970-ci ildə BDU-nun Kitabxanaçılıq fakültəsi bu tədris planı ilə işləməyə başladı. Bu, artıq dördüncü tədris planı idi. Bu tədris planı özündən əvvəlki tədris planlarından köklü surətdə fərqlənirdi.

Əlbəttə, hər bir tədris planı və dövlət standartı özündən əvvəlki tədris planını qismən təkzib etsə də, onun bazası əsasında müasir



tələbləri nəzərə alan yeni tədris planları və standartları hazırlanır. Bu baxımdan 1970-ci ildə qəbul olunmuş tədris planı bu planadək olan bütün tədris planlarından köklü surətdə fərqlənirdi, çünki indiyədək heç bir tədris planında olmayan fənlər – ali riyaziyyat, iqtisadiyyat, hesablama texnikası, sənaye iqtisadiyyatı, elmi-texniki informasiya kimi fənlər daxil edilmişdi. Bu planda kütləvi kitabxanalarla yanaşı, elmi-texniki kitabxanalar üçün də kadrların hazırlanması nəzərdə tutulurdu və bu ixtisaslaşma 4 istiqamətdə aparılırdı:

1. Kütləvi kitabxanalar;
2. Elmi kitabxanalar;
3. Texniki kitabxanalar;
4. Uşaq və məktəb kitabxanaları.

Bu tədris planının tətbiqi birmənalı qarşılanmadı, tərəfdarları və əleyhdarları meydana çıxdı. Buna baxmayaraq, bu tədris planı 14 il (1970-1984) qüvvədə oldu. Bu tədris planında keçilən elmi-texniki fənlərin üstünlüyü ondan ibarət idi ki, kitabxanaçı kadrlar müasir texniki qurğu və avadanlıqlarla yaxından tanış olur, onları öz sahələrinə uyğun tətbiq etmıyi bacarırdılar.

Bakı Dövlət Universiteti və V.Kapsukos adına Vilnüs Dövlət Universiteti SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinə kitabxanaşünas-biblioqraf ixtisası üzrə 5 illik tədris planlarının təsdiqi üçün dəfələrlə müraciət etsə də, bu planlar ancaq 1984-cü ildə təsdiq olundu. 1984-cü ildə BDU üçün təsdiq edilmiş fərdi tədris planı 1984-1985-ci dərs ilindən tətbiq olunmağa başladı. Yeni təsdiq olunmuş tədris planı öz universallığı, elmiliyi ilə fərqlənirdi. Plan tərtib edilərkən universitetlərin və mədəniyyət institutlarının tədris planlarından istifadə edilmiş, ən yaxşı cəhətlər nəzərə alınmışdı. Əvvəlki planda olan nöqsanlar düzəldilmiş, elm, mədəniyyət və texnikanın son nailiyyətləri ilə bağlı yeni fənlər daxil edilmişdi. Planda ixtisas fənlərinə daha geniş yer verilmiş, onların saatları artırılmışdı. Vilnüs universitetinin tədris planında ixtisas fənləri üzrə 1700 saat dərs olduğu halda, BDU-nun yeni tədris planında 2000 saatdan artıq idi. Əvvəlki plandan fərqli olaraq, ixtisaslaşmalar ədəbiyyat komp-

lekslərinə görə aparılmış, kitabxanaların vəzifələrinə uyğun yeni fənlər ixtisaslaşmalara daxil edilmişdi [35, 64].

Bu planda 7 ixtisaslaşmanın aparılması nəzərdə tutulurdu:

1. İctimai-siyasi ədəbiyyatın kitabxanaşünaslığı və biblioqrafiyası;
2. Bədii ədəbiyyatın və incəsənətə dair ədəbiyyatın kitabxanaşünaslığı və biblioqrafiyası;
3. Uşaq və gənclər ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası;
4. Kənd təsərrüfatı ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası;
5. Texniki ədəbiyyatının kitabxanaşünaslığı və biblioqrafiyası;
6. Elmi-tibbi ədəbiyyatın kitabxanaşünaslığı və biblioqrafiyası;
7. Kütləvi kitabxanalar [35, 65].

Yeni tədris planının təsdiqi Kitabxanaçılıq fakültəsində ictimai və fundamental elmləri, ixtisas fənlərini dərindən bilən yüksək professional və intellektual səviyyəli kitabxana işçiləri, kitabxana işi təşkilatçılarının hazırlanması üçün imkan yaratmışdır. Məhz 1980-ci illərdə fakültənin qarşısında duran əsas vəzifə bu planın tələbinə uyğun olaraq, tədris prosesini yüksək səviyyədə təşkil etməkdən, onun səmərəliliyini və keyfiyyətini artırmaqdan ibarət olmuşdur.

1993-cü ildən respublikamızda ali kitabxanaçı kadr hazırlığı üç mərhələdə aparılır (bakalavr, magistr, doktor). Bakalavr hazırlığına 1993-1994-cü tədris ilində başlanmış, 1996-1997-ci tədris ilində ilk buraxılışı olmuşdur. 1997-1998-ci tədris ilindən magistr hazırlığına başlanmışdır. Hər iki mərhələnin tədris planları tərtib olunmuş, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bakalavr hazırlığının tədris planında əsasən ümumi ixtisas fənlərinin, əsaslı elmlərin öyrənilməsinə yer ayrılmışdır. Magistr hazırlığında isə ixtisaslaşmaya daha geniş yer verilmişdir.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi 2001-ci ildən Kitabxanaçılıq-informasiya fakültəsi adlanmağa başlandı. Fakültənin adının ikinci hissəsinə (informasiya) uyğun olaraq, tədris planına yeni fənlərin daxil edilməsi günün vacib tələblərindən biri



oldu və artıq müasir informasiya məkanı ilə ayaqlaşan fənlər fakültədə tədris olunmağa başladı. “Kitabxanaların komputerləşdirilməsinin əsasları”, “Kitabxana-informasiya texnologiyaları”, “Elektron kataloq” kimi fənlər buna misal ola bilər. Hətta ənənəvi kitabxanaşünaslıq fənlərinin adlarında belə, dəyişiklik olundu və bütün bu fənlərin birləşəcəyi bir kafedra formalaşdı ki, bu da Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrası oldu. Bunun da nəticəsində müasir informasiya texnologiyalarını dərindən bilən mütəxəssislər fakültəyə dəvət aldılar, müasir informasiya dövrü ilə ayaqlaşan fənlərin tədrisinə geniş yer ayrıldı [43, 44].

Müasir dövrdə insan fəaliyyətinin bütün sahələrində kompüter texnologiyası vacib yer tutur. Müasir informasiya-axtarış sistemlərindən istifadə, intrnet resurslarından layiqincə yararlanmaq məqsədilə fakültədə kompüter laboratoriyası yaradılmışdır. Qeyd etmək istərdik ki, bu laboratoriyanın yaradılmasında Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti, professor X.İ.İsmayılovun müstəsna rolu olmuşdur.

Fakültədə tədris olunan ənənəvi məlumat-axtarış sistemləri ilə yanaşı, dövrün, zamanın tələbinə uyğun olaraq, müasir informasiya-axtarış sistemlərini özündə ehtiva edən fənlər də tədris planlarına salınmışdır.

Məlum olduğu kimi, 2009-cu ildə respublikamızda yeni “Təhsil haqqında” Qanun qüvvəyə mindi. Bu qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli, prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəl-

xalq müqavilələrə əsaslanaraq, təhsil sahəsində milli, mənəvi və ümumbəşəri dəyərlərin prioritetliliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir. Qəbul olunmuş yeni "Təhsil haqqında" qanun özündə Bolonya sisteminin prioritet istiqamətlərini birləşdirirdi. Tədris planlarının tərtibində də Bolonya sisteminin spesifik xüsusiyyətləri nəzərə alınırdı.

2001-ci ildən etibarən Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması ölkəmizin Avropa məkanına inteqrasiyasını sürətləndirmişdir. Bu proseslərin tərkib hissəsi kimi, Azərbaycan Respublikası Avropa ölkələrinin təhsil nazirləri tərəfindən qəbul edilmiş Bolonya Bəyannaməsini imzalamaqla, respublika ali təhsil müəssisələrinin Avropa təhsil sisteminə inteqrasiyası yolunda mühüm addım atmışdır.

Bolonya sistemi ilə Azərbaycan təhsili arasında olan əlaqəni qısaca şərh edək.

Dünya ölkələrinin istifadə etdiyi təhsil sistemlərindən biri də Bolonya təhsil sistemidir. Bu təhsil sisteminin tarixi o qədər də qədim deyil. Prosesin rəsmi başlanğıcı 1999-cu il iyulun 19-u hesab olunur. Həmin tarixdə İtaliyanın Bolonya şəhərində 29 Avropa ölkəsinin təhsil nazirlərinin xüsusi konfransında "Avropa ali təhsil məkanı" Bəyannaməsi və ya Bolonya Bəyannaməsi qəbul olunmuşdur. Bolonya sistemi digər ölkələr üçün də açıqdır. Sonralar Avropanın bir neçə şəhərində bu mövzuda diskussiyalar keçirilmişdir. Hazırda Bolonya sistemi 46 ölkəni özündə birləşdirir. Rusiya 2003-cü ildə qoşulmuşdur. Avropa ali təhsil məkanını yaratmaq, eləcə də bu sistemi dünya miqyasında fəallaşdırmaq məqsədilə Bolonya prosesi kompleks əlaqəli məsələləri əhatə edir. Əhatə olunan bu məsələlər Avropa ölkələrində biliyin keyfiyyətinin qiymətləndirilməsinin üsullarına və təhsil sisteminin yaxşılaşmasına yönəlmişdir. Bolonya prosesində ali təhsilin 3 pilləsi həyata keçirilir:

1. Bakalavr dərəcəsi;
2. Magistr dərəcəsi;
3. Doktorantura dərəcəsi [56, 7].



Respublikamız da bu prosesə qoşulmaq üçün 2004-cü ildə ilk addımlarını atmağa başladı. 2005-ci ilin may ayının 19-da Norveçin Berqen şəhərində keçirilən konfransda Azərbaycan Bolonya prosesinin həqiqi üzvü seçilmişdir.

Azərbaycanın bu prosesə qoşulmaqda əsas məqsədi Avropa təhsil məkanına inteqrasiya olunmaqla kredit sisteminə keçməsinin, müasir attestasiya və akkreditasiya sisteminin qurulmasının təmin olunmasıdır. Azərbaycanda Bolonya prosesi bir neçə təhsil ocağında tətbiq olunur ki, bunun da uğurlu nəticələri görünür. Məsələn, Bakı Dövlət Universiteti, Xəzər Universiteti, Qafqaz Universiteti kimi ali təhsil ocaqları bu təhsil sistemindən uğurla istifadə edirlər.

Kitabxanaşünas-biblioqraf ixtisasının bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələbləri 2009-cu ildə dövlət standartında öz ətraflı şərhini tapmışdır. 2009-cu ildə təsdiq edilmiş dövlət standartında kitabxanaşünas-biblioqraf kadr hazırlığı üzrə fənlər aşağıdakı bölgülər üzrə qruplaşdırılmışdır:

**1. Humanitar fənlər bloku:**

– Azərbaycan tarixi;
– Xarici dil;
– Psixologiya və pedaqogika;
– Seçmə fənlər.

**2. İxtisasın (proqramın) peşə hazırlığı fənləri:**

– Kitabxanaçılıq informatikası;
– Riyaziyyat;
– Azərbaycan ədəbiyyatı tarixi (Folklor, klassik və müasir Azərbaycan ədəbiyyatı);
– Kitabxanaşünaslığa giriş;
– Azərbaycan kitabxanalarının tarixi;
– Dünya kitabxanalarının tarixi;
– Sənədlərin biblioqrafik təsviri;
– Sənədlərin təsnifləşdirilməsi;
– Kitabxana-informasiya resursları;
– Kitabxana işinin təşkili və idarə olunması (Menecment);
– Kitabxana xidməti;

– Ümumi biblioqrafiyaşünaslıq;
– Kitabxanada biblioqrafiya işinin təşkili və metodikası;
– Xarici biblioqrafiya;
– Kitab tarixi;
– Kitabxana-informasiya texnologiyası;
– Bədii ədəbiyyat. Ədəbiyyatşünaslıq və incəsənətin biblioqrafiyası;
– Kitabxanaların kompüterləşdirilməsinin əsasları;
– Kitabxana işinin iqtisadiyyatı;
– Kitabxanaların elmi-metodiki təminatı;
– Ölkəşünaslıq biblioqrafiyası;
– Elektron kataloq;
– Beynəlxalq kitabxana təsnifatları;
– Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi;
– Normativ-texniki və patent ədəbiyyatının biblioqrafiyası.

**1. Peşə hazırlığının seçmə fənləri.**

**2. İxtisaslaşmanın seçmə fənləri.**

**3. Xüsusi fənlər.**

Azərbaycan bölməsində təhsil alanlar öz arzuları ilə həmin saat həcmində ikinci xarici dil, yaxud Azərbaycan dili və nitq mədəniyyəti fənlərini seçə bilərlər.

Seçmə fənlərə ali məktəb tərəfindən Fəlsəfə, Politologiya, Sosiologiya, İqtisadiyyat, Mədəniyyətşünaslıq, Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları və s. humanitar, sosial-iqtisadi fənlər daxil oluna bilər.

Peşə hazırlığının və ixtisaslaşmanın seçmə fənləri blokları ali məktəblər tərəfindən müəyyənləşdirilir. Tələbə peşə hazırlığının seçmə fənləri bloklarının hər birindən bir fənni seçməlidir. Eyni zamanda, tələbəyə seçdiyi ixtisaslaşma blokunun bütün fənləri tədris edilməlidir.

Bütün bölmələrdə seçmə fənlər bir neçə blokdan (ən azı iki blok) ibarət ola bilər. Bu zaman bloklara ayrılan cəmi seçmə fənlər üçün ayrılmış saatların miqdarını aşmamalıdır. Tələbə həmin blokların hər birindən yalnız bir fənn seçmək hüququna malikdir və



onun seçdiyi bu fənn həmin bloka ayrılan saat həcmində tədris olunmalıdır. Məsələn, fərz edək ki, ali məktəb tərəfindən humanitar bölümə daxil olan seçmə fənlər (cəmi 90 saat) üzrə iki blok müəyyənləşdirilmişdir. Birinci bloka seçmə fənlərdən “Fəlsəfə”, “İqtisadiyyat”, “Politologiya”, ikinci bloka “Mədəniyyətşünaslıq”, “Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları”, “Sosiologiya” fənləri daxil edilmişdir. Birinci bloka daxil olan fənlərin tədrisinə 60, ikinci bloka daxil olan fənlərə isə 30 saat müəyyənləşdirilmişdir. Əgər tələbə birinci blokda “Fəlsəfə”ni, ikinci blokda isə “Sosiologiya”nı seçibsə, onda ona həmin fənlər müvafiq olaraq 60 və 30 saat həcmində tədris olunmalıdır.

Qəbul olunmuş son dövlət standartında bakalavrın peşə fəaliyyətinin əsas sahələri aşağıdakı kimi qruplaşdırılmışdır:

– Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri, təşkilatlar, idarələr, müəssisələr, birliklər;

– Mövcud qaydalara riayət olunmaqla müxtəlif kitabxana-informasiya müəssisələri.

Dövlət standartında bakalavr dərəcəsi alan tələbələrin aşağıdakıları bilməsi tələb olunur:

– Azərbaycan tarixini, dövlət dilini, xarici dillərdən birini bilməli, eləcə də humanitar və sosial-iqtisadi fənlər üzrə ümumi biliklərə malik olmalıdır;

– Kitabxanaçılıq-informasiya ixtisas dərəcəsi almış məzun işləyəcəyi kitabxana-informasiya müəssisələrində oxuculara kitabxana-biblioqrafiya xidmətinin müasir tələblər səviyyəsində həyata keçirməyə hazır olmalıdır. Müxtəlif metod və vasitələrdən istifadə etməklə istifadəçilərin informasiya tələbatını öyrənməli, mövcud resurslardan onların səmərəli istifadəsini təşkil etməyi bacarmalıdır. Öz peşə hazırlığını daim artırmalı, bu məqsədlə seminarlarda, konfranslarda, treninqlərdə, ixtisasartırma kurslarında iştirak etməlidir.

İndi isə dövlət standartındakı blokların izahını verək.

**Humanitar fənlər üzrə:**

Məzunlara Azərbaycan tarixi fənni akademik səviyyədə tədris olunmalı, onlarda Azərbaycan xalqının keçdiyi yol və gerçəkliklər haqqında faktoloji və nəzəri biliklər əsasında obyektiv fikir söyləmək, diskussiya aparmaq vərdişi və bacarığı aşılanmalıdır. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, tarixi şəxsiyyətlərin bu mübarizədə rolu, Azərbaycan tarixinin dövrləri, onun mənbələri, Azərbaycan tarixinin öyrənilməsinin metodu və metodologiyası haqqında biliklər verilməlidir. Ali məktəb kursu tələbələrin orta məktəbdə aldığı bilikləri genişləndirməli və tamamlamalıdır.

Azərbaycanın dövlət dili Azərbaycan dili olduğundan burada yaşayan hər bir vətəndaşın Azərbaycan dilini bilməsi vacibdir. Təlimi rus dilində olan tələblər Azərbaycan dili fənni vasitəsilə bu dilin əsaslarını mənimsəməli, eşidib-anlama vərdişlərinə yiyələnməli, ünsiyyət bacarığı əldə etməlidirlər.

İxtisas dilindən əlavə bir xarici dilin mənimsənilməsi mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm göstəricidir. Seçim əsasında tədris olunan xarici dillərdən (ingilis, alman, fransız, italyan, ispan, rus və s.) bir üzrə minimum yazı və nitq vərdişlərinin aşılanması bu fənnin əsas məqsədidir.

Fəlsəfə, Politologiya, İqtisadiyyat, Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları, Sosiologiya, Mədəniyyətşünaslıq kimi fənlər seçmə fənn kimi tədris olunur və tələbənin bu fənlərdən birini seçərək proqramı yerinə yetirməsi məcburidir.

**İxtisasın (proqramın) peşə hazırlığı fənləri üzrə:**

Bakalavr hazırlığı proqramının əsas yükünü daşıyan bu bloka daxil olan fənlərin tədrisinin ümumi məqsədi məzunları peşə fəaliyyətinə hazırlamaq, kitabxanaçılıq-informasiya ixtisası üzrə ümumi nəzəri və praktiki biliklər verməkdir. Buraya kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq fənləri, psixologiya, həmçinin praktik kitabxanaçılıq-informasioloq hazırlığını təmin edən fənlər daxildir. Məzun bu fənləri mınimsəməklə aldığı ixtisas üzrə nəzəri təlimlərə, kitabxanaçılıq-informasiya fəaliyyətinin əsaslarına, həmçinin gələcək fəaliyyət üçün praktik bacarıq və vərdişlərə yiyələnir. Burada tələbəyə öz ümumpeşə hazırlığını artırmaq üçün geniş fənn seçimi imkanı verilir.



**Peşə hazırlığının seçmə fənləri:**

Bu bloka daxil olan fənlər məzunun aldığı ixtisasa uyğun ixtisaslaşmasını təmin edir, onun geniş peşə hazırlığı ilə yanaşı, dar ixtisaslaşma üzrə nəzəri və təcrübi biliyini artırır.

**İxtisaslaşmanın seçmə fənləri üzrə:**

Bu bloka daxil olan fənlər məzunun dar ixtisaslaşma üzrə nəzəri və təcrübi biliyini artırır və magistratura pilləsinə keçid üçün baza rolunu oynayır. Bakalavr ixtisas fənlərinin tarixini, nəzəriyyəsini, təşkili və metodikasını, məqsəd və vəzifəsini və s. dərindən mənimsəməlidir.

**Xüsusi fənlər üzrə:**

Bu bloka daxil olan fənlərin məqsədi tələbələrin fiziki sağlamlığını qorumaq və ekstremal şəraitdə davranış qaydalarını öyrənməkdir.

Respublikamızda kitabxanaçı kadr hazırlığı təkcə BDU-nun Kitabxanaçılıq-fakültəsində aparılmır. Ayrı-ayrı orta ixtisas təhsilli məktəblərdə, o cümlədən və kolleclərdə (Bakı Humanitar Kolleci, Şuşa Humanitar Kolleci, Şamaxı orta ixtisas məktəbi) kitabxanaçılıq peşəsi ilə bağlı ixtisaslar vardır. Adıçəkilən bu təhsil ocaqları da öz tədris planlarını hazırlayarkən BDU-nun qəbul etdiyi tədris planlarından layiqincə yaralanırlar.

Təhlil olunmuş bu standart 2009-cu ildə qəbul edilmişdir. Hazırda tətbiq edilən dövlət standartında ilk dəfə olaraq məzunun ixtisas xarakteristikası və kompetensiyası verilmişdir:

– bakalavrın fundamental və peşə hazırlığına uyğun olaraq ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də ixtisası üzrə magistraturada təhsil almağa hazır olmalıdır;

– mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri, təşkilatlar, idarələr, müəssisələr, birliklər və s. sferalarda işləyə bilməlidir;

– mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali məktəbdə elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) çalışa bilməlidir.

Bu standarta görə məzunun kompetensiyasına aşağıdakı tələblər qoyulmuşdur:

– kollektivdə işləmək;
– digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq;
– beynəlxalq arenada işləmək;
– hüquqi biliklərə və etik normalara yiyələnmək;
– sağlam həyat tərzini qoruyub saxlamaq;
– yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
– mədəniyyətlərarası dialoqa hazır olmaq;
– tənqid və özünütənqidə dözümlülük göstərmək;
– problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək;
– xarici dildə sadə mətnləri oxuyub tərcümə etmək və fikrini ifadə etmək;
– İKT-dən istifadə etməyi bacarmaq;
– öz inkişafına, peşəkarlığının artırılmasına daim çalışmaq;
– fikrini düzgün və yığcam ifadə etmək.

Burada eyni zamanda peşə kompetensiyasının istiqamətləri təhlil olunmuşdur. Onlar aşağıdakılardır:

– fəaliyyət sahəsinə aid olan iş proseslərinin nəzəri əsaslarını və onların əsas problemlərini, konkret tətbiq sahələrini bilmək;
– peşə fəaliyyətində İKT-dən istifadə etmək;
– ixtisasla bağlı anlayış və terminlərin mənasını bilmək və tətbiq etmək;
– qarşıya müəyyən vəzifələr qoymağı, onları həll etməkdə müvafiq metodları seçməyi və tətbiq etməyi bacarmaq;
– informasiya tələbatçılarına xidmət prosesində istifadə üçün elmi-metodik və biblioqrafik materiallar hazırlamağı bacarmaq;
– qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq, kitabxana-informasiya sahəsində kompleks məsələlərin həllində iştirak etməyə hazır olmaq;



– kitabxana-informasiya sahəsində bilikləri təqdim etmək və onları iş şəraitində adaptasiya etmək;
– kollektivdə öz həmkarları ilə birgə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
– ayrı-ayrı oxucu qruplarının mütaliəsini istiqamətləndirməyi bacarmaq;
– kitabxana-informasiya sahəsi üzrə materialların elmi əsaslarını bilmək və onu tətbiq etməyi bacarmaq;
– elektron kitabxana, elektron kataloq, referativ jurnallar, internetdən yeni məlumatları əldə etmək və təqdim etmək.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, tədris planları dövrün, zamanın tələblərinə uyğun olaraq dəyişir, təkmilləşdirilir, mövcud standartlara cavab verir. Tədris planları, onların quruluşu, kitabxanaçı-biblioqraf kadr hazırlığı strategiyası hazırda da respublikamızda uğurla davam etdirilir.

Qrafikdən göründüyü kimi (Əlavə 1. Kitabxanaçılıq-İnformasiya ixtisası üzrə tədris planlarında ixtisas fənlərinin dinamikasını göstərən qrafik), bu sahə üzrə mütəxəssis hazırlığına başlayarkən tərtib olunmuş tədris planlarında ixtisas fənlərinin ümumi faiz göstəricisi 20 faiz olmuşdur. Sonrakı illərdə bu dinamika yüksələn xətlə inkişaf etmişdir. Bu dinamik inkişafın əsas səbəbi bu sahə mütəxəssislərini hazırlayan ixtisaslı kadrların formalaşması olmuşdur. Hazırda bu rəqəm göstəricisi təxminən 88 faizdir (Əlavə 2). Əldə edilən bu nailiyyət bu sahədə çalışan və kadr hazırlığında müstəsna xidməti olan peşəkar pedaqoji kollektivin fədakar əməyinin nəticəsidir. Obrazlı şəkildə ifadə etsək kitabxanaçılıq ailəsinin nailiyyətidir. Son dövlət standartının təhlili bir daha onu göstərir ki, bu dinamik inkişaf daim yüksələn xətlə gedəcəkdir.

Qrafikdən göründüyü kimi (Əlavə 3. Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsində kadr hazırlığının kəmiyyət xarakteristikasını göstərən qrafik (10 illiklər üzrə), 2000-ci ilə kimi kadr hazırlığının kəmiyyət xarakteristikası artan xətlə inkişaf etmişdir. 2000-ci ildən başlayaraq 10 illiklər üzrə xarakterizə edildikdə kəmiyyətin düşdüyünü görürük. Buda Bakı Dövlət Uni-

versitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsində Rus bölməsinin bağlanması, axşam şöbəsinə qəbulun dayandırılması ilə bağlıdır. Ümumi şəkildə qeydə etmək lazımdır ki, yarandığı gündən bu günə kimi fakültənin 7 minə yaxın (6829) məzunu olmuşdur.

## 2.3. Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi

Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi kitabxana işçilərinin ixtisasının artırılması ilə əlaqədar ali təhsil müəssisələrində, metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədilə xüsusi tədris planları əsasında keçirilməlidir. Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sisteminin ümumi strategiyasının inkişaf etdirilməsi, vahid iyerarxiya prinsipləri əsasında yeniləşdirilməsi metodik mərkəzlərin bu prosesdə iştirakını tələb edir. Respublikamızda kitabxanaçı kadrların fasiləsiz təhsil sistemində hazırlanması kitabxana işinin metodik təminat sistemi ilə sıx vəhdətdə bir-birini tamamlayan elmi-təcrübi, pedaqoji və metodiki baxımdan əlaqələndirilmiş sistemli fəaliyyət kimi formalaşmasından ibarətdir. Fasiləsiz kitabxanaçılıq təhsili nədir, bu necə başa düşülməlidir?

Fasiləsiz kitabxanaçılıq təhsilinə aşağıdakılar aiddir:

– Kitabxanaların mütəmadi olaraq yüksək potensiallı və bilikli kadrlarla təmin olunması;

– Kitabxanaçı kadrlara müasir dövrün tələbləri səviyyəsində bilik və bacarıqların çatdırılması mexanizminin yüksək səviyyədə olması;

– Onların yeni peşəkar bacarıqlara uyğunlaşmasını təmin etmək;

– Ölkədə kitabxanaçılıq işinin geniş maddi-texniki bazaya malik olmasını təmin etmək: buraya yeni fikirlər, konsepsiyalar, kitabxanaçı təcrübəsi və kitabxana texnologiyalarının öyrənilməsi daxildir;

– Peşəkar kitabxanaçılıq əlaqələrinin geniş surətdə yayılması [36, 384].



Göründüyü kimi, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil yuxarıda göstərilən müddəaları özündə əks etdirməlidir. Ölkəmizdə dövlət kitabxanaçılıq siyasətinin təhsil mexanizminin yeni mərhələyə qədəm qoyması mütəxəssislərə peşəkar biliklərin verilməsi və maksimum peşə bacarıqlarının öyrədilməsindən ibarətdir. Bütün bunlar ölkədə kitabxanaçılıq işinin modernləşdirilməsini, bu sahədə texniki islahatların aparılmasını vacib tələb kimi qarşıya qoyur. Həyata keçirilən bu layihələr vahid elmi, metodiki əsasa malikdir. Bu layihələrin əsas mahiyyəti ona yönəlmişdir ki, cəmiyyətdə kitabxanaçı şəxsiyyətini lazımi səviyyədə qiymətləndirmək istehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırmaqdan ibarətdir. İstehsal fəaliyyətinin texniki şərtlərə uyğunlaşdırılması o deməkdir ki, uzun illər kitabxanaçılar işlədikləri müəssisələrdə müasir texniki avadanlıqlardan uzaq olmuşlar və kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində hazırlanan kadrlara bu peşə blik və bacarıqlarının öyrədilməsi günün vacib tələblərindən biridir.

Keçid dövründə yaşayan ölkələrdə fasiləsiz kitabxanaçılıq təhsilinin yeni modelləri işlənib hazırlanmalıdır. Bu zaman kitabxanaçıların fasiləsiz təhsil sistemində müəssisə və mərkəzlərin üzərinə böyük yük düşür. Təbiidir ki, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Bu sahədə bir neçə onilliklər ərzində müəyyən təcrübə əldə olunmuşdur. 1990-cı illərdən başlayaraq bu təcrübə getdikcə zəifləmiş, tədricən bərbad vəziyyətə düşmüşdür. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra respublikamızın bütün sahələrində baş verən dirçəliş mədəniyyət sahəsini də bürüdü və mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanalar da bu dövlət qayğısı ilə əhatələndi. Şübhəsiz ki, müasir dövrdə kitabxana işçilərinin ixtisasartırma və yenidən hazırlanma prosesi kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində mühüm əhəmiyyətə malik olan müəssisə və mərkəzlərin üzərinə düşür.

Respublikamızda kitabxanaçı peşəsi üzrə fasiləsiz təhsil aşağıdakı prinsiplər əsasında aparılmalıdır:

– Peşəkar fəaliyyətdə yeni innovativ biliklərin prioritet istiqamət kimi qəbul edilməsi;

– Peşəkar kadr hazırlığında istifadə olunan tədris planları və proqramlarının modifikasiya olunması;

– Bu sahənin digər sahələrə qarşı sosial açıqlığının olması: kitabxanaçılıq peşəsi cəmiyyətin bütün sahələrini əhatə edən elmi biliklərlə sıx əlaqədədir;

– Peşəkar kadr hazırlığında fərdi təhsil;

–Tədris prosesində iştirak edən bütün əməkdaşlara qarşı demokratiklik prinsipinin qorunması.

Beləliklə, respublikamızda kitabxanaçılıq təhsili yeni metod və kontekstdə - yeni prinsiplərin, pedaqoji praktikanın, yeni cəmiyyət üçün yeni kadrların hazırlanması kontekstində aparılmalıdır.

Dünya təcrübəsi sübut edir ki, inkişaf etmiş ölkələrdə, Rusiyada, MDB məkanında kitabxanaçıların fasiləsiz təhsil sisteminin və bu peşənin daha dərindən öyrənilməsinin böyük çəkisi fasiləsiz təhsil sisteminin ixtisasartırma mərhələsinin üzərinə düşür. Bu məqsədlə Avropa ölkələrində, ABŞ-da, Rusiyada və b. ölkələrdə iri elmi kitabxanaların bazasında kitabxana işinə dair menecment, treninq, digər kitabxanaçılıq təhsili mərkəzləri yaranır və bu da fasiləsiz sistemində mühüm əhəmiyyətə malikdir.

Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin mühüm rolu var.

Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində kitabxana işlilərinin ixtisasının artırılması ilə əlaqədar metodik mərkəzlərdə, ixtisasartırma kurslarında məşğələlərə kömək məqsədilə xüsusi tədris planları tərtib edilməlidir. Belə sənədlər ölkəmiqyaslı, şəbəkədaxili və şəbəkələrarası xarakter daşıyaraq kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsinə xidmət edən problemləri əhatə etmişdir. Şübhəsiz, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində orta və ali ixtisaslı kitabxanaçı kadrlar hazırlayan təhsil müəssisələrinin: BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi, Bakı Humanitar Kollecində, eləcə Mədəniyyət və Turizm Nazirliyinin ixtisasartırma kurslarında keçirilən treninq, kursların səmərəli rolu vardır.



Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində fəaliyyətin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir və aşağıdakı mərhələ və pillələrə bölünür:

1. Orta ixtisas təhsili;
2. Ali ixtisas təhsili: bakalavr, magistr, doktorantura;
3. İxtisasartırma və kadrların yenidən hazırlanması;
4. Şəxsi təhsil.

Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində ümumi strategiya onu tələb edir ki, kitabxanaçı kadrlara daim yeniləşən biliklər tədris olunsun. Ölkəmizdə kitabxanaçılıq peşəsinin 70 ildən artıq əməli təcrübəsi olduğunu nəzərə alaraq, bu yolun ayrı-ayrı inkişaf mərhələlərində kitabxanaçılıq təhsili üzrə tədris planları və proqramlarının formalaşan təcrübəyə uyğun olaraq dəyişdiyini görmüş olarıq.

Qeyd etdiyimiz kimi, kitabxanaçılıq təhsili sistemi ilə digər istiqamətdə mövcud olan təcrübələrin əlaqələndirilməsi metodik mərkəzlərin üzərinə düşür. Təbiidir ki, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Bu istiqamətdə böyük təcrübəyə malik olan metodiki mərkəzlər daimi kurslar həyata keçirirlər. Bu daimi kurslar Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərir. Bir məsələni qeyd etmək lazımdır ki, bu metodiki mərkəzlərin heç biri müvafiq kitabxana şəbəkəsi işçilərinin ixtisasartırma problemi ilə uzun illər məşğul olmamışdır. Buna görə də müasir mərhələdə respublika kitabxana işçilərinin ixtisaslarının artırılması və yenidən hazırlanması prosesində metodiki mərkəzlərin mahiyyəti, məqsəd, vəzifə və formaları müvafiq prinsip və metodlar əsasında həyata keçirilir. Metodik mərkəzlərin ixtisasartırma proseslərindəki fəaliyyəti prof. X.İsmayılovun qeyd etdiyi kimi, 4 səviyyədə həyata keçirilir:

1. Kitabxanadaxili;
2. Şəbəkədaxili;
3. Şəbəkələrarası;
4. Respublika səviyyəli [36, 389].

Kitabxanadaxili ixtisasartırma tədbirləri müvafiq kollektivin konkret fəaliyyəti ilə sıx əlaqədardır. Bu zaman hər hansı bir kitabxananın əməkdaşlarının arzu və təklifləri nəzərə alınaraq, bu kitabxanada müvafiq bir sahədə bu kurslar təşkil olunur.

Şəbəkədaxili səviyyədə isə bir neçə müvafiq kitabxana şəbəkəsinin respublikanın kitabxana sistemlərində həyata keçirdikləri funksiyaları nəzərə alınmaqla təşkil edilir.

Şəbəkələrarası ixtisasartırma tədbirləri istifadəçilərin kitabxana-informasiya ehtiyatlarından, istifadəçilərə xidmətlərin aktual problemlərindən, kitabxanaçılar tərəfindən nəzəri biliklərin dünya təcrübəsinə əsaslanmasına yönəldilmiş tədbirlər olmalıdır.

Respublika miqyaslı ixtisasartırmada kitabxana işinin qlobal problemləri ilə əlaqədar olaraq həyata keçirilən strateji tədbirlərdir.

Müasir dövrdə ixtisasartırma prosesində ən mühüm məsələlərdən biri də kitabxanaçıların oxuculara xidmət işində köhnə vərdişlərdən azad olub demokratik prinsiplərə yiyələnməsidir. Kitabxanaçıların ixtisasartırma təhsili prosesində metodik mərkəzlər tərəfindən nəzəriyyə, metodika uzunmüddətli təcrübə prosesində formalaşmış zəngin forma və üsullardan, pedaqoji metodlardan geniş istifadə etməsidir. Bu zaman təcrübi məşğələlər, praktikumlar, seminarlar, "dəyirmi masa"lar, disputlar, müsabiqələr və s. kimi təlim-tədris növlərinin həyata keçirilməsi vacib şərt kimi meydana çıxır. Kitabxana işçilərinin ixtisasartırma proseslərində onlara yüksək peşə vərdişlərinin aşılanmasında dünya təcrübəsindən çox geniş istifadə olunmalıdır ki, bu gün də bu məsələyə xüsusi önəm verilir.

Respublikamızda kitabxana işçilərinin ixtisasının artırılması əlaqədar metodik mərkəzlər tərəfindən həyata keçirilən tədbirlər Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyət işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması daimi kurslarının fəaliyyəti ilə sıx əlaqədədir. Metodik mərkəzlər və Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işçiləri üçün ixtisasartırma kurslarının fəaliyyəti arasında qismən fərq olsa da, hər iki qurum tərəfindən həyata keçirilən tədbirlər şəxsi təhsil sahəsində olduğu kimi, kitabxanaçılıq sahəsində də çalışan mütəxəssislərin formalaşmasına güclü təsir göstərir,



gənc kitabxanaçı kadrların şəxsi peşə təhsilinə kömək edir. Kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsi ilə əlaqədar qeyd olunan bu mühüm iş üsulları özünün rəngarəngliliyinə və çoxşaxəliliyinə görə də seçilir.

İxtisasartırma kurslarının yaranma zərurətini araşdırdıqda məlum olur ki, bu kurslar XX əsrin 60-cı illərində (1966) mütəmadi olaraq keçirilməyə (müəyyən fasilələrlə) başlamışdır. İxtisasartırma sistemi olmadan yüksəkixtisaslı mütəxəssislərin zamanla ayaqlaşması, müasir şəraitin tələblərindən irəli gələn vəzifələri yerinə yetirə bilməsi, durmadan inkişaf edib təkmilləşən elmi-texniki inqilabın hakimiyyətlərini mənimsəyə bilməsi çox çətindir.

Məhz buna görədir ki, ölkəmizdə ixtisasartırma müəssisələrinin böyük şəbəkəsi yaranmışdır. Ölkəmizdə və respublikamızda geniş təkmilləşdirmə institutları və kursları fəaliyyət göstərir. Hələ 1966-cı ilə qədər respublikamızda kitabxana işçilərinin ixtisasları vaxtaşırı təşkil edilən, kurslar, konfranslar, seminarlar vasitəsilə artırılırdı. Bu kurslar respublikanın ənənəvi zona mərkəzlərində - Quba, Salyan, Lənkəran, Şəki, Ağdam, habelə Gəncə, Naxçıvan və Xankəndi şəhərlərində keçirilirdi. Bu biyarlıq kursların tədris planında əsasən ictimai elmlər və ixtisas fənlərindən 144 saatlıq dərs yükü nəzərdə tutulurdu. İxtisas fənləri Mədəniyyət Nazirliyinin, habelə müxtəlif mədəniyyət sahələri üzrə respublika metodik mərkəzlərinin işçiləri tərəfindən tədris olunurdu. Əlbəttə, bukurslar öz vaxtında müəyyən iş görə bilmiş, respublikanın kitabxana işçilərinin ixtisaslarının artırılmasında mühüm rol oynamışdır. Lakin kursların bu istiqamətdə apardığı işlər planauyğun, sistemli xarakter daşımadığından onların daha da təkmilləşməsinə və daimi ixtisasartırma müəssisəsinin yaradılmasına böyük ehtiyac hiss edilirdi. Məhz buna görə də Azərbaycan SSR Nazirlər Soveti 1966-cı il oktyabrın 20-də "Mədəniyyət işçilərinin respublika ixtisasartırma kursunun yaradılması" haqqında sərəncam verdi. Sərəncama müvafiq surətdə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1966-cı il dekabr ayının 4-də "Mədəni-maarif işçilərinin respublika ixtisasartırma kursunun yaradılması" haqqında əmri oldu. Əmrdə respublikanın bütün mədəni-maarif işçilərinin, o cümlədən də kitabxa-

naçıların 4 ildə bir dəfə, 1966-cı ilin dekabr ayından Bakıda fəaliyyət göstərən kurslarda öz ixtisaslarını artırmaları nəzərdə tutulurdu. Beləliklə, 1967-ci ildən kitabxana işçilərinin sistemli şəkildə ixtisasartırmalarının əsası qoyuldu. Hər il kurslarda 200 nəfərə qədər kitabxana işçisi, o cümlədən 100 nəfər kənd kitabxanaçıları öz ixtisaslarını artırırdılar. Əvvəllər bu kurslara ancaq orta təhsilli kitabxana işçiləri dəvət olunurdu.

70-80-ci illərdə kitabxana işçilərinin ixtisaslarının artırılmasında bu kurs böyük rol oynamışdır. Kurslarda kitabxana işçiləri dövrün qarşıya qoyduğu vəzifələrlə əlaqədar kitabxana işində baş verən bütün yeniliklərlə tanış olurdular. Məsələn, kursun tədris planlarında son zamanlar kitabxana işinin mərkəzləşdirilməsi məsələlərinə geniş yer verilmişdi. Buna görə də kitabxana işçilərinin ixtisasartırma sistemində tədris işi fərqli şəkildə həyata keçirilirdi. Əgər əvvəllər müxtəlif qrupların yaradılması üçün kitabxana işçilərinin təhsil səviyyələri nəzərə alınırdısa, daha sonra hər şeydən əvvəl kitabxanaçının iş xüsusiyyətləri əsas götürülürdü.

Göründüyü kimi, Azərbaycanda kitabxanaçılıq peşəsi üzrə ixtisasartırma kursları XX əsrin 60-cı illərindən başlasa da, müasir dövrə kimi davam edir. İxtisasartırma kursları fasiləsiz kitabxanaçılıq təhsilində böyük əhəmiyyətə malikdir. Yuxarıda fasiləsiz kitabxanaçılıq təhsilinin mahiyyəti, onun quruluşu və təhsil sistemində iştirak edən mərkəzlər haqqında ümumi məlumat verilmişdir. Məlumdur ki, metodik mərkəzlər dedikdə respublikamızda mövcud olan, fəaliyyət göstərən, metodiki baza funksiyasını yerinə yetirən kitabxanalar nəzərdə tutulur. Respublikada fəaliyyət göstərən kitabxanaların hamısına M.F.Axundov adına Milli Kitabxana metodiki təminatı həyata keçirir. Başqa sözlə desək, metodiki bazadır. Bu kitabxananın həyata keçirdiyi ən böyük işlərdən də biri kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində mütəxəssislərə ixtisasartırma kurslarının təşkilidir. Respublikamızın kitabxana şəbəkələri içərisində gənclər kitabxanalarının böyük rolu vardır. Hazırda respublikamızda 40-a yaxın gənclər kitabxanaları fəaliyyət göstərir. Bu kitabxanalara metodiki baza funksiyasını C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası həyata keçirir. Respublika Elmi Pedaqoji Kitabxanası məktəb kitabxanalarına metodiki baza funksiyasını həyata keçirir.Məlum olduğu kimi, respublikada fəaliyyət göstərən ali məktəb kitabxanalarına elmi metodik təminatı Bakı Dövlət Universitetinin Elmi Kitabxanası həyata keçirir. BDU-nun Elmi Kitabxanası 1919-cu ildə təşkil olunub. Geniş oxucu kütləsinə, böyük fonda və müasir texniki avadanlıqlara malik kitabxana tabeliyində olan ali məktəb kitabxanaları üçün, həmin kitabxanaların əməkdaşların üçün müşavirələr, seminarlar, kurslar təşkil edir. Həmçinin, kitabxana, kitabxananın əməkdaşları istər respublika miqyaslı, istərsə də beynəlxalq miqyaslı tədbirlərdə iştirak edir, təcrübələrini daha da zənginləşdirirlər.

Bundan başqa, respublikanın digər iri elmi kitabxanaları – Respublika Elmi-Texniki Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası da metodik mərkəz kimi geniş fəaliyyət dairəsinə malikdir.

Azərbaycanda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən kitabxanaçı kadrlara ixtisasartırma kurslarının böyük əhəmiyyəti vardır. Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olan irəliləyiş qeyri-hökumət təşkilatlarının yaranmasında da özünü göstərir. Kitabxanaçılıq peşəsini tərənnüm edən qeyri-hökumət təşkilatları da yaranmışdır. Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının yaranması bu işə bariz nümunədir. Bu ictimai qurum kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində böyük işlər görmüşdür. Bu işdə həmçinin xarici təşkilatların, qeyri-hökumət təşkilatlarının böyük rolu vardır. Bu barədə ətraflı danışaq.

Respublikada kitabxana işçilərinin fasiləsiz təhsil sistemində və xüsusən ixtisasartırma prosesində metodik mərkəzlərin iştirakı ilə bir mühüm məsələni də qeyd etmək lazımdır ki, son illər müstəqillik qazanmış Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin genişlənməsi əlverişli imkanlar yaratmışdır. Bu baxımdan hazırda kitabxana işçilərinin ixtisasartırma prosesində bir tərəfdən dünya təcrü-

bəsini öyrənmək, digər tərəfdən isə bu prosesə inkişaf etmiş xarici ölkələrin mütəxəssislərini cəlb etmək zərurəti meydana çıxır. Belə ki, son illər Rusiyada kitabxana işçilərinin peşə səviyyəsinin dünya standartlarına uyğunlaşması istiqamətində əldə edilən təcrübə diqqətəlayiqdir. Artıq Rusiyada kitabxana işi sahəsində metodik mərkəz statusuna malik olan kitabxanaların nəzdində kitabxana işçiləri üçün treninq (təhsil, məşğələ, təcrübi məşğələ) mərkəzləri yaradılıb. Məsələn, Rusiya Xarici Ölkələr Ədəbiyyatı Kitabxanasının nəzdində yaradılmış "Rudomino məktəbi" adlı tədris məktəbi Rusiya və MDB ölkələrinin kitabxana işçiləri üçün seminarlar, treninqlər, praktikumlar təşkil edir. Belə tədbirlər bir sıra hallarda ABŞ və Avropa ölkələrinin mütəxəssisləri ilə birlikdə hazırlanır.

1998-1999-cu illərdə həmin tədris mərkəzi ABŞ-ın Mortensen mərkəzi ilə birlikdə ikiillik "Kitabxanaların informasiya ehtiyatlarından istifadə üçün internet" proqramı hazırlamış və bu proqram çərçivəsində Rusiyanın 12 regionundan 24 mütəxəssis ABŞ-da " Kitabxana işində elektron texnologiyasının tətbiqi" problemi üzrə təlim keçmişdir.

Qeyd edək ki, son illər ərzində MDB ölkələrində onlarca kitabxana işçisi metodik mərkəzlərin tərtib etdiyi proqramlar əsasında ABŞ, Avropa və Rusiya kitabxanalarında təlimdə olmuşdur.

Ümumiyyətlə, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemi ideyadan başlamış yerinə yetirilməsinə qədər 5 mühüm fazada əks olunmalıdır:

**Konsepsiyanın formalaşması:** buraya ideyanın formalaşdırılması, məqsədinin qoyuluşu, layihənin əsas əmrlərinin formalaşdırılması, ilkin məlumatların toplanması, mövcud vəziyyətin təhlili daxildir. Sifarişçinin və digər iştirakçının tələblərinin və motivasiyalarının öyrənilməsi, alternativlərin təqdimatı kimi işlər də bu fazada öz əksini tapmalıdır.

**Texniki tapşırığın formalaşması:** bu fazaya layihənin əsas məzmunu, baza strukturunun, texniki tapşırığın işlənməsi və təsdiq edilməsi, layihə iştirakçılarının, kommunikasiya vasitələrinin cəlb olunması, işin gedişinə nəzarət kimi məsələlər daxildir.



Üçüncü mərhələ **layihələşdirmə** adlanır. Buraya ayrı-ayrı texniki tapşırıqların, linqvistik təminatın işlənməsi, layihənin təqdimatı, ekspertizası və təsdiqi kimi alt mərhələlər də daxildir.

**Layihənin yerinə yetirilməsi** adlanan dördüncü mərhələdə proqram təminatının işlənməsi, təhsil sisteminin düzgün tətbiq edilməsi, iştirakçıların üzərinə düşən işlərin yerinə yetirilməsinə nəzarət kimi işlər aiddir.

Sonuncu faza isə **layihələrin daimi istismara verilməsi** adlanır. Buraya bu tip kursların təşkili zamanı mütəxəssis kadrların daimi cəlb olunması, xüsusi münbit mühitin formalaşdırılması kimi vacib alt mərhələlər daxildir.

Göründüyü kimi, kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemini düzgün təşkil etmək üçün mövcud təcrübədən geniş istifadə etmək, düzgün yararlanmaq lazımdır. Buna görə də adıçəkilən metodiki mərkəzlər, qeyri-hökumət təşkilatları, Mədəniyyət və Turizm Nazirliyinin tərkibində təşkil olunmuş kurslar adını çəkdiyimiz bu təcrübədən geniş istifadə edərək bu sahədə işini uğurla davam etdirir.

## 2.4. Kitabxanaçılıq təhsilinin tədris-metodik təminatı

Azərbaycanda kitabxanaçılıq təhsili müasir səviyyəyə çatana qədər mürəkkəb bir yol keçərək cəmiyyətin müasir informasiya tələbatına əsasən cavab verən bir sosial kommunikasiya sistemi mimi formalaşa bilmişdir. Dünya kitabxanaçılıq təcrübəsi çoxdan sübut etmişdir ki, hər bir ölkədə kitabxanaçılıq təhsilinin təşəkkül tapması və inkişafı, kommunikasiya sistemi kimi formalaşmasıbu mürəkkəb prosesin elmi metodik təminatından bilavasitə asılıdır.

Kitabxana-informasiya proseslərinin son dərəcə mürəkkəbləşdiyi, yeni texnologiya ilə zənginləşdiyi bir zamanda kitabxanaçılıq təhsilinin elmi metodik təminatının öhdəsinə çox mühüm vəzifələr düşür. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı necə olmalıdır?

Ali kitabxanaçılıq təhsilinin inkişafı və formalaşmasında onun tədris-metodiki təminatı mühüm rol oynayır. Tədris-metodiki təminatın əsasını dərsliklər, dərs vəsaitləri və proqramlar təşkil edir. Bu

istiqamətdə vəsaitlərin hazırlanmasında prof. A.Xələfovun, prof. Z.Əliyevin, prof. B.Allahverdiyevin, prof. X.İsmayılovun və başqalarının böyük əməyi olmuşdur. Prof. A.Xələfov bu sahəyə həsr etdiyi əsərlərində - "Kitabxana fondunun təşkilinin bəzi məsələləri" (1958), "Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)" (1960), "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)" (1974), "Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrdən XVIII əsrin axırınadək)" (1986), "Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı" (1987), "Azərbaycanda kitabxana işinin tarixi: Proqram" (1994), "Kitabxanaşünaslığa giriş: Kitabxanaçılıq fakültələri üçün: Proqram" (1994), Kitabxanaşünaslıq (kitabxana kataloqları): "Kitabxanaşünaslıq" ixtisası üzrə təhsil alan ali məktəb tələbələri üçün dərs vəsaiti" (1996), "Kitabxanaşünaslığa giriş: Dərs vəsaiti" (1996), Azərbaycanda ali kitabxanaçılıq təhsili" (1998), "Kitabxanaşünaslığın müasir problemləri: BDU-nun kitabxanaçılıq fakültəsində "Kitabxanaşünaslıq" ixtisası üzrə magistr dərəcəsi almaq üçün: Proqram" (2000), "Kitabxanaşünaslığın tarixi və metodologiyası: BDU-nun kitabxanaçılıq fakültəsində "Kitabxanaşünaslıq" ixtisası üzrə magistr dərəcəsi almaq üçün: Proqram" (2000) – kitabxanaçılıq təhsilinin məzmununu təhlil etmiş, ona verilən tələbləri şərh etmişdir.

Bundan başqa, prof. Z.Əliyev "Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən (1945-1956)" (1960), "Azərbaycan biblioqrafiyasının tarixi: Dərs vəsaiti (1920-1970)" (1978), "Biblioqrafiyaşünaslıq. Ümumi kurs" fənninin öyrənilməsinə dair metodik göstəriş" (1989), "Azərbaycan biblioqrafiyasının tarixi: Proqram" (2000), "Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti" (2001) və "Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik" (2007), prof. X.İsmayılov "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər)" (2000), "Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti" (2005) və "Kitabxana işinin təşkili və idarə olunması: Proqram" (2005), prof. B.Allahverdiyev "Kitabşünaslıq" (1974) və "Ümumi kitab tarixi" (2003) və dos. Ə.Xələfov "Bədii ədəbiyyat və ədəbiyyatşünaslığın biblioqrafiyası" (1986) əsərlərində kitabxanaçılıq təhsilinin məzmununa, kitabxanaçı peşəsinə verilən tələbləri və bu tələblərdən irəli gələn prioritet istiqamətləri göstərmişdirlər.



Bu problem kitabxana ictimaiyyətini düşündürən ən böyük məsələlərdən biridir. Bu günün kitabxanaçılıq təhsilinin elmi-metodik təminatı həmişə daşıdığı mənanı dəyişmiş, xeyli zənginləşmiş və əhatə dairəsi genişlənmişdir. Bu da heç şübhəsiz ki, ilk növbədə kitabxana işinin inkişafı, cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə sıx əlaqədardır. Nəzəri ədəbiyyatda kitabxanaçılıq təhsilinin elmi metodik təminatı ilə əlaqədar əsas anlayışların ifadəsinə dair bir çox qarışıq fikirlər özünü göstərir. Belə ki, müxtəlif yazılarda "metodik təminat", "metodik rəhbərlik", "metodik iş", "metodik fəaliyyət", "metodik idarəetmə" terminləri ilə əvəz olunur. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı anlayışının mahiyyətini dərk etmək üçün müasir dövrdə dünya informasiya məkanında baş verən yeni prosesləri, bu proseslərlə əlaqədar kitabxanaçılıq təhsilinin fəaliyyətində meydana gələn konseptual dəyişiklikləri dərindən öyrənmək lazım gəlir.

Müasir dövrdə kitabxanaçılıq təhsilinin elmi metodik təminatı dedikdə metodik mərkəzlər tərəfindən kitabxanaçılıq təhsilinin dövrün tələblərinə uyğun dinamik inkişafına yönəlmiş təşkilati-metodik əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı dedikdə bu sahəni özündə birləşdirən, bir-biri ilə sıx bağlı olan 2 istiqaməti araşdırmaq lazımdır:

1. Kitabxanaçılıq təhsili üzrə tədris prosesinin təşkili;

2. Kitabxanaçılıq təhsili üzrə elmi tədqiqatlar işlərinin hazırlanması [36, 282].

Kitabxanaçılıq təhsili üzrə tədris prosesi uzun bir yol keç-mişdir. Məlum olduğu kimi, tədris prosesini təşkil edərkən bu sahə üzrə mövcud biliklər toplusuna və digər elmlərlə əlaqəsinə nəzər yetirmək lazımdır. Tədqiqat işinin əvvəlində göstərildiyi kimi, respublikamızda kitabxanaçılıq təhsili sadədən mürəkkəbə doğru iyerarxik şəkildə inkişaf etmişdir. Adi bir şöbədən müstəqil fakültəyə qədər keçilən bu uzun yolda tədris prosesi də dəyişmiş, formalaşmışdır.

Təbiidir ki, hansısa bir fakültənin şöbəsində fəaliyyət göstərərkən bu sahə üzrə tədris prosesi həmin fakültənin tədris planına əsaslanıb o sistemdə inkişaf edir. Baza fənlərinin az olması, ixtisas ədəbiyyatının demək olar ki, olmaması Filologiya fakültəsinin nəzdində şöbə kimi fəaliyyət göstərən kitabxanaçılıq ixtisasına öz mənfi təsirini göstərirdi. Zaman keçdikcə cəmiyyət tərəfindən müstəqil peşə kimi qəbul olunan kitabxanaçılıq peşəsi özünü məntiqi cəhətdən doğrultdu, bu sahəyə diqqət və qayğı artırıldı ki, burada da həmin sahədə çalışan sahə mütəxəssislərinin, professor-müəllim fədakar əməyini qeyd etmək yerinə düşərdi. Məhz bu fədakar əməyin məntiqi nəticəsi olaraq bu sahə üzrə qısa müddət ərzində bir neçə tədris planı qəbul olundu və burada baza fənlərinə xüsusi üstünlük verildi.

Tədris prosesinin lazımi səviyyədə qurulması bu sahənin daha dərindən tədqiq olunmasına zərurət yaratdı. Elmi tədqiqat işlərində kəmiyyət, keyfiyyət dəyişiklikləri nəzərəçarpacaq dərəcədə artdı. Təsadüfi deyil ki, yarandığı gündən bu vaxta qədər bu sferada xeyli sayda doktorluq, namizədlik dissertasiyaları müdafiə edilmişdir.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının ikinci istiqaməti olan elmi tədqiqat işlərinin aparılması istər keçmiş SSRİ, istərsə də müstəqillik dönəmində böyük elmi yeniliklərə səbəb olmuşdur. Bu sferanın elmi tədqiqat sahəsi kimi öyrənilməsi yeni fikirlərinortaya çıxması ilə nəticələndi. Meydana çıxan yeni elmi nai-liyyətlər kitabxanaçılıq təhsilinin müasir standartlara cavab verməsini tələb edirdi. Məhz bu tələbatlardan irəli gələn ən böyük fikir ondan ibarət idi ki, kitabxanaçılıq təhsili dar çərçivədə deyil, qlobal aləmin yeniliklərini özündə birləşdirməlidir.

Müasir dövrdə kitabxanaçılıq təhsilinin elmi metodik təminat sisteminin ən böyük problemi ölkədə əhaliyə kitabxana xidmətini həyata keçirə bilən yüksək ixtisaslı kadrlarla təmin olunmasıdır. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı öz inkişafının bütün mərhələlərində cəmiyyətdə kitabxana-informasiya infrastrukturunun, kitab və kitabxana işinin, əhaliyə kitabxana xidməti prosesinin ayrılmaz, üzvi bir sahəsi kimi bu prosesə güclü təsir göstərmiş, onun optimallaşdırılmasının nəzəri-metodiki və təşkilatı əsaslarını yaratmışdır. Kitabxanaçılıq təhsilinin elmi metodik təminatını araşdırarkən bu təminatın yaranma tarixinə nəzər salmaq lazımdır.

XX əsrin 20-ci illərində Azərbaycanda kitabxana işinə metodik rəhbərlik vahid mərkəzdə birləşdirilmişdi. Müxtəlif mədəni-maarif müəssisələrinə ayrı-ayrı komissarlıqlar, idarələr və müəssisələr rəhbərlik edirdilər. Bu işi vahid mərkəzdə birləşdirmək məqsədilə Azərbaycanda Baş Siyasi Maarif İdarəsi yaradıldı. O, təşkilat baxımından Xalq Maarif Komissarlığına tabe idi. İdarənin nəzdində Kitabxanaçılıq şöbəsi, sonralar isə vahid Kitabxana və klub şöbəsi təşkil edildi. Bu şöbə az müddət ərzində Bakı Xalq Maarif Şöbəsi Siyasi Maarif İdarəsinin Kitabxanaçılıq şöbəsi ilə əlaqəli şəkildə fə-aliyyət göstərməyə başladı. Qeyd etmək lazımdır ki, Siyasi Maarif İdarəsinin yaradılması, onun struktur quruluşunda kitabxana bölməsinin açılması kitabxana işinə, kitabxanaçılıq təhsilinin elmi me-todik təminat sisteminə güclü təsir göstərdi. Qısa müddət ərzində metodik rəhbərlik işinin təşkilati sahəsində tədbirlər həyata keçirildi. Keçirilən bu tədbirlərin ən mühüm formalarından biri də o oldu ki, bu sahədə metodik vəsaitlərin ilk nümunələri yarandı.

XX əsrin 30-cu illərinin sonunda respublikada kitabxanaçılıq təhsilinin elmi metodik təminatı işinin mühüm tərkib hissəsi olan metodik vəsaitlərin hazırlanması sahəsində bir sıra irəliləyişlər nəzərə çarpırdı. Yalnız 1938-1940-cı illərdə Xalq Maarif Komissarlığının kitabxanaşünaslıq kabinəsi tərəfindən ümumilikdə 42 min nüsxə tirajla “Onluq klassifikasiya (təsnifat)”, “Formulyarın doldurulmasına dair təlimat”, “Uşaq və məktəb kitabxanaları üçün onluq təsnifatın qısaldılmış cədvəli” və eləcə də bir çox yaddaş kitabçaları, mülahizəli kataloqlar, bülletenlər, vəsaitlər hazırlanmış və nəşr olunmuşdu.

1945-ci ildən başlayaraq respublikamızda kitabxanaçılıq təhsilinin elmi metodik təminatının inkişafı yeni mərhələyə qədəm qoydu. O, ilk növbədə kitabxana şəbəkəsinin artması, metodik rəhbərlik işinin yenidən qurulmasını tələb edirdi, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq fəaliyyətinin təşkilat-metodik baxımından ye-

ni keyfiyyət almasını ümdə vəzifə kimi qarşıya qoyurdu. Bu dövrdə ixtisaslı mütəxəssislərə tələbat artmışdı, çünki respublikada ali təhsili olan kitabxanaçılar hələ yox dərəcəsində idi. Yalnız BDU-nun Filologiya fakültəsinin nəzdində ali kitabxanaçılıq təhsili almış ilk məzunlar 1953-cü ildə universiteti bitirib kitabxanalara göndərilmişdilər. O dövrdə isə kitabxanalarda əsasən Bakı Kitabxanaçılıq Texnikumunu bitirmiş orta ixtisaslı mütəxəssislər və digər sahələr üzrə ali təhsili olan kadrlar çalışırdılar. Ali ixtisas təhsili olmayan, lakin hərtərəfli təcrübəyə və əməli səriştəyə malik bir sıra kitabxanaçılar respublikanın kitabxana həyatında fəal iştirak edir, metodik rəhbərlik sisteminin formalaşmasında mühüm rol oynayırdılar. Onlardan H.Tağıyev, M.Səmədova, Z.Seyidova, H.Rzaquliyev, A.Lerman, A.Quliyev, Ə.Əliyev, R.Rəhimbəyova, T.Babayeva, B.Qasımova, A.Şıxəliyev, M.Nəcəfova və başqalarının xidməti xüsusi qeyd edilməlidir [43, 44].

XX əsrin 50-ci illərinin ikinci yarısından başlayaraq kitabxanaçılıq təhsilinin elmi metodik təminat sisteminin başlıca vəzifəsi kitabxanaçılıq təcrübəsinin inkişafına müsbət təsir göstərmək, bu sahədə baş verən mütərəqqi iş üsullarını dərindən təhlil etmək, ümumiləşdirməkdən ibarət idi. Bu dövrdə respublikanın Mədəniyyət Nazirliyi kitabxanalara metodik rəhbərliyin istiqamətləndirici və təşkilatçı orqan kimi fəaliyyət göstərirdi.

50-ci illərin sonu – 60-cı illərin əvvəllərində Azərbaycanda kitabxanaçılıq təhsilinin elmi metodik təminatının inkişafında bir sıra mütərəqqi proseslər özünü göstərirdi. Bu dövrün kitabxana işinə gətirdiyi yeniliklər ilk növbədə Sov. İKP MK-nın 1959-cu ilin sentyabrında qəbul etdiyi "Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı ilə əlaqədar idi. Qərarın sırf kommunist ideologiyası ruhunda tərtib edilməsinə baxmayaraq, burada ölkədə kitabxana işinin inkişafına səmərəli təsir göstərə biləcək bir sıra mütərəqqi əməli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

Beləliklə, 60-cı illərin əvvəllərində kitabxanaçılıq təhsilinin tədris-metodik təminatında nəzərəçarpan müvəffəqiyyətlərlə yanaşı,



peşə kamilliyi, metodik hazırlıq, ədəbiyyat təbliği, geniş oxucu kütlələrinin elmi dünyagörüşünün formalaşdırılması baxımından xeyli nöqsanlar var idi.

70-ci illərin əvvəllərində kitabxanaçılıq təhsilinin elmi metodik təminatı səviyyəsinin yüksəldilməsində, cəmiyyətin müasir kitabxana-informasiya tələbatına uyğun kadrların hazırlanmasında mühüm işlər görülmüşdür.

70-ci illərin sonu – 80-ci illərin əvvəllərində kitabxanaçılıq təhsilinin elmi metodik təminatmda ciddi keyfiyyət dəyişiklikləri baş vermişdi. Bu dövrdə ali kitabxanaçılıq təhsilinin bazası sayılan BDU-nun Kitabxanaçılıq fakültəsində 8 nəfər namizədlik, 1 nəfər isə doktorluq dissertasiyasını müdafiə etmişdi. Fakültəyə qəbul 2 dəfəyə qədər artmış, təhsil prosesində canlanma yaranmışdı. Təhsil prosesinə nəzarətin gücləndirilməsi, elmi metodik işin möhkəmlənməsi təhsili müasir tələblər səviyyəsində qurmağa, kadr hazırlığı keyfiyyətini yüksəltməyə imkan yaratmışdı. Bu illəri kitabxanaçıhq təhsilinin dinamik inkişaf dövrü hesab etmək olar.

1979-cu ildə Sov. İKP MK "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" qərar qəbul etdi. Bu qərarda ali təhsilli kadrların hazırlanmasına, onların ixtisaslaşdırılmasına xüsusi diqqət yetirilməsi lazım bilinirdi. 80-ci illərin nailiyyəti kimi maddi-texniki bazanın möhkəmləndirilməsi, kitabxanaşünaslıq və biblioqrafiya elmlərinin tədrisində nəzəriyyə ilə yanaşı, geniş praktiki təcrübənin tətbiq olunması da kitabxanaçılıq təhsilinin elmi metodik təminatmda böyük əhəmiyyətə malik olmuşdur [36, 213].

1991-ci ildə müstəqillik qazanan Azərbaycanda mədəniyyət sahəsinə olan diqqət və qayğı müəyyən müddət durğun vəziyyətdə olsa da, 1993-cü ildən başlayaraq bu durğunluq aradan qaldırıldı və dinamik inkişaf diqqəti cəlb etdi. Bu dövrdə kitabxanaçılıq peşəsinin üstün xüsusiyyətlərini özündə ehtiva edən bir sıra qanunlar, dövlət proqramları qəbul olundu. 1998-ci ildə "İnformasiya, informasiyalaşdırma, informasiyanın mühafizəsi haqqında" qanun, 1999-cu il mart ayında "Kitabxana işi haqqında" qanun, "Azərbaycan Respublikasın-

da kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı" Dövlət Proqramıqəbul olundu [6, 2].

Məlumdur ki, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, nəsildən-nəslə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə əsaslı islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini, elektron məlumat banklarının yaradılmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir və bütün bunlar mədəniyyət sahəsində dövlət siyasətinin əsas prioritetlərindəndir. Bütün bu fikirlər qəbul olunmuş dövlət qanunlarında öz əksini tapmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə baş verən hadisələr kitabxanaların da fəaliyyətinə mənfi təsir göstərmiş, kitab nəşri və kitab təchizatı sistemi tamamilə iflic vəziyyətinə düşmüş, onların maddi-texniki bazasının olduqca zəifləməsinə gətirib çıxarmışdır. Bütün bunlar kitabxana sahəsinin tənəzzülünə səbəb olmuşdur. Nəticədə kitabxanalar real və potensial oxucularını itirmiş, xeyli sayda kitablar bağlanmış, əksəriyyəti oxucu tələbatını ödəyə bilməmiş, mövcud ştat vahidləri ixtisar edilmişdir. 1990-cı ildə respublika üzrə kütləvi kitabxanaların kitab fondu 45,3 milyon, 2002-ci ildə 36,9 milyon, 2003-cü ildə 36,8 milyon nüsxəyə enmişdir. 2004-cü ildə isə bu göstərici 36,5 milyon nüsxə təşkil etmişdir. Bunun əsas səbəbi Ermənistan silahlı qüvvələri tərəfindən respublika ərazisinin 20 faizinin işğal olunması nəticəsində 9 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 927 kitabxananın tamamilə məhv edilməsi, kitabxanaların yeni nəşrləri almaq üçün vəsaitlə təmin edilməməsi, habelə kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və mənəvi cəhətdən köhnəlmiş kitabların çıxarılması olmuşdur.

Şübhəsiz ki, yaranmış bu vəziyyət həmin müəssisələr üçün ixtisaslı kadr hazırlayan kitabxanaçılıq təhsilinə də öz mənfi təsirini də göstərmişdi. Bu illərdə kitabxanaçılıq təhsilinin elmi metodik təminatı çox pis vəziyyətdə idi.



Kitabxanaçılıq təhsilinin elmi metodik təminatında qəbul edilmiş dövlət proqramlarının, qanunların mühüm əhəmiyyəti olmuşdur. Bunların əsas məqsədi "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununda, habelə digər müvafiq hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdən ibarətdir. Bundan başqa, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün şəraitin yaradılmasından ibarətdir.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı müəyyən metod və prinsiplər əsasında həyata keçirilməlidir. Buna əsas səbəb bu metod və prinsiplərdə kitabxanaçılıq təhsilinin tam mahiyyətinin əks olunmasıdır. Ümumiyyətlə, kitabxanaçılıq təhsilinin elmi metodik təminatında dünya təcrübəsinin tətbiqi də mühüm əhəmiyyətə malikdir. Dünya təcrübəsində elmi metodik təminatın elmilik, sistemlilik, dinamiklik, əlaqələndirmə və uyğunlaşdırma kimi prinsipləri mövcuddur. İndi isə bu prinsipləri haqqında ətraflı bəhs edək.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinə əsaslanması cəmiyyətdə kitabxana işinin inkişafında meydana çıxmış obyektiv qanunauyğunluqların nəzərə alınması deməkdir. Bununla yanaşı, elmilik prinsipi kitabxanaçılıq təhsilinin elmi metodik təminatında analitik iş üsullarının formalaşmasını, tədqiqatlarda irəli sürülmüş tövsiyələrin təcrübəyə tətbiq edilməsini təmin edən proqramların hazırlanması və həyata keçirilməsi ilə əlaqədar işlərin təşkili və idarə edilməsi deməkdir.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatında elmilik prinsipi eyni zamanda bu fəaliyyətin idarə olunmasında, xüsusilə metodist əməyinin normalaşmasında, təşkilində, planlaşdırılmasında, uçotunda, maliyyələşdirilməsində, metodik tədbirlərin hazırlan-

masında və keçirilməsində texnoloji baxımdan ən səmərəli iş üsullarından, etibarlı nəzəri konsepsiyaya malik və kitabxana təcrübəsində sınaqdan çıxmış metodlardan geniş istifadə edilməsi ilə əlaqədardır.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının dinamikliyi dövrün tələblərinə uyğun olaraq daim inkişaf etməsi deməkdir. Başqa sözlə, kitabxanaların metodik təminat sistemi təşkil və idarəetmə baxımından həmişə inkişafda olmalı, cəmiyyətdə baş verən mürəkkəb kitabxana-informasiya proseslərinə uyğun olaraq yeni kəmiyyət və keyfiyyət göstəriciləri ilə zənginləşərək təşəkkül tapmalıdır. Bu prinsip özünü təsdiq etmişdir və dissertasiyada əks etdirdiyimiz kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sisteminin inkişaf mərhələləri bu fikri sübut edir.

Müasir dövrdə və yaxın gələcəkdə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin getdikcə daha çox informasiyalaşdırma proseslərinə uyğunlaşaraq keyfiyyətcə yeniləşməsi, kitabxana xidmətində müasir informasiya texnologiyasının tətbiqi, şəbəkə texnologiyasının formalaşması və onun dünya informasiya mübadiləsinə daxil olması və s. prosesləri dinamik xarakter aldığından, kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sistemində bütün bu meyillərə adekvat nüfuz edərək dinamik inkişaf edən fəaliyyət sisteminə çevrilməlidir.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının sistemliliyi prinsipi kitabxanalarmm metodik təminatının mühüm funksiyalarının, forma, metod və üsullarının təşkili və idarə olunmasının əlaqəliliyi və kompleks xarakterli fəaliyyətə çevrilməsi vəzifələrindən irəli gəlir. Bu sistemlilik özünü metodik fəaliyyət prosesində ərazi və sahəvi, ümumi və fərdi, elmi və təcrübi idarəetmə metodlarının mütənasibliyində, kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sisteminin məzmununda isə əhaliyə kitabxana xidmətinin səmərəliliyinə istiqamətləndirilmiş bütün iş üsullarının ahəngdarlığında, bununla yanaşı, mütərəqqi xidmət üsullarının metodik təminatına üstünlük verməsində göstərməlidir.

Sistemlilik prinsipi eyni zamanda kitabxanaların metodik təminatına dair respublika miqyasında kompleks proqramların tərtib edilməsini nəzərdə tutur.



Kitabxanaçılıq təhsilinin elmi metodik təminatının əlaqələndirilməsi prinsipinin mahiyyəti metodik təminat sisteminə daxil olan mərkəzlərin fəaliyyətinin şəbəkədaxili və şəbəkələrarası səviyyələrdə əlaqələndirilmiş qaydada həyata keçirilməsindən ibarətdir.

Əlaqələndirmə prinsipi özünü daha çox kitabxana işinə dair sahələrarası məlumat bazalarının yaradılmasında, metodik tədbirlərin, o cümlədən elmi konfrans və seminarların, ixtisasartırma məşğələlərinin təşkilində, metodik vəsaitlərin milli standartlarının hazırlanmasında və tətbiqində göstərə bilər. Əlaqələndirmə prinsipi özünü eyni zamanda metodik mərkəzlərdə kitabxana assosiasiyalarının birgə fəaliyyətində göstərməlidir.

Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı sisteminin təşkili və idarə olunmasında aparıcı prinsiplərindən biri də ölkənin sosial-iqtisadi və mədəni inkişaf vəzifələrinə tam uyğunlaşdırılmasıdır. Bu prinsipin zəruriliyi respublikada kitabxanaçılıq fəaliyyətinin müasir sosial funksiyalarından irəli gəlir. Belə ki, kitabxanaçılıq təhsilinin elmi metodik təminatısistemi məzmun, təşkilati və idarəetmə baxımından Azərbaycanda kitabxanaçılıq fəaliyyətinin konkret vəzifələrinə, gələcək inkişaf istiqamətlərinə yönəlməli, bu inkişafı metodik baxımdan təmin etməlidir.

Beləliklə, qeyd etdiyimiz faktlara əsaslanaraq belə qənaətə gəlmək olar:

– Respublikamızda kitabxanaçılıq təhsilinin elmi metodik təminatı müasir tələblərə cavab verən standartlar əsasında qurulmalıdır;

– Kitabxanaçılıq təhsilinin elmi metodik təminatı dövlət qanunlarına və proqramlarına əsaslanmalıdır;

– Qabaqcıl dünya təcrübəsindən layiqincə yararlanmaq lazımdır;

– Bu zaman ölkənin iqtisadi vəziyyəti nəzərə alınmalıdır.

Bütün bu faktlar, gəlinən qənaətlər onu deməyə imkan verir ki, Azərbaycanda kitabxanaçılıq təhsilinin elmi metodik təminatı kitabxanaşünaslıq elminin qarşısında duran gələcək vəzifələri müəyyənləşdirməlidir.

## III FƏSİL

# KİTABXANAÇILIQ TƏHSİLİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKŞAF PRESPEKTİVLƏRİ

### 3.1. Müstəqillik illərində Azərbaycanda ali kitabxanaçılıq təhsilinin inkişafı

Son zamanlarda müstəqil Azərbaycanda qlobal informasiya cəmiyyətinin formalaşması üçün vacib hesab olunan tələbləri özündə əhatə edən, informasiya-kommunikasiya texnologiyalarından istifadə məsələsini qarşısına prioritet məqsəd kimi qoyan yeni dövlət qərar və sərəncamları qəbul edilmişdir. Bu sənədlər XXIəsrdə Azərbaycan cəmiyyətində kitabxana işinin dünyəvi və milli dəyərlərə, standartlara, tələblərə tam cavab verə biləcək səviyyədə çatdıracaq prosesin hüquqi təməl daşı, dövlət dəstəyi rolunu oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncam bunun əyani göstəricisidir.Dövlət başçısının imzaladığı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının tətbiq edilməsi" haqqında sərəncam da bu sahənin inkişafına güclü təkan vermişdir [6, 2].

Qlobal informasiya cəmiyyətindəAzərbaycanın özünəlayiq yer tutması və bu cəmiyyətin qoyduğu tələblərə cavab verməsi baxımından bu sərəncamlar böyük əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində kitabxanaçılıq fakültəsi böyük çətinliklərlə üzləşmiş, qəbul planı xeyli azalmışdı. Tələbələrin yeni dərsliklərlə, dərs vəsaitləri və proqramlarla təmin edilməsi işi olduqca çətinləşmişdi.SSRİ dövründə fakültə tədris



planlarını, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığa dair fənn proqramlarını Moskvadan alırdı. Moskva ilə əlaqələr kəsildikdən sonra onları əldə etmək olduqca çətinləşdi. Lakin tezliklə BDU-da aparılan yenidənqurma işləri və islahatlar fakültənin işinə də öz müsbət təsirini göstərməyə başladı. Qəbul planı ilbəil artırıldı, kafedraların kadr potensialı möhkəmləndirildi, yüksəkixtisaslı müəllim kadrları hazırlamaq üçün şərait yarandı. Müstəqillik illərində fakültənin işinin yenidən qurulmasında, fakültə kollektivinin universitetdə aparılan təhsil istehsalatlarına cəlb edilməsində fakültə dekanlığının və ixtisas kadrlarının fəaliyyəti təqdirəlayiq olmuşdur.

Müstəqilliyin ilk illərində fakültədə 4 kafedra: Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Kitabxana fondu vəkataloqların təşkili,Kitabşünaslıq və nəşriyyat işi kafedraları, 3 tədris laboratoriyası – Kitabxana işinin təşkili və idarə olunması, Kitabxana fondu və kataloqların təşkili, Biblioqrafik axtarışın sistemlərinin təşkili laboratoriyaları fəaliyyət göstərmişdir. Fakültədə 40 nəfərə yaxın professor-müəllim və köməkçi texniki heyət çalışırdı. 1990-cı illərin ikinci yarısından başlayaraq tələbə qəbulu tədricən artmağa başlamışdı. Artıq 90-cı illərin axırında hər il fakültəyə 130 nəfər tələbə qəbul edilirdi. 1997-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi kitab əmtəəşünaslığı ixtisası üzrə fakültəyə tələbə qəbulunu dayandırdı. Bu vəziyyəti məqbul hesab etməyən fakültə rəhbərliyi çox düzgün mövqe tutaraq, fakültədə kitab ticarətinin təşkili ixtisasının əvəzinə, respublikamızda indiyə qədər kadr hazırlanmayan, lakin yüksək ixtisaslı mütəxəssislərə ehtiyac duyulan "Nəşriyyat işi və redaktəetmə" ixtisası üzrə şöbə yaratmağa müvəffəq oldu. Beləliklə, 1997-ci ildən başlayaraq Nəşriyyat işi və redaktəetmə ixtisasının gündüz şöbəsinə 30 nəfər tələbə qəbul edildi. Nəşriyyat işi və redaktəetmə ixtisası üzrə indiyə kimi 400-dən çox yüksəkixtisaslı kadr hazırlanmışdır. Fakültə, həmçinin müstəqillik illərində kadr hazırlığının keyfiyyətində böyük dəyişikliklər aparmağa müvəffəq oldu. Belə ki, yeni "Təhsil haqqında" qanuna əsasən BDU-nun Elmi Şurası 1993-cü ildə bütün fakültələrdə təhsil sisteminin ardıcıl həyata

keçirilməsi üçün dördillik "Bakalavr"tədris planlarının tərtib edilməsi haqqında qərar çıxartdı [35, 112].

Beləliklə, bu istiqamətdə Kitabxanaçılıq fakültəsinin kollektivi mühüm tədbirlər həyata keçirməyə başladı. Əvvəlcə qanunu öyrənmək məqsədilə ixtisas kafedralarında və fakültə elmi şurasında onunmüzakirəsi keçirildi.Burada o qədər də zəruri olmayan bəzi fənlər çıxarıldı, bir sıra fənlərin, o cümlədən ixtisaslaşma fənlərin saatları artırıldı.

1993-cü ildə "Təhsil haqqında" qanuna müvafiq olaraq fakültə çoxpilləli təhsil sisteminə keçdi və yeni tədris planı hazırlandı. Bu planın əsasında 1989-cu ildə Moskvada təsdiq edilmiş tədris planı dururdu. Planda Azərbaycanın müstəqilliyi ilə əlaqədar bir sıra ciddi dəyişikliklər edildi. Hər şeydən əvvəl Azərbaycan tarixi, Azərbaycan dili və ədəbiyyatı, xarici dil fənlərinin tədrisinə xüsusi diqqət yetirildi. Bundan başqa ixtisas fənlərinin tədrisində də müəyyən yeniliklər baş verdi. 4 illik təhsil müddətinə keçilməsinə baxmayaraq ixtisas fənlərinin saatlarınəinki azaldılmadı, əksinə, yeri gəldikcə "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq" və "Kitab tarixi" fənləri üzrə artırıldı. Belə ki, respublikamızın milli xüsusiyyətlərini nəzərə alaraq "SSRİ-də və xarici ölkələrdə kitabxana işinin tarixi" fənninin tərkib hissəsi kimi tədris edilən "Azərbaycanda kitabxana işinin tarixi", həmçinin "Azərbaycanda kitab tarixi" fənlərinin müstəqil fənn kimi tədris edilməsi nəzərdə tutulurdu.

1996-cı ildə Təhsil Nazirliyi tərəfindən hazırlanıb təsdiq edilən ixtisas standartları əsasında 1997-ci ildə fakültədə tərbiyə edilmiş yeni kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə tədris planında ixtisaslaşmalar çıxarılmış, onların yerini ümumi ixtisas kurslarının daha mükəmməl ixtisas kursları tutmuşdur. Həmçinin yeni dövrün tələblərinə uyğun olaraq ixtisas fənləri üzrə bir sıra ümumi kurslar plana daxil edilmişdir. Kitabxanaşünaslıq üzrə "Kitabxana iqtisadiyyatı", "Uşaqlara kitabxana xidməti", "NTS və xüsusi növ sənədlərin təsviri və təsnifləşdirilməsi", "Kitabxanada kataloqlaşdırma prosesinin mexanikiləşdirilməsi" fənləri; Biblioqrafiyaşünaslıq üzrə"Uşaqlar və gənclər üçün ədəbiyyatın biblioqrafiyası","NTS və



patent ədəbiyyatının biblioqrafiyası" fənlərini buna misal göstərə bilərik. Eyni zamanda informasiya cəmiyyətinin kitabxanalar qarşısında qoyduğu vəzifələrə müvafiq olaraq tədrisin təşkilində yeni keyfiyyət dəyişiklikliyi etmək tədris planında dəyişikliklər edildi. Belə ki, buraya cəmiyyətin informasiya tələbatını ödəmək üçün informasiya texnologiyalarına, kitabxana işinin kompüterləşdirilməsinə dair yeni fənlər salındı. Beləliklə fakültə qarşısında müasir informasiyalaşdırılmış cəmiyyətin tələbləri və problemləri hərtərəfli təhlil etmək, onu yeni dövrün aspektindən qiymətləndirmək, obyektiv şəkildə nəzəri konsepsiyanın əsas istiqamətlərini gözdən keçirmək kimi son dərəcə əhəmiyyətli vəzifələr qoyuldu

Prof. A.Xələfov 1998-ci ildə nəşr etdirdiyi "Azərbaycanda ali kitabxanaşünaslıq təhsili" adlı monoqrafiyasında Kitabxanaçılıq fakültəsinin əhəmiyyətini belə qiymətləndirir: "Müstəqil Kitabxanaçılıq fakültəsinin təşkili Azərbaycanın mədəniyyət və təhsil tarixində çox mühüm hadisə idi. Bu hadisə eyni zamanda kitabxanaşünashq və biblioqrafiyaşünaslıq elmlərinin inkişaf etdirilməsi, əsaslı elmi tədqiqatların aparılması, elmi işçilərin və fakültə üçün müəllim kadrların hazırlanması sahəsində geniş imkanlar açdı" [32, 30].

Qeyd etdiyimiz kimi, müstəqillik şəraitində informasiyalaşdırılmış cəmiyyətin kitabxanalar qarşısında qoyduğu tələblərə cavab vermək üçün fakültədə bir çox islahatlar aparılmışdır. 2001-ci ildə fakültə elmi şurası fakültənin adının dəyişdirilib "Kitabxanaçılıq-informasiya" fakültəsi qoyulması haqqmda fikir irəli sürdü. Bu təklif BDU-nun rektoru, akademik A.M.Məhərrəmov tərəfindən müsbət qarşılandı və 2004-cü ildən bu fakültədə kitabxanaçılıq-informasiyaya aid fənlərin keçirilməsinə geniş şərait yarandı, müasir informasiya cəmiyyətinin tələblərini ödəyə biləcək yeni fənlər tədris edilməyə başlandı.

1999-2000-ci tədris ilindən başlayaraq Kitabxanaçılıq-informasiya fakültəsində üç ixtisas: Kitabxanaşünaslıq, Biblioqrafiyaşünaslıq, Nəşriyyat işi və redaktəetmə ixtisasları üzrə magistr qəbuluna başlanmış, 2002-ci ildə fakültədə ilk magistr buraxılışı olmuşdur. Bu da fakültədə "Təhsil haqqında" qanuna müvafiq olaraq çoxpilləli

təhsil sisteminin tam həyata keçirilməsi istiqamətində apardığı uğurlu fəaliyyətin nəticəsidir. Onu da qeyd edək ki, Kitabxanaçılıq-informasiya fakültəsində təhsilin üçüncü səviyyəsi- doktor ixtisası üzrə kadrların (artıq bu kadrlar fakültə əməkdaşları hesab olunurlar və onlar fakültədə pedaqoji fəaliyyətlə məşğul olurlar) fəlsəfə doktoru və elmlər doktorlarının yetişdirilməsi istiqamətində də uğurlu fəaliyyət göstərir ki, bu da yeni dövrdə yeni təhsil sisteminə uyğun bütün işlərin layiqincə həyata keçirilməsinin ən bariz göstəricisidir.

Eyni zamanda gələcək yüksək ixtisaslı kadrların hazırlanmasındaTələbə Elmi Cəmiyyətinin də özünəməxsus rolu vardır. Belə ki, TEC-də müzakirə olunub bəyənilən məruzələr respublikanın elmi konfranslarına tövsiyə olunur. Təsadüfi deyildir ki, fakültəmizin tələbələrindən bir çoxu həmin konfranslarda xüsusi medal və fəxri fərmanlara layiq görülmüşlər.

Müasir şəraitdə Kitabxanaçılıq-informasiya fakültəsinin işinin inkişafında və informasiya-kommunikasiya texnologiyalarından istifadənin təmin edilməsində 1999-cu ildə prof. A.Xələfov tərəfindən yaradılan "Kitabxanaların kompüterləşdirilməsi elmi tədqiqat laboratoriyası"nın da xüsusi yeri vardır. Məhz bu laboratoriya ölkəmizdə ilk dəfə olaraq Avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərindən (AKİS) istifadə məsələsinin zəruriliyini gündəmə gətirmiş və burada "Kitabxana-I" və "Kitabxana-II" AKİS-ləri təşkil edilmiş və sonrakı illərdə ölkəmizdə istifadə olunmasının əsasını təşkil etmişdir. Qeyd etdiyimiz kimi, XX əsrin II yarısından başlayaraq respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi tədqiqat işlərinin mərkəzi də məhz BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsidir. Bu fakültənin əməkdaşları A.Xələfov başda olmaqla milli kitabxanaşünaslığımızın əsasını qoymuş, zənginləşdirmiş və bu gün də zənginləşdirməkdədir.

Ötən illərdə prof. A.Xələfov, prof. Z.H.Əliyev, prof. B.V.Allahverdiyev, prof. X.İ.İsmayılov, dos. K.Aslan, dos. N.İsmayılov, dos. S.Rzayev, dos. H.Həsənov, dos. Z.Baxşəliyev, dos. Ə.Xələfov, dos. T.Quliyev, dos. R.Kazımov, dos. E. Əhmədov və başqa əməkdaşlar milli kitabxanaşünaslıq elminin formalaşması və inkişafına



xidmət göstərmişlər. Hazırda fakültənin gənc əməkdaşları kitabxana işi sahəsi ilə bağlı yeni elmi tədqiqatlara cəlb olunur, fundamental araşdırmalar aparır, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmlərini müasir şəraitdə yeni istiqamətlərdən tədqiq edirlər.

Kitabxanaçılıq-informasiya fakültəsinin yetirmələri ölkəmizin elmi, mədəni və ictimai həyatında həmişə yüksək mövqe tutmuş, adları zirvələrdə gəzmiş, ən ülvi və ən təmiz ucalıqları fəth etmişlər. Bu barədə prof. A.Xələfəv "Azərbaycanda ali kitabxanaşünaslıq təhsili" adlı monoqrafiyasında yazır: "Kitabxanaçılıq fakültəsi respublikamızda yaranmış belə bir ictimai fikirlə fəxr edir ki, bu fakültənin yetirmələri öz elmi dünyagörüşləri, intellektual və dərin bilikləri ilə fərqlənirlər. Bunun tələbini isə fakültənin tələblərinin sosial mənşəyində, tələbələrin əksəriyyətinin sadə, zəhmətkeş balaları olmasında axtarılır. Bu fikirlə qismən razılaşmalı olsaq da, tələbələrin yüksəksəviyyəliziyalı kimi yetişməsinin əsas səbəbini fakültədə olan ciddi təhsil intizamında, tədris prosesinin yüksək səviyyədə təşkilində, fakültədə mühazirələr oxuyan bütün müəllimlərin həm ixtisas, həm də digər elmi fənlərdən dərs deyən müəllimlərin vicdanlı zəhmətində, işçi kollektivin əmək intizamında və sağlam ictimai mühitdə axtarmaq lazımdır" [32, 32].

Fakültənin yetişdirmələri, görkəmli elm xadimləri İslam Ağayev, Asif Nəsirli, Əsədulla Qurbanov, Qara Namazov, Kərim Həsənov, Vəli Həbiboğlu; kitabxana işinin təşkilatlarından Leyla Qafurova, Füruzə Quliyeva, Kərim Həsənov, Aybəniz Əliyeva-Kəngərli, Müzəffər Həsənov, Tamella İsmixanova, Sara İbrahimova, Narıngül Xələfova, Cabir Məmmədov, Məmməd Həsənov, Mirməmməd Novruzov, Ələddin Əliyev, Rəfiqə Zərdabi, Asif Bayramov, şair, yazıçı və jurnalistlərdən: xalq şairi Zəlimxan Yaqub, Əlisa Nicat, Məmməd İsmayıl, Davud Nəsib, Şakir Yusubov, Əhməd İsayev, Knyaz Aslan, Eldar İsmayıl, Akif Nəsirov, Bahəddin Həziyev, Şələlə Məhyəddinqızı və neçə-neçə başqalarının adları iftixar hissi ilə çəkilir. Adları çəkilən həmin insanların hər biri cəmiyyətdə öz şərəfli dəst-xətti, yüksək ziyalı mövqeyi olan insanlardılar. Xalq şairi Zəlimxan Yaqub, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, publi-

sist, pedaqoq Knyaz Aslan kimi ziyalıların inkişaf edib formalaşmasında, minillik tariximiz və ədəbiyyatımızda özünəlayiq yer tutmalarında məhz Kitabxanaçılıq-informasiya fakültəsinin misilsiz xidməti və rolu vardır [43, 49].

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin daha bir uğuru 1997-ci ilin oktyabrından fakültədə əməkdaşların, professor-müəllim heyətinin, magistr və doktorantların, eləcə də kitabxana işi sahəsində çalışan və mədəniyyət tarixinin tədqiqatı ilə məşğul olan insanların elmi tədqiqat işlərinin, məqalə və referatlarının çap edilən, ictimaiyyətə çatdırılmasını nəzərdə tutan "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri, metodik və təcrübi jurnalının (təsisçi və baş redaktor tarix elmləri doktoru, prof. X.İ.İsmayılov) buraxılması oldu. Jurnalın müasir tələblər əsasında təşkil edilməsinin təsdiqi üçün bir çox səbəblər vardır. Onlardan başlıcası isə jurnalın titul vərəqinin və qısa məzmununun doğma dilimizdən əlavə ingilis və rus dillərində nəşr olunmasıdır. Məhz bu cəhət jurnalın elmi və ictimai dəyərinin artmasında, elmi-mədəni mühitdə uğur qazanmasında böyük rol oynamışdır.

Həmçinin, 2008-ci ildən "Kitabşünaslıq və nəşriyyat işi" elmi-nəzəri təcrübi jurnalı nəşr olunur. Jurnalın təsisçisi və baş redaktoru prof. B.Allahverdiyevdir.

Bundan başqa, 2010-cu ildən çapdan çıxan "Kitabxanaşünaslıq və informasiya" jurnalını da qeyd etmək lazımdır. Bu jurnalın təsisçisi və baş redaktoru prof. A.Xələfovdur.

Fakültədə nəşr olunan ixtisas jurnallarından başqa, BDU-nun Elmi Xəbərlərinin Kitabxanaşünaslıq-biblioqrafiya seriyasına prof. A.Xələfov rəhbərlik edir və bu seriyada fakültə alimlərinin müntəzəm olaraq elmi əsərləri çap edilir.

AMEA MEK-nın Elmi Xəbərləri məcmuəsində də bu sahədə tədqiqat aparan mütəxəssislərin əsərləri çap edilir. Adıçəkilən bu jurnalların hamısı beynəlxalq statusa malikdir.

Müasir şəraitdə fakültənin ən böyük uğurlarından hesab olunan və informasiya yönündə aparılan uğurlu addımlardan biri də fakültənin digər fakültələr, o cümlədən tətbiqi riyaziyyat və kibernetika, mexanika riyaziyyat fakültəsi və informatika kafedrası ilə əlaqələrinin genişlənməsi həmin fakültə və kafedralarlakadr mübadiləsinin təşkil edilməsi, informatika-kitabxanaşünaslıq, kitabxanaşünaslıq arasında əlaqələrin elmi-fundamental şəkildə əlaqələndirilməsi və bu istiqamətdə əsərlərin yazılmasına həmin əlaqələrin qurulması nəticəsində prof. A.Xələfovun təşəbbüsü ilə Kitabxana proseslərinin komputerləşdirilməsi ilə bağlı dərslik və dərs vəsaitlərinin yaradılması qərara alınmış və butəşəbbüsöz uğurlu bəhrəsini vermişdir.Prof. A.Xələfov və dos. A.Qurbanov birlikdə "Kitabxanaların komputerləşdirilməsinin əsasları"adlı fundamental elmi əsər yazaraq nəşr etdirilmiş və tələbə və müəllimlərin, kitabxanaçı-biblioqraf-informasioloqların stolüstü kitabxanası verilmişdir. Bundan əlavə dos. M.Xəlilov, dos. A.Qurbanov və Kitabxanaşünaslıq kafedrasının müəllimi N.Musayevanın "Kitabxanaşünaslıq informatikası" adlı kitabı da bu kimi baxımdan təqdirəlayiqdir.

Göründüyü kimi, Kitabxanaçılıq-informasiya fakültəsi müstəqillik illərində uğurlu fəaliyyət göstərmiş, öz üzərinə düşən bütün vəzifələri və tələbləri layiqincə yerinə yetirməyə çalışmışdır. Ümumiyyətlə, Kitabxanaçılıq-informasiya fakültəsinin fəaliyyəti respublikamızın elmi, mədəni mühitində həmişə böyük maraq doğurmuş, onun çoxillik fəaliyyəti yüksək qiymətləndirilmiş, fakültənin yubiley mərasimləri yuxarı dövlət və hökumət orqanları, təhsil qurumları tərəfindən təntənə ilə qeyd olunmuşdur.

1997-ci il oktyabr ayının 28-də fakültənin 50 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Yubiley mərasimini giriş sözü ilə BDU-nun rektoru, prof. Misir Mərdanov açmış, bu fakültənin yubileyinin respublikamızın elmi, mədəni və təhsil həyatında hühüm hadisə olduğunu qeyd etmiş, müstəqil respublikamızın elmi, mədəni, təhsil həyatında mühüm hadisə olduğunu qeyd etmiş, müstəqil respublikamızın çoxsaylı kitabları üçün yüksək ixtisaslı kadr hazırlığında yeganə qurum kimi rolunu və əhəmiyyətini vurğulamışdır. Daha sonra prof. A.Xələfov, dos. X.İsmayılov fakültənin yaranması haqqında geniş məruzə etmişlər. Eyni zamanda yubiley iclasında akademik T.Bünyadov, xalq şairi Z.Yaqub, K.Tahirov, AMEA

MEK-nın direktoru Ə.Əfəndiyev, prof. M.Rəsulov, prof. R.Paşayev və başqalarıçıxış etmişlər.

2007-ci ildə Kitabxanaçılıq-informasiya fakültəsinin 60 illik yubileyi də qeyd edilmişdir. Yubileyə giriş sözü ilə BDU-nun rektoru, akademik A.Məhərrəmov açmış, fakültənin respublikanın elm, mədəniyyət sistemindəki yeri və əhəmiyyətindən söz açmışdır. Prof. A.Xələfov, prof. X.İsmayılov geniş məruzə ilə çıxış etmiş, fakültənin yetirmələri olan şairlər, alimlər, yazıçılar, elm xadimləri, ziyalılar fakültənin respublikanın təhsil sistemində ümumi mədəniyyət sferasında tutduğu yüksək mövqedən iftixar hissi ilə söz açmışlar. Göründüyü kimi, fakültənin əhəmiyyəti respublikanın yüksəkelm və təhsil orqanları səviyyəsində dərk edilir,fakültə əməkdaşlarına fəxri adların verilməsi, orden və medallarla, diplom və fəxri fərmanlarla təltif edilməsi məsələsi həmişə diqqət mərkəzində saxlanılır. Prof. A.Xələfov "Əməkdar elm xadimi", "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Zöhrab Əliyev, Xəlil İsmalılov "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşlər. Knyaz Aslan "Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi" adına, tanınmış pedaqoq alim, publisist şair, jurnalist kimi "Həsən bəy Zərdabi", "Qızıl qələm" və onlarla digər mükafatlara layiq görülmüşdür. Eyni zamanda fakültənin əməkdaşları Azərbaycan Cəmiyyətində öz yüksək ictimai fəallıqları ilə də hər zaman seçilmişlər.

Prof.A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Respublika Təhsil Şurasının, BDU Böyük Elmi Şurasının üzvü kimi, Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli zəngin ictimai və təşkilatçılıq göstərir.

Prof. X.İ.İsmayılov Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri kimi səmərəli fəaliyyət göstərir. Məhz prof. X.İsmayılovun yaratdığı və rəhbərlik etdiyi AKİİA IFLA-ya Azərbaycandan üzv olan yeganə qurumdur. Bu da X.İsmayılovun kitabxanaşünas alim və xadim kimi çoxçoxsahəli fəaliyyətindən xəbər verir.



Kitabxanaçılıq-informasiya fakültəsi yarandığı gündən ona dörd dekan başçılıq etmişdir. Belə ki, prof. A.Xələfov 1962-1970 və 1979-1993-cü illərdə, prof. Z.Əliyev 1970-1979- cu illərdə, 1993-2012-ci ilə kimi prof. X.İ.İsmayılov, 2012-ciildən bu günə kimi isə fakültənin dekanı vəzifəsində dos. A.İ.Qurbanov çalışır. Hazırda fakültədə ixtisas fənləri üzrə 3 nəfər elmlər doktoru, professor, 18nəfər elmlər namizədi, dosent çalışır.

Beləliklə, müstəqillik illərində Azərbaycanda ali kitabxanaçılıq təhsilinin inkişafı böyük bir mərhələ keçmiş, bu mərhələdə Azərbaycanda ali kitabxanaçılıq təhsili sahəsində böyük islahatlar, köklü dəyişikliklər aparılmış, kitabxanaçılıq təhsilinin dövrün bütün tələblərinə cavab verməyi, müasir informasiya- kommunikasiya texnologiyaları sistemində yer tutması istiqamətində böyük işlər görmüş və bu işlər öz qlobal və son dərəcə mürəkkəb xarakteri ilə seçilmişdir.

XX əsrin 40-cı illərinin sonlarında yaranan və bu günə kimi uğurlu, səmərəli bir yol keçmiş kitabxanaçılıq təhsili öz fəaliyyət sferasını günün tələbləri səviyyəsində qurur, qloballaşan informasiya əsrində özünəlayiq yer tutmağa çalışır.

## 3.2. Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin və kitabxanaçılıq təcrübəsinin rolu

Təhsil və təcrübə çox zaman fərqli mənalar kəsb edir. Bu, həmçinin kitabxanaçılıq sahəsinə aiddir. Hər bir kitabxana öz fəaliyyətində spesifik xüsusiyyətlərini nəzərə alır və fəaliyyət dairəsini bu istiqamətlərdə qurur. Ona görə də gənc kitabxanaçılar hər zaman nəyisə öyrənmək, nəyəsə nail olmaq uğrunda mübarizə aparırlar. Kitabxanaçılıq təhsilinin əsas qayəsi yalnız ondan ibarət deyil ki, kursa dair materialları mənimsəsin. O, həm də gələcək peşəyə dair vacib keyfiyyətləri öyrənməlidir. Bu, özünəinam, maraqlılıq, yaradıcı təfəkkür, kommunikativlik və məsuliyyətdir. Sadalanan bu yeni şərtlərə uyğunlaşmaq üçün əməkdaşın üzərinə hansı işlərin düşdü-

yünü müəyyənləşdirmək lazımdır. Onu da bilmək lazımdır ki, o, özünü hansı mühitdə və hansı iş şəraitində göstərə bilər.

Peşəkar fəaliyyət tərzi, ixtisaslaşmanın daha yüksək səviyyədə olması, kollektiv işlərdə özünügöstərmə kimi xüsusiyyətlər də kitabxanaçılıq təhsilində öz əksini tapmalıdır. Bütün bu deyilənlər kitabxanaçılıq təhsilində öz əksini taparsa və kitabxanaçılıq təcrübəsində düzgün tətbiq olunarsa, təhsilin keyfiyyəti daha da yüksək və effektiv olar. Beləliklə, daha effektiv kitabxanaçılıq təhsilini və təcrübəsini yaymaq üçün kitabxanaçılıq təhsili verən təhsil müəssisələri və təşkilatlarda təhsil alan mütəxəssislərə bu fikirləri aşılamaq lazımdır.

Peşəkar əməkdaşlıqda kitabxanaçılıq təhsilinin və təcrübəsinin 2 infrastrukturu müəyyənləşdirilmişdir:

1) Bu sahə üzrə mütəxəssis kadrların hazırlanması: bu istiqamət birinci və əsasdır;

2) Fəaliyyət və istehsal (kitabxanaçılıq işi): burada həyata keçirilən fəaliyyət və işlər Azərbaycan Respublikasının bu sahəyə dair qanunları ilə tənzimlənir.

Peşəkar kitabxanaçı-biblioqraf kadrların hazırlığı və onlara verilən minimum dövlət tələbləri respublika hökuməti tərəfindən hazırlanmış müvafiq dövlət standartlarına əsasən həyata keçirilir. Qəbul olunmuş dövlət standartlarında kitabxanaçılıq təhsilinin bölgüsü, fəaliyyət dairəsi, prinsipləri, kitabxanaçı kadr hazırlığında qarşıya qoyulan şərtlər öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, kitabxanaçılıq təhsilində və təcrübəsində ilk istiqamətkitabxanaşünas-biblioqraf kadrların hazırlığıdır.

Kitabxanaşünas-biblioqraf kadr hazırlığı bu sahəyə olan tələbatdan irəli gəlir. Bazar iqtisadiyyatının tələb-təklif münasibətlərinə əsaslansaq görərik ki, zaman keçdikcə tələb olunan yerlərə qarşı təklif olunan kadrlar hər zaman azlıq təşkil etmişdir. Çünki mədəniyyətin ayrılmaz hissəsi olan və cəmiyyətdə hər zaman informasiya funksiyasını önə çəkən kitabxanaların sayı artan xətlə inkişaf etmişdir. Hazırda respublikamızda 12 minə yaxın kitabxana fəaliyyət göstərir. Bu kitabxanaları kitabxanaçı kadrlarla təmin etmək üçün



kitabxanaşünas-biblioqraf kadr hazırlığına xüsusi diqqət yetirmək lazımdır.

Peşəkar kitabxanaşünas-biblioqraf kadr hazırlığı özündə peşəkar fəaliyyəti əks etdirməlidir. Buna əsasən peşəkar kitabxanaşünas-biblioqraf kadrlar aşağıdakı fəaliyyət prinsiplərini özündə birləşdirməlidir:

- Elmi tədqiqat bacarığı;
- Praktiki istehsal bacarığı;
- Müzakirə;
- Metodiki iş və s.[64, 122]

Bu zaman təcrübədə çalışan kitabxanaçıların praktiki istehsal fəaliyyəti anlamını daha ətraflı mənimsəmək lazımdır. Birinci fəaliyyət istiqamətini araşdırarkən bir daha belə qənaətə gəlmək olar ki, kitabxanaçılıq təhsili və təcrübəsində əsas yerlərdən birini kadr hazırlığına verilən tələblər tutur. Kitabxanaçılıq təhsili və təcrübəsi bu sahədə çalışan kadrların hazırlığından başlayır. Düzgün kadr hazırlamaq kitabxanaçılıq təhsili və təcrübəsində əhəmiyyətli yer tutur. Kitabxanaçılıq təhsilində peşə biliklərinin tədrisi dedikdə nə başa düşülür? Təhsil bazası: bu zaman həmin peşənin dərinliklərinə nüfuz edən, onun əhəmiyyətini cəmiyyət üçün açıqlayan biliklər toplusu başa düşülür.

Ümumiyyətlə, kitabxanaçılıq təhsilində kitabxanaşünaslıq elmlərinin tədrisi iearxik qaydada, sadədən mürəkkəbə doğru formalaşmışdır. İndi isə kitabxanaçılıq təhsilində birinci yerdə dayanan kitabxanaşünaslıq fənlərinin tədrisi metodikasına nəzər yetirək.

Məsələn, "Kataloqlar": kadr hazırlığında istifadə olunan dövlət standartında sırf belə bir ixtisas yoxdur, lakin peşəkar kadr hazırlığı üçün bu fənnin tədrisi böyük əhəmiyyət kəsb edir. Burada kitabxana kataloqlarının əsas xüsusiyyətləri, kataloq sistemi, onun növləri, biblioqrafik təsvir və təsnifləşdirmə və predmetləşdirmə məsələləri tədris olunur. Həmçinin ənənəvi informasiya-axtarış sistemləri ilə müasir informasiya-axtarış sistemləri arasında olan fərqlər bu fənnin tədrisində öz əksini tapır. "Kitabxana kataloqları" kursu kitabxanalarda işləyən kadrların ixtisaslaşmasında böyük əhəmiyyətə

malikdir. Məlum olduğu kimi, kitabxanalarda ənənəvi və avtomatlaşdırılmış kataloqlar mövcuddur. Bunlar arasındakı fərqlər də bu fənnin tədrisində öytənilir.

Elmi, tərbiyəvi fikirləri özündə birləşdirən və bu sahənin baza fənlərindən biri sayılan "Kitabxana xidməti" fənninə dövlət standartında mühüm yer verilmişdir. "Kitabxana xidməti": burada oxuculara xidmət işinin məqsədi, məzmunu və vəzifələri elmi cəhətdən izah olunur, şəxsiyyətin formalaşmasında, cəmiyyətinintellektual səviyyəsinin inkişafında mütaliənin və bu işə xidmət edən kitabxanaların rolu əsaslandırılır. Burada, həmçinin oxucu marağı, oxucu tipologiyası, mütaliə psixologiyası, mütaliə sosiologiyası və mütaliə pedaqogikası kimi mühüm problemlərin şərhi verilmişdir. Həmçinin kitabxana ünsiyyəti, kitabxana etikası, kitabxana xidmətində effektivlik, eləcə də kitabxanaçılıq peşəsi və kitabxanaçınm şəxsiyyəti üçün vacib sayılan əlamət və keyfiyyətlər izah olunur. Sırf bu fənlə əlaqədar olduğu üçün bir müqayisəni aparmaq yerinə düşər. 1998-ci ildə Rusiyada kitabxanaşünas-biblioqraf kadr hazırlayan təhsil müəssisələrində "Kitabxanaçılıq psixologiyası" adlı fənnin tədrisinə başlanılmışdır. Haşiyə çıxaraq qeyd etmək istərdik ki, kitabxanaşünaslıq elmi bir fəndən, bir predmetdən ibarət deyil. Bura bu sahənin əsas prioritet istiqamətlərini özündə birləşdirən və geniş elmi izahını vermək bacarığında olan fənlər toplusu aiddir.

Dissertasiyanın əvvəlki paraqraflarında qeyd etdiyimiz kimi, hər bir fənni tədris edərkən, ilk növbədə, onun tarixinə nəzər yetirmək lazımdır. "Azərbaycanda kitabxana işinin tarixi" fənni ən qədim zamanlardan müasir dövrə qədər kitabxanaların inkişafının xronoloji ardıcıllığını öyrənir. Kitabxanaşünas-biblioqraf ixtisasına yiyələnən kadrlar üçün bu fənnin əhəmiyyəti böyükdür.

"Ümumi kitab tarixi": burada Misir, Şumer, Çin, hind, yəhudi, türk, slavyan xalqlarının ən qədim yazı tipləri, sistemləri, əlifbaları, yazı materialları, əlyazma kitabları, onların meydana gəlməsi, təşəkkülü, inkişafı, istifadəsi və yayılması problemləri şərh edilir. Ümumiyyətlə, kitab tarixi kursunun öyrənilməsi, elmi şəkildə işlənməsi,



oxucu qrupları arasında kitabın təbliği və yayılmasının səmərəliliyinin yüksəldilməsiböyük aktuallıq və əhəmiyyət kəsb edir.

"Ümumi biblioqrafiyaşünaslıq": burada biblioqrafik fəaliyyətin nəzəri əsaslandıran, biblioqrafik informasiyanın mahiyyətindən, əsas ictimai funksiyalarından, biblioqrafik informasiyanın yaranma tarixindən, inkişaf qanunauyğunluqlarından bəhs olunur.

"Kitabxanaşünaslığa giriş": cəmiyyətin malik olduğu sosial sistemlər arasında kitabxanaşünaslığın keçdiyi yol, əldə etdiyi nailiyyətlər, inkişaf perspektivləri və ən əsası, bu sahə fənlərinin başlanğıcı hesab olunur və bu sahədə açar rolunu oynayır.

"Kitabxana işinin təşkili və idarə edilməsi": burada əhaliyə kitabxana xidmətinin səmərəliliyi və keyfiyyətini yüksəltmək, elmi idarəetmənin əsaslarını öyrətmək, onun inkişaf perspektivlərini, qanunauyğunluqlarını açıb göstərməkdən, həmçinin mütəxəssisləri ilkin təşkilati işlərə yönəltməkdən ibarətdir.

"Kitabxana-informasiya texnologiyaları": burada kitabxana-informasiya texnologiyalarının nəzəri əsasları, tarixi, strukturu, fəaliyyət prinsipləri ətraflı şərh edilir, informasiya proseslərinin nomenklaturası, toplanması, işlənməsi, informasiya resurslarınm təsnifatı, reqlamentləri, eləcə də texnoloji layihələşdirmənin mərhələləri haqqında geniş təsəvvür yaradılmışdır[43, 134].

Göründüyü kimi, kitabxanaşünas-biblioqraf kadr hazırlığında, kitabxanaçılıq təhslinin inkişafında baza fənlərinin tədrisi mühüm əhəmiyyətə malikdir. Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elmləri ilə yanaşı, kitabxanaçılıq təcrübəsinin də böyük yeri vardır.

Məlum faktdır ki, müasir dövrdə orta və ali kitabxanaçılıq təhsili cəmiyyətdə baş verən mürəkkəb kitabxana-informasiya proseslərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Təsadüfi deyil ki, dünya kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsi qarşılıqlı əlaqədə tədris edilir. Buna görə də müasir kitabxanaçılıq təhsili sistemində heç bir nəzəri fənni təcrübədən kənarda təsəvvür etmək mümkün deyildir. Bütün bunlar aydın göstərir ki, kitabxanaçılıq təhsili müəssisələrində tədris prosesinin mütərəqqi təcrübi yenilik-

lərlə zənginləşdirilməsi ilk növbədə tədris planları və proqramlarının tərtib edilməsinə metodik mərkəz statusuna malik olan elmi kitabxanaların cəlb edilməsi zərurətini irəli sürür.

İndi isə Azərbaycan kitabxanaçılıq təhsilinə örnək ola biləcək Rusiya və ABŞ kitabxanaçılıq təcrübəsinə müraciət edək.

Rusiya Federasiyasında 130 min kitabxana vardır. Onlardan 47 400-ü kütləvi kitabxana, 65 minə yaxını məktəb kitabxanaları, yerdə qalanları isə xüsusi – tibb kitabxanaları, Rusiya Elmlər Akademiyasının kitabxanaları, universitet, kənd təsərrüfatı, elmi-texniki, iqtisadiyyatın ayrı-ayrı sahələrinə dair kitabxanalardır. Rusiyada peşəkar kitabxanaçı kadr hazırlayan 40 kollec, 17 universitet vardır ki, onlar da hər il 1800 orta, 1600 ali təhsilli kitabxanaçı kadr hazırlayırlar.

Rusiyada kitabxanaçılıq təhsilinin yaranması XX əsrin 30-cu illərinə təsadüf edir. İlk dəfə olaraq ölkədə 1930-cu ildə Moskva Kitabxanaçılıq İnstitutu təsis edilmişdir. Bu illərdən başlayaraq orta ixtisas müəsssisələri təsis olunmağa başlandı ki, burada da kitabxanaçı mütəxəssislər ayrı-ayrı sahələr üzrə hazırlanırdı. 1970-ci illərdə vahid bir ixtisas – "Kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq" ixtisası üzrə kadr hazırlığına başlandı. XX əsrin son 15 ilində Rusiyada kitabxanaçılıq təhsili sahəsindəçoxsəviyyəli təhsil sistemi yaradıldı. Bu, 1990-cı illərin əvvəllərində tam formalaşdı. Bu çoxsəviyyəli təhsil sisteminin əsas tərkib hisələrini aşağıdakılar təşkil edirdi:

– orta təhsil: kollec, texnikum;

– ali təhsil: ayrı-ayrı institutların, akademiyaların kitab-xanaçılıq fakültələri;

– əlavə təhsil: ixtisasartırma kursları, institutların aspirantura və doktorantura şöbələri [56, 8].

Sadaladığımız ilk iki istiqamət kitabxanaşünas-biblioqraf baza təhsili verirdi: orta təhsil – 3 il, ali təhsil – 4 il. Bu sistem bir məntiqi qanunauyğunluğu meydana çıxarırdı ki, burada da dərsliklər və tədris planlarına uyğun olaraq hazırlanan tələbələr öz bilik və bacarıqlarını çoxsəviyyəli təhsil sisteminə uyğunlaşdıra bilirdilər. 2000-ci ildə Rusiyada kitabxanaçılıq təhsili üzrə birinci dövlət standartı qüvvəyə



mindi. İkinci nəsil (2003) standartı kitabxanaçılıq təhsili üzrə yeni ixtisasın – kitabxanaçılıq-informasiya ixtisasının yaranmasına səbəb oldu. Bu standart kitabxanaşünaslıq-biblioqrafiya ali təhsili almış mütəxəssislərə informasiya mütəxəssisi, informasiya resurslarından istifadə edən referent, informasiya meneceri kimi adlar verirdi ki, bu da müasir dövrlə uyğunluq təşkil edir. Lakin baş verən bu uğurlarla yanaşı, Rusiya kitabxanaçılıq-informasiya təhsilində çatışmayan bir böyük cəhət var idi. Bu da genişlənməkdə olan dünya praktikasından geri qalmaq idi. Məzunlara informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklər, menecment-marketinq fəaliyyəti ilə bağlı biliklər lazımi səviyyədə tədris olunmurdu ki, bütün bunları da bilmək sosial mədəniyyət sahəsində mühüm əhəmiyyətə malik idi.

Sadalanan bütün bu faktorlar Rusiya kitabxanaçılıq təcrübəsinin Bolonya prosesinə qədər olan dövrünə aiddir. İndi isə Rusiyada kitabxanaçılıq təhsilinin Bolonya prosesi kontekstində islahatlarına nəzər salaq.

Rusiya Bolonya Bəyannaməsinə 2003-cü ildə qoşulmuşdur. Məhz bu dövrdən kitabxanaçılıq-informasiya təhsili sahəsində ölkədə yeni mərhələnin başlanğıcı qoyuldu. Təhsil sistemində bu islahatların əsas hədəfi kitabxanaçı kadrların peşə səviyyəsini artırmaqdan ibarət idi ki, bu zaman da Avropa modeli və mümkün bütün təcrübədən istifadə olunmalı idi. Bu sahədə yenidənqurma 2005-ci ildə başladı. Gələcək təhsil strategiyasını özündə birləşdirən yeni kitabxanaçılıq-informasiya təhsili üzrə dövlət standartı qəbul edildi (2008). Bu standartda Bolonya prosesinin tələbləri öz əksini tapırdı.

Müasir kitabxanaçı informasiya axtarışını, analizini nəinki kitabxana sferasında, bütün informasiya-kommunikasiya sahəsində həyata keçirə bilən mütəxəssis olmalıdır. Qəbul olunmuş yeni standart ixtisas proqramları və dərsliklərinin geniş səviyyədə tədrisini tələb edirdi. Təhsil səviyyəsinin yüksəldilməsi Rusiya Federasiyasının təhsil sistemində həyata keçirilən ən böyük islahatlardan biridir. Kitabxanaçılıq-informasiya təhslinin keyfiyyətini daha da yüksəltmək onun digər fənlərlə, onun ayrı-ayrı kriteriyaları ilə əlaqələrinin kompleks təhlilindən ibarətdir. Kitabxanaçılıq-informasiya təhslinə

marketinq-menecment fəaliyyətinin bağlanılması bu peşənin sosial nüfuzunun artmasına səbəb olacaqdır. Məhz bu islahatlar kitabxanaçılıq təhsili üzrə qəbul olunmuş dövlət standartında önə çəkilmişdir. Lakin bütün bunlar da bu sahədə olan problemlərin tam həllini məqbul görmür. Aşağı səviyyədə olan əməkhaqqı gənc və bacarıqlı mütəxəssislərin yetişməsinə öz mənfi təsirini göstərir. Bu faktor aradan qaldırılmasa Rusiyada gələcək kitabxanaçı mütəxəssislərin yetişməsi sual altına düşə bilər. Bu gün öz peşəsini tərk edib ayrı-ayrı fəaliyyət sahələrində çalışan Rusiya kitabxanaçılarının sayı 80 faizə yaxındır. Sözsüz ki, qəbul olunmuş yeni təhsil standartı kitabxanaçılıq-informasiya təhsilinin ölkədə keyfiyyətinin artırılmasına xidmət edir. Lakin unutmaq olmaz ki, yaranmış bu vəziyyəti aradan qaldırmaq üçün çoxillik fədakar əmək fəaliyyəti lazımdır.

Rusiyada ikipilləli təhsil sisteminin yerinə qəbul edilmiş üçpilləli təhsil sistemi (bakalavr, magistr, doktor) bir çox Şərqi Avropa ölkələrinin, həmçinin doqquz MDB ölkəsinin kitabxanaçılıq təcrübəsindən yararlanmışdır. Şərqi Avropa ölkələrində kitabxanaçılıq təhsilinə verilən tələblər də müxtəlifdir. Bu ölkələrin hər birində milli kitabxanaçılıq təhsili modeli qorunub saxlanılır. Məsələn, Polşa, Estoniya, Litva, Çexiya və Slovakiyada ali kitabxanaçılıq təhsili üçpilləli (bakalavr, magistr, doktor), Bolqarıstanda dördpilləli (mütəxəssis, bakalavr, magistr, doktor), Belarusda isə birpilləli (mütəxəssis) təhsil modeli saxlanılmışdır.

Rusiya kitabxanaçılıq təhsili sahəsində hələ qarşıda böyük çətinliklər və maneələr durur. Zəngin kitabxanaçılıq təhslinə malik ölkələrin təcrübələrindən yararlanmaq və təhsildə yeni islahatlar həyata keçirməklə bu problemlərin aradan qaldırılmasına səy göstərilir.

Hazırda kitabxanaçılıq sahəsinin ən çox inkişaf etdiyi ölkələrdən biri də ABŞ-dır. Respublikamızda kitabxanaçılıq təhsilinin inkişafına ABŞ kitabxanaçılıq təhsilinin də təsiri böyükdür. ABŞ-da kitabxanaçılıq sahəsinin yüksək inkişaf etməsinə səbəb müasir tələblərə cavab verən kitabxanaçılıq təhsilinin olmasıdır. Bu səbəbdən də ölkəmizdə kitabxanaçılıq təhsilinin daha yüksək səviyyədə inkişaf



etdirilməsi üçün bu ölkənin təcrübəsindən yararlanmaq daha məqsədəuyğun olar.

ABŞ-da kitabxanaçılıq təhsili, bu sahədə kadr hazırlığı məsələlərini öyrənmək üçün Bostonda yerləşən ABŞ-ın Yeni İngiltərə regionunun ən əhəmiyyətli kitabxanaçılıq təhsili müəssisəsi olan Simmons Kollecinin fəaliyyətini araşdırmaq yerinə düşər. Buraya müxtəlif sahələrdən bakalavr diplomu olan mütəxəssislər qəbul olunur və onlar kitabxanaçılıq-informasiya fəaliyyəti üzrə ixtisaslar əldə edib magistr dərəcəsi ilə kolleci bitirirlər. Kollecdə tədris prosesinin xüsusiyyətləri müxtəlifdir [43, 46].

ABŞ-da 1-2 tədris müəssisəsindən başqa heç bir yerdə bakalavr pilləsi üzrə kitabxanaçı hazırlanmır və kitabxanaçı-biblioqraf ixtisası ilə bağlı vəzifələrə yalnız bu sahə üzrə diplomu olan mütəxəssislər qəbul edilirlər. Bu da ölkədə həmin peşəyə verilən yüksək qiymətdən və peşənin nüfuzundan irəli gəlir.

İndi isə ABŞ-ın kitabxanaçılıq-informasiya təhsili verən bir neçə universitetinin təhsil proqramları haqqında daha geniş məlumat verək:

Alabama Universiteti-Kitabxana və İnformasiya Tədqiqatları məktəbi: Alabama Universiteti ABŞ-da yüksək səviyyəli kitabxanaçılıq təhsili verən qabaqcıl universitetlərdən biridir.Universitetdə təhsil alan tələbələr kitabxana və informasiya tədqiqatları üzrə elmi dərəcə almaqla yanaşı, oxuduqları müddətərzində üç sahə üzrə ixtisas seçimi apara bilərlər: 1) Kitabxana tədqiqatları; 2) Arxiv tədqiqatları; 3) İnformatika.

Lakin tələbələrin ümumilikdə aldıqları icbari fənlər də vardır: cəmiyyətdə informasiya, informasiya strukturları, kitabxana-informasiya xidmətləri layihələri, ictimai xidmət. Bundan başqa, tələbələr maraqlandıqları ayrı-ayrı kitabxana tiplərinin fəaliyyətinə uyğun istiqamətlərdə dərslər götürüb ixtisaslaşa bilərlər. Universitetdə tələbələr həmçinin aşağıdakı istiqamətlər üzrə ixtisaslaşa bilərlər:

– Müxtəlif mədəniyyətlərə aid cəmiyyətlərdə uşaqlara və gənclərə xidmət;

– Bütün formatlarda kitabxana materiallarının saxlanması;

– Etik və hüquqi problemlər, müəlliflik hüququ, intellektual azadlıq;
– Kitab və biblioqrafiya tarixi;
– İnsanların informasiya ehtiyacı və informasiya-axtarış qaydaları;
– Kitabxana şirkətləri və əməkdaşlıqları;
– Kitabxana binalarının layihələşdirilməsi;
– Elektron ticarət strategiyaları;
– İnformasiya arxitekturası;
– Verilənlər bazası layihələri, idarəetmə və qiymətləndirmə.

Ümumiyyətlə, ABŞ universitetlərinin əksəriyyətində tələbələr hər kursda üç semestr təhsi alırlar: 1) payız semestri; 2) yaz semestri; 3) yay semestri. Əgər tələbələr payızvə yaz semestrində yalnız nəzəri biliklər əldə edirlərsə, yay semestrində təcrübi biliklər qazanırlar. Bunun üçün universitet tərəfindən Yay məktəbləri ("Summer school") təşkil edilir ki, burada tələbələr həm işləyərək təcrübə toplayır, həm də məvacib alırlar.

Qeyd edək ki, universitet yay məktəblərini ölkənin ayrı-ayrı şəhərlərində, əsasən mərkəzdən uzaq yerlərdə təşkil edir ki, bu da tələbələri daha çox həvəsləndirir və həm də onlar bir növ istirahət etmiş olurlar. Alabama Universiteti də bu cür yay məktəbləri təşkil etməklə tələbələrin daha yüksək səviyyədə ixtisasa yiyələnmələrinə şərait yaradır.

Sirakuz UniversitetiABŞ-da azsaylı universitetlərdən biridir ki, orada kitabxana-informasiya elmləri üzrə bakalavr, informasiya menecmenti və texnologiyası üzrə bakalavr dərəcəsi almaq mümkündür. Tələbə il ərzində 120 kredit toplamalıdır ki, bunun da 40-ı informasiya elmləri məktəbində toplanmalıdır. Universitetdə tələbələr üçün Media mərkəzləri fəaliyyət göstərir ki, burada sırf kitabxana ixtisası üzrə təhsil alan və bilik səviyyəsi daha yüksək olan tələbələr işləmək imkanı əldə edirlər. Media mərkəzləri fəaliyyət və quruluş etibarı ilə kitabxanaları xatırladır, lakin bir fərq vardır ki, bu mərkəzlər gündəlik olaraq dünyada baş verən siyasi, iqtisadi, sosial, mədəni, informasiyanın toplanması və yayımı ilə də məşğul olurlar.



Beləliklə, burada oxucular onlara lazım olan kitabları, dövri nəşrləri əldə etməklə yanaşı, gündəlik dünyada baş verən hadisələr haqqında məlumat ala bilirlər. Sirakuza universitetində kitabxana informasiya elmləri üzrə geniş magistr proqramı vardır. Burada aşağıdakı magistr dərəcələri verilə bilər:

1.Kitabxana və informasiya üzrə magistr;
2.Məktəb-media mütəxəssisi;
3.İnformasiya menecmenti üzrə magistr;
4.Telekommunikasiya və şəbəkə menecmenti üzrə magistr;
5.İnformasiya menecmenti üzrə icraçı magistr.

Burada doktor dərəcəsi də almaq olar ki, o da informasiya elmi və texnologiyası üzrə fəlsəfə doktoru adlanır. Universitetdə aşağıdakı kurslar üzrə təhsil aparılır:
– İnformasiya texnologiyaları və təşkilatçılıq;
– Kitabxanalarda kompüterlərin tətbiqi;
– Biznes, cəmiyyət və internet;
– Veb-texnologiyalar.

Bu kurslar üzrə kitabxanada aşağıdakı dərslər aparılır: Uşaqlar, ədəbiyyat, mədəniyyət;İnformasiya texnologiyasında karyera; İnformasiya, texnologiya, təşkilatlar; İnformasiya sistemlərinin sosial aspektləri; Elm və internet; Musiqi və səs informasiya kimi; İnformasiya təşkilatının prinsipləri; Şəbəkə texnologiyaları və texnikalar; Uşaqlar üçün ədəbiyyat və resurslar; Gənclər üçün ədəbiyyat və resurslar; Kitabxana və informatika; Hüquqi və etik informasiya problemləri; İnformasiya-axtarış sistemləri; Müasir mədəniyyət və informasiya sənayesi; ABŞ telekommunikasiyaları (telekommunikasiya vasitələri); Kitabxanalar, informasiya, cəmiyyət; Kitabxanaların və informasiya mərkəzlərinin idarə edilməsi; Kataloqlaşdırma və təsnifat; İncəsənət, humanitar elmlər və informasiya mənbələri; Dövlət nəşrləri;Kitabxana binaları; İnformasiya saxlanmasının və axtarış sistemlərinin yerinə yetirilməsi; İnformasiya sistemlərinin arxitekturası; Onlayn informasiya sistemləri;Kitabxanaların tarixi; Musiqi biblioqrafiyası; Tibb ədəbiyyatı;Slavyan biblioqrafiyası; İşgüzar informasiya; Dünya biblioqrafiyası; İnformasiyanın istifa-

dəsi və istifadəçiləri; Texniki xidmətin funksiyaları; Arxivlərin və əlyazmalar toplularının administrasiyası; Uşaq ədəbiyyatı tarixi; Kitabxana materiallarının saxlanması; İnformasiya iqtisadiyyatı; Sənədlərin işlənməsi;İnformasiya sistemlərinin etnoqrafiyası; Elektron nəşr və informasiyanın işlənməsi standartları.

Simmons Kolleci kitabxanaçılıq təhsili verən universitetlərdən heç də geri qalmır və burada yüksək ixtisasa malik peşəkar kitabxanaçılar yetişdirilir. Kollecdə həm bakalavr, həm də magistr dərəcəsində təhsil almaq mümkündür. Simmons Kollecindəki tədris proqramı ABŞ Kitabxanaçılıq Assosiasiyasının təsdiqi ilə qəbul edilmişdir. Çünki ABŞ Kitabxanaçılıq Assosiasiyası Amerikada və onlarla əməkdaşlıq edən ölkələrdə kitabxanaçılıq təhsilinin inkişaf etdirilməsi üçün 2005-ci ildə proqram hazırlamış və bu proqramı bir çox universitetlərə, həmçinin Simmons kollecinə təqdim etmişdir. Doğrudan da proqramın kitabxanaçılıq təhsilinin inkişafına çox böyük dəstəyi olmuşdur.

Simmons Kollecindəki tədris proqramına uyğun olaraq təhsil alan tələbələr istənilən semestrdə dərsə başlaya bilərlər. İl ərzində üç semestr olmaqla dərslər, adətən, gündüzlər, axşamlar hərdən həftə sonları olur.

Tələbələr ardıcıl təhsil almaq üçün 36 kredit saatı toplamalıdırlar. Adətən, bu tələbi ödəyə bilməyən tələbəən azı 12 semestr ərzində bunu tamamlamalıdır və təhsilini davam etdirməlidir. Magistr dərəcəsində təhsil alan tələbələrin isə ardıcıl təhsil alma müddəti dörd semestrdir. Ümumiyyətlə, tələbələr altı il ərzində proqramı tamamlamalıdırlar. Yəni bu və ya digər səbəbdən təhsili yarımçıq qalan tələbələr, əgər altı il bitməyibsə, yenidən qayıdıb təhsillərini davam etdirə bilərlər. Kollec bir çox istiqamətlərdə öz təhsil proqramını qurmuşdur ki, bunlardan biri Texnoloji İstiqamətləndirmə proqramıdır.

Kollec tələbələrin onların tədqiqatları müddətində rastlaşacağı texnoloji biliyinin ümumi əsasını təmin etmək üçün bu proqramı qəbul etmişdir. Proqrama daxilolan bütün tələbələr birinci semestrin ortalarına qədər texniki ustalığı nümayiş etdirən məsələlərin sırasını tamamlamağa məcburdur. Materialla tanış olmayan tələbələrə kömək etmək üçün semestrin birinci iki həftəsi ərzində simpoziumlar təklif edilir.

Kollecin digər bir proqramı "ARL Academy" adlanır. ARL Kitabxana Tədqiqatları Assosiasiyasıdır. Bu proqrama əsasən, kollec kitabxana tədqiqatları mərkəzində əlavə kurs keçmək üçün tələbələr seçir və həmin mərkəzə göndərir. Əlbəttə, proqrama yalnız magistr dərəcəsində təhsil alan tələbələr cəlb olunur.

Simmons Kollecində magistrlər üçün Məktəb Kitabxanası Müəllimi Konsentrasiyası proqramı da vardır. Bu proqramın mahiyyəti aşağıdakılardan ibarətdir:

Kolleci bu proqram üzrə bitirən tələbələrə həm müəllim, həm də kitabxanaçı ixtisası verilir. Elə bu səbəbdən onlara məktəb kitabxanası müəllimləri adı verilmişdir. Məktəb kitabxanası müəllimləri (SLT) məktəblərdə informasiyanın və pedaqoji maarifləndirici fəaliyyətin mərkəzləri kimi xidmət edən kitabxana-media mərkəzlərini idarə edir. Onlar uşaqlar və böyüklər, eləcə də məktəb müəllimləri ilə əməkdaşlıq edərək məktəb tədris planının artırılmasında bilavasitə iştirak edirlər.

Məktəb kitabxanası müəllimləri kimi şəhadətnaməni axtaranlar üçün GSLIS Məktəb Kitabxanası Müəllimi proqramı xüsusi şərait yaratmışdır. Təhsil üzrə Ştat Direktorlarının Milli Assosiasiyası bu proqramı təsdiq edir və xarici akkreditləşmə agentlikləri proqramı yüksək keyfiyyətlərinə görə dəstəkləyirlər. Kollecdə təhsil alan tələbələr üçün təcrübi məşğələ saatları isə aşağıdakı kimi təşkil edilir.

Simmons Kollecində tələbələr təcrübi məşğələlər keçməzdən əvvəl sınaq imtahanları verməlidirlər. Məhz bu testlərdən keçən tələbələr təcrübədə iştirak edə bilərlər. Lakin bu təcrübələr fərqlidir. Belə ki, təcrübə planına əsasən, tələbə azad şəkildə hər hansı sahə, yaxud mövzu üzərində layihə hazırlamalı və onu həyata keçirməlidir. Bunlar hər hansı bir yeni texnologiyanın işlənməsi ilə də bağlı ola bilər, yaxud kitabxanada çətin həyata keçirilən hər hansı bir işin sadələşdirilməsi ilə də bağlı ola bilər və s. Layihəni işləməzdən əvvəl tələbələr professorları ilə məsləhətləşməli və layihəni müzakirə etməlidirlər. Proqrama görə tələbələr bu təcrübəni 75 saata tamamlamalıdırlar. Bu

saatlar üç semestrə bölünmüş və hər biri üçün 25 saat ayrılmışdır. Bu təcrübi layihələr Simmons Kollecinin yerləşdiyi Massaçusets ştatında İctimai Məktəb Kitabxanasında tamamlanmalıdır.

Xüsusilə qeyd etmək lazımdır ki, kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaçılıq təcrübəsindən danışarkən bu sahədə beynəlxalq əməkdaşlığı önə çəkmək vacibdir. Kitabxanaşünas-biblioqraf kadr hazırlığında yeganə ali təhsil müəssisəsi olan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq təcrübəsinə nəzər salaq.

Kitabxanaçılıq-informasiya fakültəsi fəaliyyətə başladığı ilk vaxtlardan etibarən SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış, bu əlaqələr tədrisin keyfiyyətini və mütəxəssis hazırlığının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Fakültənin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Vilnüs Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitunun Kitabxanaçılıq fakültələri ilə sıx elmi əlaqələri və əməkdaşlığı olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında professorlar Abuzər Xələfovun, Zöhrab Əliyevin, Xəlil İsmayılovun, Bayram Allahverdiyevin, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsi respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımdan fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf etmişdir.

Fakültənin bu sahədə göstərdiyi fəaliyyətdə 1999-cu ildə fakültənin dekanı prof. X.İ.İsmayılovun fakültənin bir sıra əməkdaşları və respublikanın kitabxana ictimaiyyətinin nümayəndələri ilə birgə təsis etdiyi Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının (AKİİA) böyük rolu olmuşdur.

Təsis olunduğu vaxtdan dərhal sonra AKİİA dünyanın bir çox ölkələrində fəaliyyət göstərən kitabxana təşkilatları, beynəlxalq



təşkilatlar ilə sıx işgüzar əlaqələr qurmağa başlamışdır. Bunların arasında ilk növbədə ABŞ-ın Azər-baycandakı səfirliyi, Açıq Cəmiyyət institutunun Bakı ofisi, Amerika Kitabxana Assosiasiyasını qeyd etmək olar. Fakültənin bir çox beynəlxalq proqramlarda və layihələrdə yaxından iştirakı məhz AKİİA-nın təşkilati dəstəyi ilə mümkün olmuşdur. Bu layihə və tədbirlər təkcə universitetə deyil, bütün respublikada kitabxana işinə fayda gətirmişdir. Belə tədbirlər içərisində 1999-cu ildə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilati və maliyyə yardımı ilə keçirilmiş seminarı qeyd etmək olar. Respublikamızda kitabxana fəaliyyəti ilə bağlı ilk beynəlxaq tədbir olan bu seminara ABŞ-dan, Litvadan və Rusiya Federasiyasından gəlmiş kitabxanaçı mütəxəssislər qatılmışdı. Buraya müasir kitabxana-bibilioqrafik fəaliyyətdə geniş istifadə edilən maşınla oxunan kataloqlaşdırma (MARC) texnologiyaları müzakirə edilmişdir. Xaricdən gələn qonaqlar fakültədə olan tədris prosesi ilə tanış olmuşlar.

Yenə həmin ildə fakültənin alimlərinin və AKİİA-nın təklifi və ABŞ səfirliyinin dəstəyi ilə Bakıda Kitabxanaçılar üçün İnformasiya-resurs və təlim mərkəzi (KİRTM) təsis edilmişdir ki, burada kitabxana işçiləri ilə yanaşı fakültənin əməkdaşları da yeni kitabxana-informasiya texnologiyalarına dair məşğələlərdə iştirak etmişdir. Bu mərkəzin rəhbərləri amerikalı Kitabxana mütəxəssisi Pol Miller və digər mütəxəssislər fakültənin beynəlxalq nüfuz və əlaqələrinin genişlənməsinə öz yardımını göstərmişlər [43, 46].

Fakültənin beynəlxalq əlaqələrinin inkişafında Avrasiya fondunun dəstəyi ilə həyata keçirilmiş "Qafqaz" Treninq mərkəzinin böyük əhəmiyyəti olmuşdur. Cənubi Qafqaz Respublikalarında kitabxana işinin kitabxanaçı təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə yönəlmiş bu layihədə bu sahənin mütəxəssisləri üçün yeni tipli interaktiv məşğələlər keçirilmişdir ki, bu işdə də fakültənin əməkdaşlarına amerikalı və gürcü mütəxəssisləri yardım göstərmişlər. Layihə çərçivəsində fakültənin nümayəndəsi, AKİİA-nın prezidenti prof. X.İsmayılov bir neçə dəfə Tbilisi şəhərində olmuş gürcu həmkarlarilə faydalı görüşlər keçirmişdir.

Fakültənin beynəlxaq əlaqələrinin genişləndirilməsində Avropa Şurasının TASİS proqramının çərçivəsində həyata keçirilən "Universitetlərin modernləşməsi" proqramının da böyük əhəmiyyəti olmuşdur. Bu uzunmüddətli proqram Avropanın inkişaf etmiş ölkələrinin, ilk növbədə Fransa və Belçikanın ali təhsil sahəsində təcrübəsinin öyrənilməsində və MDB ölkələrində, o cümlədən Azərbaycanda tətbiq edilməsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində prof. X.İsmayılov 2001-ci ilin iyulunda Belçikanın Namur şəhərində, 2003-cü ilin mayında isə Fransanın müxtəlif şəhərlərində yerləşən ali məktəblərdətəhsil işinin təşkili ilə yaxından tanış olmuşdur.

Bu proqram çərçivəsində fakültənin müəllimi Ə.Məmmədov 2002-ci ilin noyabrında Lion şəhərində yerləşən Milli Ali Kitabxanaçılıq İnformasiya mərkəzində keçirilən təlimlərdə iştirak etmişdir.

Fakültənin yaxından iştirak etdiyi digər bir beynəlxalq layihə ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilmiş BDU və İndiana Universitetləri (ABŞ) arasında əlaqə proqramı olmuşdur. Hər iki universitetin pedaqoji kollektivi arasında əlaqələrin yaradılması, təcrübənin qarşılıqlı öyrənilməsinə yönəlmiş bu layihədə əsasən BDU-nun Tarix, Hüquq, Jurnalistika, Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları yaxından iştirak etmişdir. Bu layihə çərçivəsində fakültənin müəllimi Ə.Məmmədov 2003-cü ilin yanvar-may aylarında İndiana Universieti (KİEA Bliıninqton) Kitabxana-informasiya Elmləri məktəbində ixtisasartırma kurslarında olmuşdur. Bu ezamiyyət ərzində o dörd konfransda iştirak etmiş və tezis dərc etdirmişdir. Bu proqramın tərkib hissəsi kimi 2003-cü ildə İndiana Universitetininbiblioqrafı Bob Qollart BDU-ya gələrək universitetin və Kitabxanaçılıq-informasiya fakültəsinin işi ilə yaxından tanış olmuşdur. Bundan əlavə yenə həmin universitetinmagistri Meqan Mok Kril də 3 ay ərzində BDU-da olmuş, Amerikaşünaslıq mərkəzində çalışmış, Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələriilə təlim keçmişdir.

Fakültənin beynəlxalq əlaqələrinin genişlənməsində AKİİA-nın böyük xidmətləri olmuşdur. Bu təşkilat dünyanın Kitabxana-informasiya fəaliyyəti sahəsində ən böyük beynəlxalq təşkilatına-



IFLA-ya Azərbaycandan üzv kimi qəbul edilmiş ilk təşkilat olmuşdur. AKİİA-nın prezidenti prof. X.İsmayılov iki dəfə (2001, Boston, 2005, Oslo) IFLA-nın illik konfranslarında iştirak etmiş Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir. 2001-ci il konfransının işində prof. X.İsmayılovla yanaşı, fakültənin müəllimi Ə.Məmmədov da iştirak etmişdir.

Fakültənin Baltikyanı ölkələrdəki həmkarları ilə də sıx beynəlxalq əlaqələri mövcuddur. Belə ki, bu ölkələrin nümayəndələri dəfələrlə Azərbaycanda, fakültənin nümayəndələri isə həmin ölkələrdə olmuş, faydalı əməkdaşlıq quraraq inkişaf etdirmişlər. 4-11 noyabr 2004-cü ildə Açıq Cəmiyyət İnstitutunun yardımı ilə prof. X.İsmayılovun başçılığı ilə Azərbaycanı təmsil edən nümayəndə heyəti Litvaya səfər etmiş, kitabxanaçılıq işi, kitabxana-informasiya təhsili, peşə təşkilatlarının fəaliyyəti ilə tanış olmuşlar.

Beləliklə, kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin və kitabxanaçılıq təcrübəsinin rolundan danışarkən, bu sahədə tədris olunan fənlərin elmi xarakteristikasına və mövcud təcrübənin tətbiqi keyfiyyətinə diqqət yetirmək lazımdır.

## 3.3. Kitabxanaçılıq təhsilinin inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanları

Müstəqil Azərbaycan Respublikasında yeni cəmiyyət quruculuğu, milli və dünyəvi dövlətçilik ənənələrinin inkişafı və formalaşması prosesləri bütün ideoloji, təhsil, tərbiyə, informasiya, mədəniyyət, müəssisələrinin, o cümlədən kitabxanaların qarşısında çox məsul vəzifələr qoymuşdur.

Kitabxana işi cəmiyyətin informasiya və mədəniyyət strukturunda əsas həlledici amil kimi ta qədim zamanlardan mövcud tarixi quruluş və ideologiyaya uyğun təşkil edilmiş, lakin heç zaman öz əsas qayəsindən, məqsəd və məramından kənarlaşmamış, yəni, əsas işi cəmiyyət, üzvlərinin informasiya tələbatını təmin etməkdən ibarət olmuşdur. İlkin dövrlərdən görkəmli elm, mədəniyyət, siyasət

xadimləri, ziyalılar kitabxanalara, kitabxana işinə və kitabxana quruculuğuna böyük əhəmiyyət vermiş, onları yüksək qiymətləndirmişlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev kitabxanalara yüksək qiymət verərək demişdir: "Kitabxanalar elm, təhsil, mədəniyyət, mənəviyyat, bilik və zəka mənbəyidir. Odur ki, kitabxanalara daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" [7, 2].

Onu da qeyd etmək lazımdır ki, müasir mərhələdə kitabxana işinin məqsədi, vəzifə və öhdəlikləri son dərəcə qlobal xarakter almış, kitabxanaçılıx təhsilini, kitabxana işində müasir texnologiyalardan istifadə zəruriliyi meydana çıxmışdır.

Elm və texnikanın sürətli inkişafı, informasiya-kommunikasiya texnologiyalarının yeni-yeni növ tiplərinin meydana çıxması və onlardan informasiya tələbatının təmin edilməsi üçün istifadə edilməsinin mümkünlüyünü qlobal informasiya cəmiyyətində əhəmiyyətli dönüş yaratmış, kutabxana işini, kitabxanaçılıq təhsilini (orta və ali) inkişafında, genişlənməsində fəaliyyət dairəsinin artmasında böyük rol oynamışdır.

Qeyd etdiyimiz kimi, müasir mərhələdə kitabxanaçılıq təhsilinindövrün tələbləri səviyyəsinə qaldırılması, xüsusilə ali kitabxanaçılıq təhsilinin inkişafında informasiya-kommunikasiya texnologiyalarındanistifadə olunur.

Burada, əsasən, Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemlərinin (AKİS-lərin) üzərində daha çox dayanılır.

AKİS-lər müasir kitabxanaşünaslıqda elm və texnikanın kəşf etdiyi ən böyük nailiyyətdir. Dünyanın ən qabaqcıl və kitabxana işinin ən çox inkişaf etdiyi ölklərdə AKİS-lərdən son dərəcə geniş istifadə edilir. Respublikamızda müstəqillik illlərində bu işə diqqət artırılmış və böyük işlər görülmüşdür [52, 4].

Hazıra BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində təhsil alan tələbələrə informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə aid olan və tətbiq edilən hər bir növü və tipi haqqında geniş məlumat verilir, onların tətbiqi və istismarı haqqında biliklər öyrədilir.



Eyni zamanda ali kitabxanaçılıq təhsili prosesində bir sıra xarici ölkələrin kitabxanalarında, ali kitabxanaçılıq təhsili müəssisələrində, kitabxanaçılıq proqramlarında müvafiq informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi ənənələrinin öyrədilməsi vacib hesab edilir. Beləliklə, hazırda kitabxanaçılıq sahəsinin ən çox inkişaf etdiyi ölkə ABŞ-dır və bu da onun nəticəsidir ki, burada yüksək və müasir tələblərə cavab verən kitabxanaçılıq təhsili vardır. Buna ABŞ-ın Boston şəhərində yerləşən, regionun ən əhəmiyyətli kitabxanaçılıq təhsili müəssisəsi olan Simmons Kollecini misal göstərmək olar. Simmons Kollecində tədris prosesi bilavasitə informasiya-kommunikasiya vasitələrinin köməyi ilə həyata keçirilir və ənənəvi kitabxana proseslərindən, demək olar ki, imtina edilir. Onu da qeyd edək ki, 2001-ci ilin avqustunda həmin dövrdə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, AKİİA-nın prezidenti, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor Xəlil İsmayılov, AKİİA-nın üzvləri- Biblioqrafiyaşünasliq kafedrasının baş müəllimi Əliyusif Məmmədov və Azərbaycan Dillər Universitetinin nəzdindəki İnformasiya Resurs Kompleksinin direktoru Şəhla Xudiyeva IFLA-nın ABŞ-ın Boston şəhərində keçirilən 67-ci konfransında iştirak edərkən Simmons Kollecindəki tədris prosesi ilə tanış olmuşdular.

Ali kitabxanaçılıq təhsili alan hər kəs ayrı-ayrı ixtisas fənlərini öyrənərkən yalnız ənənəvi nəzəri mühazirə mətnləri ilə yanaşı, komputer, kompüter texnologiyasının ayrı-ayrı sahələrini öyrənir, istehsalatda heç bir çətinlik və maneə ilə qarşılaşmır. Bu isə kitabxana işində informativ-kommunikativ vasitələrinin ən birinci və ən əhəmiyyətli səmərəsidir. Belə ki, mütəxəssis ali təhsil ocağından sanki illərin kitabxanaçı kadrı kimi çıxır və işlədiyi müəssisədə dövrün ən böyük nailiyyətlərinin vasitəsilə əldə etdiyi mükəmməl nəzəri-praktiki biliyi və təcrübə sahəsində informasiyalaşdırılmış Cəmiyyətin təşkili prosesinin fəal iştikakçısı olur.

XX əsrin 60-70-ci illərində ABŞ-da Konqres Kitabxanasının mütəxəssisləri İnformasiyasının "Maşınla oxunan kataloqlaşdırma" ("Machine readeble catalalogina - MARC) proqramını işləyib hazır-

ladı. Daha sonra İngiltərə, Kanada bu proqramdan müştərək istifadə üçün təşəbbüs göstərdilər. Beləliklə, İngiltərədə UKMARC, Kanadada KANMARC versiyaları meydana gəldi. Hazırda MARC formatının beynəlxalq versiyası- UNİMARC yaradılmışdır. Həmin MARC formatları həm ayrı-ayrı ölkələrdə, həm də dünyada vahid informasiya mübadiləsini təmin etmək üçün yaradılan beynəlxalq biblioqrafik təsvirformatlarıdır. AKİS-lər də həmin formatlara uyğun təşkil edilir, onların ümumi İNTERFACE zonası (pəncərəsi) həmin formatlara əsaslanır, iş mexanizmi, fəaliyyətin təşkili strukturu həmin formatlar əsasında qurulur.

Onu daqeyd edək ki, hazırda əksər kitabxanalarda kitabxana prosesləri (kitab verilişi, sifarişi, abunə, kataloqlaşdırma, komplektləşdirmə, digər proseslər vəs.) məhz MARC formatları əsasında təşkil edilən AKİS-lər (VTLS, VİRTUA, Liber, Library, IRBIS vəs.) həyata keçirilir. Deməli, həmin texnologiyalar ali kitabxanaçılıq təhsili prosesində gələcək kadrlara mənimsədilməli olan ən başlıca, ən əsas mərhələdir.

Bu nöqteyi-nəzərdən ABŞ-ın Alabama Universiteti-Kitabxana və İnformasiya Təqdiqatları məktəbinin yüksək səviyyəli kitabxanaçılıq təhsili vermə prosesinə nəzər salmaq daha məqbul olardı.

Öz nüfuzuna elmi və texniki kəmiyyət parametrlərinə görə böyük nufuz sahibi olan universitetdə Kitabxanaçılıq, Kitabxanaşünaslıq, Kitabşünaslıq nə nəşriyyat işi sahələri üzrə tədris informativ-kommunikativ vasitələrinin köməyi ilə və bilavasitə onlatr vasitəsilə aparılır. Bu da yüksək kəmiyyət və keyfiyyət göstəricilərinə əhəmiyyətli istehsalat aspektlərinə və praktiki səmərəyə öz yüksək təsirini şübhəsiz ki verməkdədir. Universitetdə tələbələr kitabxana və informasiya tədqiqatlarıüzrə elmi dərəcə almaqla yanaşı, oxuduqları müddət ərzində 3 sahə üzrə ixtisas seçimi apara bilərlər: 1) Kitabxana tədqiqatları 2) Arxiv tədqiqatları 3) İnformativ. Göründüyü kimi burada informatika artıq ixtisas fənni səviyyəsində göstərilir və bu da tədris prosesində nəzərə alınır. Bu belə də olmalıdır. Prof. A.A. Xələfov İnformatika və kitabşünaslığı müqayisə edərək müasir aspektdən yanaşdıqda hər iki elmin tədqiqat obyekti və predmeti baxı-



mından cəmiyyətdə eyni funksiya daşıdıqlarını, sosial struktur tipləri və vəzifələri baxımdan sinonim təhlil metodogiyasının eyniliyini vurğulamışdır. Deməli, böyük alimin həmişə olduğu kimi müasir dövrün astanasında bu aspektlərdən fikrinin doğruluğunu ABŞ kimi nəhəng və fövqəl, elmi, texniki, iqtisadivə hərbi cəhətdən dünyanın super dövlətinin ən böyük kitabxanaçılıq tədris planı, quruluşu və təhsil strukturu sübut edir.

Bundan əlavə, universitetdə tələbələr informasiya yönümünə, informativ-kommunikativ xarakterinə görə daha üstünlü kəsb edən aşağıdakı ixtisaslar-insanların informasiya ehtiyacı və informasiya axtarış qaydaları kitabxana şirkətləri və əməkdaşlıqları, Elektron ticarət strategiyaları, İnformasiya arxitekturası, Verilənlər bazası layihələri, idaəetmə və qiymətləndirmə ixtisasları üzrə təhsil alırlar. Heç şübhəsiz ki, həmin ixtisasların hər biri informasiya-kommunikasiya texnologiyalarının və vasitələrinin bilavasitə köməkliyi və istismarı ilə həyata keçirilir.

Göründüyü kimi, yüksək ixtisaslı informasiya mütəxəssisinin müasir kitabxanaçılıq təhsili müəssisəsinə hələ ilk baxışda verdiyi tələblərin özü belə mürəkkəbdir və onları həyata keçirmək və tətbiq etmək əhəmiyyətli texniki və proqram təminatı, ixtisaslı mütəxəssis, xarici dil biliciləri və müəyyən vəsait tələb edir [52, 12].

Bu gün Azərbaycanda kitabxanaçılıq təhsili verən orta ixtisas və ali tədris müəssisələrinin hər birində Alabama Universiteti mütəxəssisinin qeyd etdiyi həmin tələblər ödənilməlidir. Bu, ölkəmizdə mədəni-maarifin, elmin, təhsilin, informasiya təminatının ödənilməsi baxımdan yaxşı göstəricilərdən və ürəkaçan vəziyyətdən xəbər verə bilər.

Azərbaycanda və digər ölkələrdə kitabxanaçılıq təhsili üzrə sabitləşmiş müəssisələrdə aşağıdakı istisaslar üzrə dərin biliklər vermək əsasdır. Bu, kitabxanaçılıq təhsilinin, informasiyanın qəbulu və ötürülməsinin, həmçinin təminatının inkişafı baxımından son dərəcə vacib və əhəmiyyətlidir.

Buradakı ixtisasların hər birinin öyrənilməsi və dəqiq dərk edilməsi üçün ali kitabxanaçılıq təhsili verən müəssisədə informasi-

ya-kommunikasiya texnologiyalarından bilavasitə istifadə edilməsi labüddür:

1. Kitabxana və informasiya
2. Məktəb və media mütəxxəsisi
3. İnformasiya menecmenti
4. Telekommunikasiya və şəbəkə menecmenti
5. İnformasiya menecmenti üzrə icraçısı
6. İnformasiya texnologiyaları və təşkilatçılıq (Bu ixtisas burada kitabxanaçılıq təhsilinin müasir aspektdən yanaşma baxımdan əsas qayəsini təşkil edir).
7. Kitabxanada kompüterlərin tətbiqi-bu təcrübi əhəmiyyət kəsb edir və daha çox istehsalat xarakterinə və istiqamətinə görə seçilir. Odur ki, bu ixtisas üzrə təhsil alan mütəxəssis son dərəcə informativ biliyə malik olmalıdır.
8. Biznes, cəmiyyət və internet
9. İnformasiya texnologiyasında karyera
10. İnformasiya, texnologiya təşkilatları
11. İnformasiya sistemlərinin sosial aspektləri
12. Elm və internet
13. Şəbəkə texnologiyaları və texnikalar
14. İnformasiya axtarış sistemləri-bu müasir kitabxana işi sahəsində və kitabxanaçılığın təşkilində ən əhəmiyyətli bir sahədir. Hazırda informasiyanın qəbulu, ötürülməsi və emalı bilavasitə informasiya axtarış sistemlərinin köməkliyi ilə həyata keçirilir. Əbəs deyildir ki, bir çox kitabxanaçılıq müəssisələrində şöbə, bölmə, laboratoriya və bəzən də kafedralar "İnformasiya axtarış sistemləri" adlanır. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin kafedralarından biri "Kitabxana resursları və informasiya axtrarış sistemləri" adlanır və tədris prosesində əsas ağırlıq və informativ-kommunikativ vasitələrini tətbiqi məhz bu kafedranın üzərinə düşür.
15. İnformasiyanın saxlanılması və axtarış sistemlərinin yerinə yetirilməsi
16. İnformasiya sistemlərinin arxitekturası-burada qeyd etdiyimiz bir çox texniki, kəmiyyət və keyfiyyət göstəriciləri tələb edən proseslər birləşdirilir. Burada informasiya-axtarış sistemlərinin quruluşu, istismarı və istifadə mərhələləri ilə bağlı ali kitabxanaçılıq təhsili müəssisəsində geniş laborator məşğələlər təşkil edilməli və bilavasitə informasiya-kommunikativ vasitələri sistemləşdirilmiş və detallaşdırılmış şəkildə başqa sözlə desək inteqrasilaşdırılmış və diferensiyalaşdırılmış şəkildə təhlil edilməlidir.
17. Onlayn informasiya sistemləri-burada online şəbəkə texnologiyaları digər texniki online sistemləri, telefon rabitəsi, internet rabitəsi və başqa sistemlərdə on-line xidmətinin həyata keçirilməsi məsələlərindən bəhs edilir.
18. İnformasiyanın istifadəsi və istifadəçiləri-informasiya və kitabxana, kitabxana və informasiya anlayışları böyük sinonimlik və eyniyyət kəsb edən, prof. A.Xələfovun qeyd etdiyi kimi, "bütövtəmın sinonim tərkib hissəsi-ayrılmaz və ayrı hesab edilməz baza ünsürüdür".

Kitabxana informasiya cəmiyyət həyatının, cəmiyyətdə mətn və ya elektron və yaxud vizual əksidir, reallığıdır, görüntüsüdür.

19. Texniki xidmətin funksiyaları
20. Sənədlərin işlənməsi
21. İnformasiya sistemlərinin etnoqrafiyası
22. Müasir mədəniyyət və informasiya sənayesi
23. Elektron nəşr və informasiyanın işlənməsi standartları

Göründüyü kimi, ali kitabxanaçılıq təhsilinin funksiya istiqaməti əhəmiyyətli şəkildə dəyişmiş, müasir elm və təhsil sistemində ən böyük məsuliyyət və texniki, iqtisadi, sosial, siyasi və ədəbi məna çalarlarının özündə ehtiva etməyə məcbur olan bir amilə çevrilmişdir.

18-ci bənddə qeyd olunmuş informasiyanın istifadəsi və istifadəçiləri məsələsi müasir texnologiyalı və sivilizasiyalı cəmiyyət üzvlərinin ixtisası olan, savadından, təhsil dərəcəsindən, sosial və etnik, siyasi və dini mənsubiyyətindən asılı olmayaraq informasiya texnologiyalarının bu sahəyə aid olan heç olmasa ən ilkin, ibtidai forma və tiplərindən xəbərdar olmalıdır. Çünki bu gün alimin də, müəllimin də, həkimin də, əkinçinin də informasiya hər zaman, hər an, hər dəqiqə ehtiyacı var və həmin ehtiyacı ödəmək artıq ənənəvi

formada yox, müasir texnologiyalar, informasiya və kommunikasiya vasitələri ilə həyata keçirilir.

Odur ki, sivilizasiyalı cəmiyyət üzvləri get-gedə qlobal, son dərəcə çətin və mürəkkəb mısələlərlə maraqlanır, bu maraqlar get-gedə artır, yenilənir, daha qlobal xarakter kəsb edir. Həmin məsələlərlə bağlı əhəmiyyətli informasiyaları, yalnızyüksək parametrli informasiya və kommunikasiya vasitələrinin köməkliyi ilə əldə etmək olar. Bunu hər bir kitabxanaçılıq təhsili verən müəssisə mütləq nəzərə almalı, öz iş prosesində onları maksimum tətbiq etməli, informasiya mütəxəssislərinə bu bilikləri və əsas baza məsələlərini öyrətməlidir. Əsas məsələ burada kitabxanaçılıq təhsili verən müəssisənin maddi-texniki bazası və kadr potensialının vəziyyətindən, tələblərin bu işə marağı və diqqətindən asılıdır. Beləliklə, bütün bunlar vahid kompleksdə birləşən cari informasiyalaşdırılmış cəmiyyət yaradır, insanların bilik və maraq dairəsini məşğul edir.

Ali kitabxanaçılıq təhsili prosesində kataloqlaşdırma işində daha çox informativ-kommunikativ vasitələrdən istifadə edilir. Kataloqlaşdırma işində sənəd haqqında əsas məlumatlar qısa və genişləndirilmiş formada təsvir və əksetdirilməlidir.

Milyonlarla sənəd kütləsi haqqında ətraflı məlumat verən, tələbatçılarda onları maraqlandıran sənədin mövcud kitabxanada və ya informasiya bazasında olub-olmaması haqqında məlumat vermək məhz kataloqların üzərinə düşür.

Hazırda ənənəvi və elektron kataloqlardan daha çox istifadə edilir ki, məhz elektron kataloqlaşdırma və bu işdə informasiya texnologiyalarının yeri və rolu ali kitabxanaçılıq təhsili müəssisəsinin yerinə yetirməyə borclu olduğu məsələlərdən biri və bəlkə də ən birincisidir.

Kataloqlaşdırma, komplektləşdirmə, kitab verilişi, inzibatçı, abunə vəs. kimi kitabxana proseslərinin informativ-kommunikativ vasitələrin köməkliyi ilə elektronlaşdırması kitabxanaçı əməyini minimuma endirmiş, kitabxana işinin bütün strukturuna öz təsirini göstərmişdir.



Hazırda milyonlarla sənədin elektron formaya keçirilməsi, eyni zamanda bir üsulla çox asan və rahat mübadiləsini təşkil etmək də məhz informativ-kommunikativ vasitələrlə həyata keçirilir. Bunun üçün AKİS proqramının yaradılması, faks və faks modemlər, elektron poçtvə s. vasitələrlə elektron, informasiyanın mübadiləsi təşkil edilir.

Eyni zamanda, ali kitabxanaçılıq təhsilinin inkişafında mövcud dövlət qərar və sərəncamlarının və həyata keçirilməsi vacib olan hesab olunan informasiya-kommunikasiya texnologiyalarının əsas vasitələrinin də tətbiq olunmasl və nəzəri-praktiki əhəmiyyətinin səmərəsi böyükdür.

Məsələn, ABŞKonqres Kitabxanasında ehtiyac duyulan kommunikativ vasitələrin tətbiqi və buna dövlət dəstəyinin həyata keçirilməsi üçün konqresə və prezidentə müraciət ünvanlanır. Elmə, təhsilin inkişafına və mədəniyyətin tərəqqisinə daim qayğı və diqqətlə yanaşan ABŞ hökuməti müvafiq müraciətdən irəli gələn bütün ehtiyacların yerindəcə həll edilməsinə nail olur. Bu da ölkədə kitabxana quruculuğunun və informasiyalı cəmiyyətin təşkilinə dövlət dəstəyinin əsas sübutudur. Eyni zamanda burada kitabxanaçılıq təhsilinin inkişafına, kitabxanaçı kadrların həyat şəraitinin vəziyyətinə diqqət ayrılır ki, buda örnək götürüləcək amillərdəndir. Bütün bunlar da kitabxanaçılıq təhsilində informasiya-kommunikatisiya texnologiyalarından istifadə olunmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Kitabxanaçılıq təhsili prosesində nəzərə alınmalı olan əsas tərkib hissələrindən biri də elektron informasiya xidmətinin təşkili və tətbiqi məsələsidir. Belə ki, informasiya yeni bir xidmət növü kimi səslənsə də, məzmunca kitabxana xidmətinin davamıdır.

İnformasiya xidməti oxucuların informasiya tələbatına tam cavab verə bilən müasir informasiya texnologiyalarının tətbiqi və ondan istifadə əsasında internet vasitəsilə dünya müstəvisinə çıxan, elektron vasitələrin köməkliyi ilə oxucuların qarşısında böyük informasiya məkanı yaradan bəşəri biliklər xəzinəsi, xəyali-virtual kitabxanaların köməyi ilə informasiyanı oxucuların malına çevirə bilən xidmət növüdür. Müasir şəraitdə informasiya xidməti bir çox oxucu

qrupları ilə işdə ən üstün istiqamət hesab olunur. Bu sahədəki fəaliyyətin həcmi həm kəmiyyət baxımından, həm də ödənilən sorğuların mürəkkəbliyi baxımından daim genişlənir. Məlumatlandırmaq işi informasiya verməyin ən geniş yayılmış formalarından olub, kitabxanaçıdan yüksək peşə biliyi tələb edir. Bu biliklər informasiya və kommunikasiyanın ali peşə ixtisası olmalıdır. Danimarka, Türkiyə və s. kimi ölkələrdə kitabxana xidmətinin təşkili və müasir səviyyədə tədrisi məsələləri ilə məşğul olan müəllimlər yüksək dərəcə və elmi adlara sahib olmalı, nitqi, savadı, natiqlik qabiliyyətinin mükəmməlliyi ilə seçilməlidir.

Ali kitabxanaçılıq təhsili prosesində informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilməsində zəruri olan proseslərdən biri də elektron kitabxanalar, onların yaradılması sahəsidir. Bu, tamamilə yeni, müasir anlayışdır və həm kitabxanaçıdan, həm də kitabxanaçılıq təhsili müəssisəsində çalışan və bu işlə məşğul olan hər bir kəsdən maksimum texniki-informativ bilik tələb edir. Elektron kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinini komputerləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür.

Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Deməli, bütün bu proseslərdə informativ-kommunikativ vasitələrin əhəmiyyəti kitabxanaçılıq təhsilində həm tətbiq edilməli, həm də tələbələrə - gələcək informasioloqlara ətraflı izah olunmalıdır.

Kitabxanaçılıq təhsilinin inkişafında bütün bunlar nəzərə alınarkən hərtərəfli təhlil edilməli, onun nəzəri və praktiki tərəfləri, inkişaf qanunauyğunluqları və çatışmazlıqları aşkara çıxarılmalıdır. Elə kitabxanaçılıq təhsilinin inkişafında elektron kitabxanaların təcrübi əhəmiyyəti də bu aspektdə böyük məna kəsb edir.

Kitabxanaçılıq təhsili və informasiya-kommunikasiya vasitələri sistemindən bəhs edərkən müasir kitabxana işində və informasiya tələbatının təmin edilməsində həlledici rollardan birini verilənlər bazaları oynayır. Çünki verilənlər bazaları müasir texnologiyanın ixtirası, kitabxana işi sahəsində əhəmiyyətli kəşflərdən biridir. Onların hərtərəfli mənimsənilməsi və təhsil prosesində tədrisi son dərəcə vacibdir, çünki gələcəyin kitabxanaşünas-informasioloqu mütləq verilənlər bazaları ilə işləyəcək və istehsalatda bununla qarşılaşacaqdır.

Eyni zamanda, kitabxanaçılıq təhsilinin inkişafında təsnifatlaşmanın kompüterləşdirilməsi işini həyata keçirməyin vacibliyini də vurğulamaq lazımdır. Lakin çox təəssüf ki, hələ bu iş ürəkaçan vəziyyətdə informativ və kommunikativ vasitələrin köməyi ilə elektronlaşdırılmamış, yalnız mətn tipli və ayrı-ayrı cildlərlə mövcud olaraq istifadəsi xeyli çətinləşir. Çox yerinə düşər ki, beynəlxalq kitabxana təsnifatları (UOT, OT, Ranqanatan, ABŞ Konqres Kitabxanasının təsnifatı, Beynəlxalq İxtira Təsnifatı və s.) kompüterin müvafiq proqram təminatının köməyi ilə elektron variantda hazırlansın və həm kitabxanaçı, həm ali təhsil müəssisəsinin mütəxəssisi, həm də tələbələr onlardan elektron variantda istifadə edə bilsinlər.

Kitabxanaçılıq fakültələrinin tədris planlarında informatika fənlərinin yerinin çoxaldılması, tətbiqi riyaziyyat və kibernetika mütəxəssisləri ilə birlikdə kitabxana işinin kompüterləşdirilməsi işinə diqqətin artırılması son dərəcə vacibdir. Bu sahədə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin rəhbərliyi və əməkdaşları əhəmiyyətli addımlar atmışlar. Belə ki, fakültənin tədris planında kompüterləşdirmə işi ilə bağlı fənlərə geniş yer verilmiş, Tətbiqi riyaziyyat və kibernetika, həmçinin Mexanika-riyaziyyat fakültələrinin, İnformatika kafedrasının əməkdaşları fakültədə kompüterləşmə işi ilə bağlı məsələlərin həll edilməsinə cəlb edilmişdir. Fakültədə laborator məşğələlər güclü lokal şəbəkəyə malik kompüter laboratoriyasında aparılır və həmin kompüterlərdə bir çox AKİS-lər, xüsusilə də IRBIS AKİS-i yüklənmişdir. Bundan əlavə, kitabxana işinin kompüterləşdirilməsi ilə bağlı dərs vəsaitləri, kitablar nəşr etdirilmişdir. Prof. A.Xələfovun və dos. A.Qurbanovun "Kitabxanaların komputerlədirilməsinin əsasları" adlı dərsliyi fakültədə təhsil alan tələbələrin və dərs deyən müəllimlərin mühüm məlumat mənbəyinə çevrilmişdir. Prof. X.İsmayılovun "Kitabxana-informasiya texnologiyala-

rı" kitabı kitabxana işi və informasiya texnologiyaları aspektində fundamental əhəmiyyət kəsb edən böyük əsərdir.Bundan başqa, görkəmli kitabxanaşünas-informatik Ə.Rüstəmovun, müəllimlərdən E.Məmmədovun, R.Qardaşovun bu sahədəki fəaliyyəti xüsusilə diqqəti cəlb edir.

Əlbəttə, bu sahədəki fəaliyyət daha da genişləndirilməli, kitabxanaçılıq təhsilinin inkişafında kompüter texnologiyalarından istifadə prosesi və tətbiqi məsələlərinə geniş yer verilməlidir.

Kitabxanaçılıq təhsilinin inkişafında informasiya-kommunikasiya texnologiyalarından istifadə məsələsindən bəhs edərkən qeyd olunmalıdır ki, M.F.Axundov adına Milli Kitabxanada VTLS, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında IRBIS-64, BDU-nun Elmi Kitabxanasında IRBIS-64 AKİS-i və onların müvafiq avtomatlaşdırılmış işçi yerlərindən (AİY) istifadə olunur, yəni kitabxana prosesləri həyata keçirilir. Həmin proseslərin həyata keçirilməsi üsullarının kitabxanaçılıq təhsili prosesində tədrisi daha da genişləndirilməlidir [106].

Beləliklə, kitabxanaçılıq təhsilinin inkişafında informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması məsələsinin araşdırılmasında əsas məqsəd kitabxana işinin ən müasir səviyyədə təşkili, yeni dövrün ən qabaqcıl texnologiyalarına uyğunlaşdırılması, mədəniyyətin inkişafının ümumi məzmununda kitabxana işinin inkişafının yerinin müəyyənləşdirilməsindən ibarətdir. Şübhəsiz ki, bu da yeni-yeni texnologiyalardan, informativ-kommunikativ vasitələrdən istufadə olunmasını labüd edir. Burada ilk növbədə təhsil amili dayanır, çünki hər bir işin, sahənin inkişafı, gələcəyi həmin sahəyə aid qurulan və verilən təhsildən asılıdır. Həmin təhsil də isə mükəmməl olmalı və dövrün tələblərinə cavab verməlidir. Kitabxanaçılıq təhsili də həmin müddəalara uyğun qurulmalı, müasir şəraitdə üzərinə düşən bütün öhdəlikləri yerinə yetirməlidir.



# Nəticə

Beləliklə, bu monoqrafiyada tədqiqata cəlb edilən"Azərbaycanda kitabxanaçılıq təhsilinin yaranması və inkişafı" mövzusunu yekunlaşdırarkən apardığımız tədqiqatın nəticələrini belə ümumiləşdirə bilərik:

Mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanalar yarandığı dövrdən zəmanəmizə qədər cəmiyyət qarşısında öz vəzifələrini şərəflə yerinə yetirmiş, bəşəriyyətin işıqlı gələcəyinə xidmət etmişlər. Cəmiyyətdə zaman-zaman kitabxanaların sosial rolu artaraq onların strukturunun və əsas elementlərinin öyrənilməsinə ciddi tələbat əmələ gəlmişdir. Dünya kitabxanaları ginetik təhlil metoduna əsaslanaraq belə bir nəticəyə gəlmişlər ki, kitabxanalar quruluşca bir-birilə əlaqədar olan, bir-birinə qarşılıqlı təsir edən, biri digəri üçün şərt olan, biri-birindən ayrılmaz olan 4 elementdən ibarətdir: Sənəd (kitab və digər nəşrlər, o cümlədən elektron vasitələr); Oxucu (istifadəsi); Kitabxanaçı; Maddi-texniki baza. Bu modeldən göründüyü kimi, kitabxananın normal fəaliyyətini və bütövlüyünü təmin edən əsas və mühüm elementlərdən biri də kitabxanaçıdır.

Məlumdur ki, cəmiyyətdə vacib sosial funksiyaları həyata keçirən kitabxanalar ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni vəzifələrin həllində, dövlətin və xalqın inkişafı ilə bağlı mühüm ideyaların əhali arasında yayılmasında fəal iştirak etməli, böyük təbliğatçılıq, təşviqatçılıq və təşkilatçılıq işi aparmalıdırlar. Prof. A.Xələfovun qeyd etdiyi kimi, kitabxana işi dövrlə, zamanla ayaqlaşmalı, həmişə canlı, rəngarəng və dinamik olmalıdır. Aydındır ki, bu mühüm vəzifələrin məqsədyönlü həlli yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması məsələsi ilə sıx şəkildə bağlıdır.

Ümumiyyətlə, kitabxanaçı peşəsi cəmiyyətin formalaşmasının erkən dövründə yaranmış, bəşəri fikrin inkişafına şərəflə xidmət etmiş ən qədim peşələrdən biridir. Zaman keçdikcə kitabxana işini idarə edən insanlar içərisindən peşəkar kitabxanaçılar yetişməyə başlamışdır. Kitabxanaların fəaliyyət göstərdiyi bütün dövrlərdə ki-

tabxanaçılar kitabxana işinin mühüm funksiyalarını yerinə yetirmiş, bununla da bütün kitabxana prosesləri peşəkar kitabxanaçıların fəaliyyəti üzərində qurulmuşdur. Onu da qeyd edək ki, bu fundamental funksiyaları yerinə yetirən insanlar bəşərin lap qədim çağlarından dövrün ən görkəmli elm, mədəniyyət, maarif xadimləri, şairlər, yazıçılar, yüksək səviyyəli ziyalılar olmuşlar. Tarixi inkişafın sonrakı mərhələlərində kitabxana işinin inkişafı onun yeni taktika və strategiyalarla, bəşəri yeniliklərlə sıx inteqrasiyası, ümumilikdə kitabxanaşünaslıq elminin yaranması və inkişafı, kitabxanaşünasların yeni-yeni nəzəriyyə və metodlarla zənginləşməsi artıq sırf ixtisaslı, bilavasitə kitabxanaçılıq təhsili almış kadrlarla kitabxanaların təchiz edilməsini ümdə zərurət kimi ortaya qoymuşdur. Müəyyən vaxtlarda ayrı-ayrı ölkələrdə, o cümlədən Azərbaycanda ilk kitabxanaçılıq bilikləri verən kurslar, məktəblər, orta ixtisas təhsil müəssisələri fəaliyyətə başladı. Bütün bunlar peşəkar ixtisaslı kadrların yetişdirilməsi üçün son dərəcə böyük əhəmiyyət kəsb etdi və bu işin sonrakı pilləsi ali kitabxanaçılıq təhsilinin yaranması və inkişafına doğru gedən yolda böyük elmi nəzəri və təşkilati-metodiki təcrübə yaratdı. Beləliklə, ali kitabxanaçılıq təhsilinin əsası qoyuldu və bununla da bütün dünyada kitabxanaların, kitabxana işinin yeni bir erası başlanıldı. Bu eranın başlanmasında dünyanın bütün ölkələrinin, o cümlədən Azərbaycanın da mühüm özünəməxsus yeri və rolu vardır. Qeyd etmək lazımdır ki, bir çox ölkələrdə bütüövlükdə kitabxanaçılıq təhsilinin yaranması və inkişafının işlənilməsi, bu sahədə fundamental tədqiqatların aparılması, dissertasiya işlərinin yazılması xüsusilə diqqət mərkəzindədir.

Azərbaycanda sovet hakimiyyəti illərində bu sahədə bir sıra nailiyyətlər qazanılmış, elm, texnika, xalq təsərrüfatı və mədəniyyətin bütün sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəblərinin geniş sistemi yaradılmışdır. Bu sistem böyük tarixi inkişaf yolu keçmiş, getdikcə təkmilləşmiş və dünyada mütərəqqi sistemlərdən birinə çevrilmişdir.

Azərbaycanda ali və orta ixtisaslı peşəkar kitabxanaçı kadrların hazırlanması sahəsində zəngin təcrübə qazanılmışdır. Sovet hakimiyyəti illərində kitabxanaçılıq təhsili sisteminin yaradılması sözün həqiqi mənasında mədəni quruculuq sahəsində əldə edilmiş ən əhəmiyyətli uğurlardan sayıla bilər.

Azərbaycanda kitabxanaçı kadrların hazırlanması prosesi ilk kitabxanaçılıq kurslarından universitet təhsilinə qədər uzun yol keçmişdir. Hazırda ölkəmizin 1 universitet və 2 orta ixtisas məktəbində kitabxanaşünas-biblioqraf kadrlar hazırlanır.

Hələ sovet hakimiyyətinin ilk illərindən mədəni quruculuğun mühüm sahəsi olan kitabxana işinin inkişafına, yeni kitabxanalar yaradılmasına xüsusi diqqət yetirilmişdir. İlk dövlət dekretləri ilə bütün kitabxanalar milliləşdirilmiş və yeni kitabxanaların təşkili üçün müəyyən tədbirlər həyata keçirilməyə başlanmışdı. Həmin tədbirlər nəticəsində cəmi bir neçə ay müddətində Azərbaycanda 234 min 210 nüsxə kitab fonduna malik olan 45 kitabxana təşkil edilmişdi. 1925-ci ildə isə respublikamızda 584 min 177 nüsxə kitab fonduna malik olan 91 kitabxana fəaliyyət göstərirdi. 1921-1925-ci illərdə kitabların sayı əvvəlki dövrlə müqayisədə 6 dəfə, kitabxanaların miqdarı isə 10 dəfə artmışdı. Sonrakı illərdə şəhər, qəza və rayon mərkəzləri ilə yanaşı olaraq, kiçik yaşayış məntəqələrində və kənd yerlərində də kitabxanalar təşkil edilməyə başlamışdı.

Kitabxanaçı kadrların hazırlanması siyasi və mədəni əhəmiyyətə malik bir vəzifə olduğundan Azərbaycan SSR Maarif Komissarlığının hazırladığı tədbirlər planında dövlət işçilərinin, tanınmış ziyalıların, təcrübəli müəllimlərin kitabxana işinə cəlb edilməsinə xüsusi diqqət yetirilirdi.

1920-1930-cu illərdə Azərbaycanda kitabxanaçı kadrlar yalnız vaxtaşırı təşkil edilən biraylıq, üçaylıq, bəzən isə altıaylıq kurslarda hazırlanırdı. Azərbaycanda ilk kitabxanaçılıq kursları 1920-ci ildən təşkil edilməyə başlamışdı. Kitabxana quruculuğu bünövrəsinin qoyulmasında və möhkəmləndirilməsində yaxından iştirak etmiş ilk mütəxəssis kitabxanaçılar məhz bu kursların yetişdirmələri idilər.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı məktəbdənkənar işlər şöbəsinin kitabxana yarımşöbəsi 1920-ci ilin avqust-sentyabr aylarında XI Ordunun siyasi şöbəsi ilə birlikdə 90 nəfərlik kitabxa-

naçı kursu təşkil etmişdi. Kursu qurtaranlardan 60 nəfəri Maarif Komissarlığından, 15 nəfəri XI Ordudan, 15 nəfəri isə Azərbaycan Ordusundan idi.

İlk vaxtlar kitabxanaçılıq kurslarını Azərbaycan SSR Xalq Maarif Komissarlığı, Bakı Şəhər Xalq Maarif Şöbəsi, Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası, M.F.Axundov adına Respublika Dövlət Kitabxanası, bəzi hallarda isə kitabxana şəbəkəsi olan nazirliklər təşkil edirdilər. Bu cür kurslar əvvəllər əsasən Bakı şəhərində təşkil edilirdi. 30-cu illərin axırlarından isə respublikanın bir sıra böyük şəhərlərində, rayon mərkəzlərində, Naxçıvanda və Dağlıq Qarabağda da kitabxana-çılıq kurslarının təşkilinə başlanılmışdı.

Azərbaycan üçün orta və ali təhsilli kitabxanaçı kadrların hazırlanması məqsədi ilə Xalq Maarif Komisarlığı 1936-cı ildən başlayaraq Moskva Kitabxanaçılıq Institutuna və Leninqrad Siyasi Maarif İnstitutuna tələbələr göndərirdi.

Əlbəttə, Azərbaycanda kitabxanaların, o cümlədən elmi və xüsusi kitabxanalar şəbəkəsinin sürətlə genişlənməsi, on minlərlə cild kitab fondlarına malik olan böyük kitabxanaların meydana gəlməsi, kitabxana işi prosesinin getdikcə mürəkkəbləşməsi, əhalinin ümummədəni səviyyəsinin yüksəlməsi, oxucuların sayının durmadan artması mütəxəssis kitabxanaçı kadrlara olan tələbatı daha da artırırdı. Ona görə də Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1938-1939-cu tədris ilindən Bakı Kitabxanaçılıq Texnikumunun (indiki Bakı Humanitar Kolleci) fəaliyyətə başlaması kitabxanaların ixtisaslı kadrlarla təmin edilməsinə imkan yaradırdı. Bununla belə, kitabxana işinin geniş vüsət alması, respublikanın elmi və mədəni həyatında kitabxanaların rolunun artması, xalq içərisində mütaliəyə marağın çoxalması əhaliyə günün tələbləri səviyyəsində kitabxana xidmətini təşkil edə biləcək yüksək ixtisaslı mütəxəssis kitabxanaçılar hazırlanmasını tələb edirdi.

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1947-ci ildə «Respublika mədəni-maarif müəssisələri üçün kadr hazırlamaq haqqında» xüsusi qərar qəbul etdi. Bu dövlət sənədində 1947-48-ci tədris ilində Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi qərara alınmışdı. Beləliklə, 1947-48-ci tədris ilində universitetin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsi fəaliyyətə başladı və birinci il şöbəyə 16 tələbə – 5 oğlan və 11 qız qəbul edildi. Bu şöbənin təşkili respublikamızın mədəni həyatında mühüm əhəmiyyətə malik idi. Belə ki, şöbənin açılması mədəniyyətin mühüm tərkib hissəsi olan kitabxanaların yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edilməsi üçün əsaslı zəmin yaradır, kitabxana işinin inkişafına təkan verirdi. Şöbənin məhz universitetdə açılması isə tədris prosesinin uğurlu təşkilinə səbəb olmaqla yanaşı, kitabxanaçılıq ixtisasının, kitabxanaçılıq sənətinin perspektiv inkişafına da şərait yaradırdı. Belə ki, yalnız hərtərəfli elmi-pedaqoji kadrlara malik olan universitet mühitində kitabxanaşünaslıq-biblioqrafiya ixtisasının xüsusiyyətlərinə uyğun olaraq müxtəlif fənlərin tədrisini təşkil etmək imkanı var idi.

Belə bir fakt da əlamətdardır ki, SSRİ-də ilk universitet kitabxanaçılıq təhsili məhz Azərbaycan Dövlət Universitetində təşkil edilmişdir. Təcrübə göstərir ki, kitabxanaçı kadrların mədəniyyət institutlarında və pedaqoji institutlarda deyil, universitetdə hazırlanmasının olduqca böyük üstünlükləri vardır. Beşillik tədris planı ilə işləyən universitetlərdə kadr hazırlığının keyfiyyətini yüksəltmək, əsaslı və ictimai elmlərə dərindən yiyələnmiş geniş profilli kadrlar hazırlamaq üçün şərait olduqca əlverişlidir.

1947-1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsinin yaranmasında Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin, o sırada 1944-1950-ci illərdə bu ali təhsil ocağının rektoru olan görkəmli fizioloq alim, Azərbaycan Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Abdulla Qarayevin, 1945-ci ildən respublika Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri vəzifəsində işləyən görkəmli yazıçımız Süleyman Rəhimovun mühüm rolu olmuşdur.

Respublikamızda ali təhsilli kitabxanaçı kadrlara olan böyük tələbat nəzərə alınaraq 1955-ci ildə Kitabxanaçılıq şöbəsinin qiyabi Azərbaycan bölməsi təşkil olundu və birinci il həmin bölməyə 12 tələbə (2 oğlan, 10 qız) qəbul edildi. Beləliklə, zəngin iş təcrübəsinə malik olan kitabxanaçılar istehsalatdan ayrılmadanali ixtisas təhsili almaq imkanı qazandılar.

1959-cu ildə isə qiyabi Kitabxanaçılıq şöbəsinin rus bölməsi yaradıldı və ilk dəfə buraya 16 tələbə (1 oğlan, 15 qız) qəbul edildi. Zaqafqaziyada yeganə olan bu bölmədə Gürcüstan, Ermənistan və Dağıstandan gələn gənclər də yüksək kitabxanaçı-biblioqraf ixtisasının sirlərinə yiyələnməyə başladılar.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ilədək Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərdi. Müharibədən sonrakı illərdə bu fakültənin yanında Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, şərq dilləri və ədəbiyyatı, incəsənət, məntiq-psixologiya, jurnalistika və kitabxanaçılıq şöbələri vardı. Burada məşhur alimlərimizdən Əli Sultanlı, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Hadi Mirzəzadə, Cəfər Cəfərov, Əliheydər Qəhrəmanov, Bəxtiyar Vahabzadə, Pənah Xəlilov, Mehdi-xan Vəkilov, Abbas Zamanov və başqaları dərs deyirdilər.

Yüksək ixtisasa, zəngin mənəviyyata malik olan həmin alovlu vətənpərvərlər, görkəmli şəxsiyyətlər fəkültədə təmiz, saf tədris, elmi və ictimai mühit yaratmışdılar. Bu da kadr hazırlığına, elmin tərəqqisi prosesinə böyük təkan verir, tələbə gənclərin yoluna işıq salır, onların savadlı mütəxəssis, əsl vətəndaş, parlaq ziyalı kimi yetişməsi üçün təminat yaradırdı. Filologiya fakültəsi Kitabxanaçılıq şöbəsinin gələcək inkişafı, yüksək ixtisaslı kadrlar hazırlanması üçün mühüm baza rolunu oynayırdı. Bu fakültə statusu daşısa da, əslində böyük institut səviyyəsində bir müəssisə olan Filologiya fakültəsi Kitabxanaçılıq şöbəsinin gələcək inkişafı, yüksək ixtisaslı kadrlar hazırlanması üçün mühüm baza rolunu oynayırdı.



1958-ci ildə BDU-da ayrıca Şərqşünaslıq fakültəsinin yaranması qərara alınmışdı. Lakin burada təhsil alan tələbələrin sayı az olduğundan rektorluq Kitabxanaçılıq şöbəsini də müvəqqəti olaraq bu fakültənin nəzdinə verməyi qərara almışdı. O vaxt Kitabxanaşünaslıq kafedrasının müəllimləri bu məsələyə narazılıqlarını bildirsələr də, onların etirazı nəzərə alınmadı və beləliklə, Kitabxanaçılıq şöbəsi 1958-ci ildən 1962-ci ilədək Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi.

Həqiqət naminə demək lazımdır ki, Filologiya fakültəsindən fərqli olaraq Şərqşünaslıq fakültəsinin profili Kitabxanaçılıq şöbəsinin profilinə uyğun gəlmədiyinə görə kitabxanaşünaslıq və biblioqrafiya elmi ilə bağlı olan məsələlər burada lazımi səviyyədə müzakirəyə çıxarıla və həll edilə bilmirdi. Bundan başqa yeni fakültədə əvvəlki ictimai mühit, yaradıcılıq atmosferi, qaynar elmi həyat yox idi.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 22 sentyabr 1959-cu ildə qəbul etdiyi «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarında yüksək ixtisaslı kitabxanaçı kadrların, xüsusilə elmi, elmi-texniki, ali məktəb kitabxanaları üçün mütəxəssis kadrların hazırlanması zəruri hesab edilmişdi. Bu qərara uyğun olaraq yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasının qənaətbəxş olmamasını, universitetin Kitabxanaçılıq şöbəsinə tələbə qəbulunun azlığını nəzərə alan hökumət Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinə mütəxəssis kitabxanaçı kadrların hazırlanmasının yaxşılaşdırılması haqqında tədbir görməyi məsləhət bilmişdi.

Təhsil Komitəsi Bakı Dövlət Universitetində kitabxanaçı kadrların hazırlanması vəziyyətini yoxlayıb müzakirə etmək üçün xüsusi komissiya yaratmışdı. Komissiya universitetin Şərqşünaslıq fakültəsi yanında Kitabxanaçılıq şöbəsinin işini yoxlamış, burada tələbə kontingentinin tərkibini, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının elmi potensialını araşdırmışdı. Yoxlama zamanı məlum olmuşdu ki, son illər kafedraya gənc qüvvələr cəlb olunmuş, respublikamızda ilk dəfə olaraq kitabxana işinin tarixinə dair disser-

tasiya müdafiə edilmiş, kitabxanaşünaslıq üzrə elmlər namizədi yetişmişdir. Kitabxanaçılıq şöbəsinin yetirməsi Abuzər Alı oğlu Xələfov 1962-ci ildə «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1933-cü illər)» mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı. Kitabxanaçılıq şöbəsinin bu göstəricilərini və elmi potensialını nəzərə alan komissiya əyani və qiyabi şöbələri birləşdirib müstəqil fakültə yaradılmasını məqsədəuyğun hesab etmişdi.

Ona görə də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişinə əsasən 1962-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsi həmin il sentyabrın 1-dən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi nəzdindəki Kitabxanaçılıq şöbəsinin əyani və qiyabi bölmələrinin birləşdirilməsi və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradılması haqqında əmr verdi. Həmin əmr əsasında isə Bakı Dövlət Universitetinin rektoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, geologiya-minerologiya elmləri doktoru, professor Şəfaət Mehdiyev 1962-ci ilin sentyabrında əmr imzaladı. Bu əmrə əsasən həmin il oktyabr ayının 1-dən universitetdə ayrıca Kitabxanaçılıq fakültəsi təşkil olunurdu. Kitabxanaçılıq şöbəsinin yetişdirməsi, Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının baş müəllimi, tarix elmləri namizədi Abuzər Alı oğlu Xələfov Kitabxanaçılıq fakültəsinin ilk dekanı vəzifəsinə təyin edildi.

Göründüyü kimi, Kitabxanaçılıq fakültəsinin yaradılmasında və inkişafında akademiklər Abdulla Qarayevin, Şəfaət Mehdiyevin, gənc müəllim Abuzər Xələfovun və başqalarının çox önəmli xidməti olmuşdur. Onlar kitab mədəniyyətinə və kitabxana işinə yüksək qiymət verir, kitabxanaçı kadrların hazırlanmasına respublikamızın mədəni tərəqqinin əsas amillərindən biri kimi baxır, kitabxanaşünaslıq və biblioqrafiyanın inkişaf etdirilməsinə, bu sahədə elmlər namizədləri və elmlər doktorlarının yetişdirilməsinə böyük qayğı göstərirdilər.

Kitabxanaçılıq fakültəsinin sonrakı illərdə əldə etdiyi nailiyyətlər, qəbul planının ilbəil artması, müəllim kadrlarının çoxalması,



elmi elmi kadrlarının səviyyəsinin yüksəldilməsi məhz həmin qayğının təzahürü kimi qiymətləndirilməlidir.

Gənc dekan A.Xələfovun təşəbbüsü ilə 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin axşam şöbəsi yaradıldı. Axşam şöbəsinin təşkili Bakıda və Sumqayıtda yaşayıb işləyən kitabxanaçıların ali təhsil almaları üçün əlverişli şərait yaratdı.

Respublikamızın kitab ticarəti müəssisələrinin yüksək ixtisaslı mütəxəssis kitabşünas-biblioqraf kadrlara olan tələbatı nəzərə alınaraq 1963-cü ildə Kitabxanaçılıq fakültəsinin nəzdində yeni bir şöbə – Kitabşünaslıq və kitab ticarətinin təşkili şöbəsi təşkil edildi.

Belə vacib bir şöbənin yaradılması mədəniyyətimizin mühüm sahələrindən olan kitabşünaslığın inkişafına mühüm töhfə idi. Azərbaycan Nazirlər Sovetinin qərarı ilə 1963-1964-cü tədris ilində kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisası üzrə axşam və qiyabi şöbələrinə, 1968-1969-cu tədris ilindən isə gündüz şöbəsinə tələbə qəbulu başlandı. Respublikamızın görkəmli kitabşünasları və kitab ticarəti mütəxəssislərinin bu vacib işə cəlb edilməsi nəticəsində Kitabxanaçılıq fakültəsinin təcrübəli kollektivi bu sahədə kadr hazırlığının təşkilində mühüm nailiyyətlər qazandı. Təxminən 20 il uğurla fəaliyyət göstərən həmin şöbə, təəssüf ki, Azərittifaqda işləyən, fəqət kitab mədəniyyətindən xəbərsiz olan özündənrazı məmurların laqeydliyi ucbatından bağlandı.

1990-cı illərdə fakültə rəhbərliyi yenidən yuxarı təşkilatlara müraciət edərək, kitabşünaslıq və kitab ticarətinin təşkili ixtisasına böyük tələbat olduğunu əsaslandırmış və bu şöbənin bərpasına çalışdı. Bu məsələnin müsbət həllində Azərbaycan Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin sədri, tanınmış jurnalist Rəşid Mahmudovun xüsusi rolu oldu. Belə ki, məhz onun yaxından köməyi sayəsində respublika hökuməti bu barədə müsbət qərar çıxardı. Beləliklə, həmin şöbənin yenidən bərpa olunması istiqamətində uzun illər ərzində aparılan gərgin mübarizə öz bəhrəsini verdi. Hazırda fakültədə Kitabşünaslıq və nəşriyyat işi kafedrası fəaliyyət göstərir.

Sonrakı illərdə Kitabxanaçılıq fakültəsi təkcə universitetimizdə deyil, habelə respublika və Sovetlər Birliyimiqyasında böyük nüfuz qazanmış, yüksək ixtisaslı milli kitabxanaşünaslıq-biblioqraf kadrların hazırlanması istiqamətində səmərəli iş aparmışdır. Kitabxanaçılıq fakültəsinin yeni tədris planları yaradılmış, kafedra və laboratoriyaların maddi-texniki bazalarının yaxşılaşdırılmış, dərslərin keyfiyyəti yüksəldilmiş, kadrların düzgün seçilib yerləşdirilməsində xüsusi işlər görülmüşdür.

Hələ XX əsrin 70-80-ci illərində Kitabxanaçılıq fakültəsi Sovet İttifaqı miqyasında aparıcı yer tuturdu. Buna görə də SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi ölkədəki ali məktəblərin Kitabxanaçılıq fakültələri üçün tədris proqramlarını hazırlayıb tərtib etməyi məhz Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin rəhbərliyindən xahiş etmişdi. Elə bunun məntiqi nəticəsidir ki, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində beşillik təhsil müddəti üçün nəzərdə tutulan fərdi tədris planı 1984-cü ildə ittifaq nazirliyi tərəfindən təsdiq edilmiş və böyük uğurla həyata keçirilməyə başlamışdı.

Respublikamız müstəqillik əldə etdikdən sonra yeni Təhsil Qanunun qəbul edilməsi ilə əlaqədar olaraq çoxpilləli təhsil sisteminə keçilməsi, təhsil sisteminin bütünlükdə yeniləşməsi və demokratikləşməsi kitabxanaçılıq-informasiya fakültəsinin də yeni tədris planı hazırlaması problemini qarşıda qaymuşdur. Belə ki, yeni təhsil qanununa əsasən ali təhsil bakalavr, magistratura və doktorantura pillələrinə bölünmüşdür. Beləliklə, kitabxanaçılıq-informasiya fakültəsi və bakalavr təhsil sisteminə uyğun olaraq yeni 4 illik tədris planı, magistratura pilləsi üçün isə 2 illik tədris planı hazırlamış, onlar pespublika Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir.

Müstəqillik illərində "Mədəniyyət haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublika Nazirlər Kabinetinin, Mədəniyyət və Turizm Nazirliyinin, Təhsil Nazirliyinin, digər müvafiq dövləttəşkilatlarının



əmr, sərəncam və göstərişlər də bütövlükdə kitabxana işinin, həmçinin kitabxanaçılıq təhsilinin inkişafına mühüm töhfələr vermişdir.

Müstəqillik illərində Kitabxanaçılı-informasiya fakültəsinin əməkdaşları genişelmi fəaliyyət göstərmiş, dərsliklər, dərs vəsaitləri, fənn proqramları, tədris metodik vəsaitlər və s. yazıb nəşr etdirmişlər.Eyni zamanda müstəqillik şəraitində fakültədə tədris olunan fənlərdən edilən dəyişikliklər, tədris planlarının quruluşu və ona daxil edilən yeni sahələr onların informasiya cəmiyyəti şəraitində kitabxanaçılıq təhsilinin tərkibinə qoyulan tələblər uyğunluğu və s. məsələlərə də geniş yer verilmişdir.

Qeyd etmək lazımdır ki, buradahəmçinin informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq fakültənin tədris planlarında informasiya yönümlü fənlərin tədrisinə daha geniş yer verilmiş, informasiya və kitabxanaşünaslığın bir-biri ilə sıx inteqrasiyasıfakültənin elmi və tədris prosesində tam əsası ilə nəzərə alınmışdır. Elə bunun nəticəsidir ki, zamanın diqtəsi ilə fakültənin adı dəyişdirilmiş və Kitabxanaçılıq-informasiya fakültəsi adlandırılmışdır.

Həmçinin tədqiqat dövründə fakültədə "Kitabxanaşünaslıq və biblioqrafiya", "Kitabxanaşünaslıq və informasiya", "Kitabşünaslıq və nəşriyyat işi" elmi-nəzərivə təcrübi-metodik jurnallarının yaradılması, bu nəşrlərin kitabxanaçılıq təhsilinin inkişafına və milli kitabxanaşünaslıq elminin zənginləşməsinə töhfələr verməsi də diqqəti cəlb edən məsələlərdəndir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kitabxanaçılıq təhsilinin, xüsusilə ali kitabxanaçılıq təhsilinin yaranması, formalaşması və inkişafında xalqınızın elm, təhsil və mədəniyyət xadimlərinin xidmətləri, eləcə də qabaqcıl təhsil müəssisələrinin rolu həmişə böyük minnətdarlıq hissi ilə yad edilmiş, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin ölkənin elmi-mədəni təhsili həyatında tutduğu mövqe yüksək qiymətləndirilmişdir. Müstəqillik şəraitində kitabxanaçılıq-informasiya fakültəsinin yubileyləri təntənəli şəkildə qeyd edilmiş, professor-müəllim heyəti və laborant-texniki heyəti mükafatlandırılmışdır.

Kitabxanaçılıq-informasiya fakültəsinin məzunları Azərbaycan dövlətinin elmi, mədəni, təhsil, sosial, siyasi və iqtisadi fəaliyyətində, xalq təsərrüfatının demək olar ki, bütün sahələrində yüksək mövqe tutmuş, böyük uğur qazanmış şəxsiyyətlərdir.

Müasir şəraitdə informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq bütün kitabxana prosesləri asan formalaşdırılmış, o cümlədən, ali kitabxanaçılıq təhsilinin təşkili bilavasitəinformasiya kommunikasiya texnologiyalarının imkanları çərçivəsinə salınmış, informasiya-kommunikasiya texnologiyaları kitabxanaçılıq təhsilinin səmərəli təşkilində əlverişli proqram-texniki inistrumental tətbiqi baza elementinə çıxarılmışdır.

Son illər respublikamızda baş verən dinamik inkişaf təhsil sahəsini də əhatə etmişdir. Buna görə də ölkə qarşısında duran əsas məsələlərdən biri də təhsili dünya səviyyəsinə çatdırmaqdır. Bunun üçün qabaqcıl beynəlxalq təcrübə, davamlı iqtisadi inkişaf əsas şərtdir. Müasirləşmə ilk növbədə qabaqcıl texnologiyalardan və idarəetmə üsullarından, elmi nailiyyətlərə əsaslanan innovasiyalardan istifadə etməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Strategiyada təhsil sisteminin müasir standartlara cavab verməsi üçün 5 strateji istiqamət, genişmiqyaslı tədbirlər nəzərdə tutulur:

1. Səriştəyə əsaslanan şəxsiyyət yönlü təhsil məzmununun yaradılmasına diqqət yetirmək;
2. İnnovativ təlim metodlarını tətbiq edən təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən insan resurslarının müasirləşdirilməsi;
3. Nəticələrə cavabdeh olan şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;
4. Müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması;
5. Respublikamızda dünya standartlarına uyğun və dayanıqlı olan təhsil modelini qurmaq.



Beləliklə, Azərbaycanda kitabxanaçılıq təhsilinin yaranması və inkişafına həsr edilmiş tədqiqatımızın nəticələri yaxın gələcəkdə bu sahənin optimallaşdırılmasına yönəlmiş bir sıra mühüm tədbirlərin və tövsiyələrin həyata keçirilməsini zəruri edir:

– Müasir kitabxana fəaliyyətinin normal inkişafında kitabxanaçının peşə səviyyəsi, ümumi maraqları, dünyagörüşü, elmi bilik, bacarıq və vərdişləri çox böyük əhəmiyyət kəsb edir. Buradan belə bir məntiqi-elmi nəticə çıxır ki, müasir kitabxanaçı ilk növbədə öz ixtisasının sirlərini dərindən bilən kitabxanaşünas alim, eyni zamanda biliklər mühəndisi və güclü sosioloji, psixoloji və pedoqoji fəaliyyətlərə malik əsl kommunikator olmalıdır;

– Məlum olduğu kimi, cəmiyyətin bütün elmi-mədəni, sosial-siyası və ictimai-iqtisadi sferalarında irəliləyiş yalnız həmin sahə üzrə təşkil edilən fasiləsiz təhsil prinsipinin kefiyyətindən və ümumi vəziyyətindən asılıdır. Kitabxanalar mədəniyyətin, iqtisadiyyatın, siyasətin, elmin, bütövlükdə cəmiyyətin mənəvi və intelektual potensialının inkişafına hərtərəfli xidmət göstərən sosial insitutlar olaraq hər zaman kitabxanaçıların fasiləsiz sistemli təhsilə təmin olunmasını tələb edir. Ona görə də respublikada orta ixtisas və ali təhsil müəssisələrində kitabxanaçılıq təhsilinin fasiləsizliyi, mütəşəkkilliyi, dinamikliyi, ardıcıllığı, sistemliliyi daim diqqət mərkəzində saxlanılmalı, sanballı elmi ümumiləşdirmələr aparılmalı və mühüm nəticələr formalaşdırılmalıdır;

– Kitabxanaların mütamadi olaraq yüksək potensiallı və bilikli kadrlarla təmin olunması, kitabxanaçı kadrlara müasir informasiyalaşdırılmış cəmiyyətin tələblərinə üyğun olaraq bilik və bacarıqların çatdırılması mexanizmi, kitabxanaçı kadrlara yeni peşəkar bacarıqların aşılanması məsələsi daim nəzarətdə saxlanılmalıdır;

– Ölkədə kitabxana işinin maddi-texniki bazasının yeni kitabxana texnologiyaları ilə daha da möhkəmləndirilməsi və s. kimi mühüm məsələlər dövlətin diqqət mərkəzində olmalıdır;

– Son illər Mədəniyyət və Turizm Nazirliyi, ayrı-ayrı metodik mərkəzlər, ictimai birliklər, bir sıra xarici təşkilatlar, o cümlədən ABŞ səfirliyi, Avrasiya fondu, Soros fondu və s. təşkilatlar tərəfin-

dən həyata keçirilən tədbirlərə baxmayaraq kitabxana işçilərinin fasiləsiz təhsili sistemli xarakter almamışdır. Ona görə də bu istiqamətdə işlər daha da sürətləndirilməlidir;

– Respublikamızda kitabxanaçılıq təhsilinin fasiləsizliyinə təcrübi köməklik və metodik yardımlar göstərən müəssisələrin, o cümlədən iri elmi sahəvi və xüsusi kitabxanalarm fəaliyyəti ardıcıl olaraq izlənilməli, onlarla qarşılıqlı əməkdaşlıq inkişaf etdirilməlidir;

– Dünyanın qabaqcıl ölkələrinin kitabxanaçılıq təhsili müəssisələrinin iş təcrübəsinin araşdırılması və hərtərəfli müqayisələr aparılması, ən yaxşı təcrübənin Azərbaycanda tətbiq edilməsi məqsədilə konkret əməli tədbirlər görülməlidir;

– Respublikamızda kitabxana işi sahəsində fəaliyyət göstərən müvafiq dövlət və qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların, assosiasiyaların ümumi fəaliyyətində kitabxanaçılıq təhsilinin inkişafına kömək məsələsi diqqətdə saxlanılmalıdır;

– Respublikada kitabxanaçılıq təhsilinin elmi-metodik təminatı istiqamətindəaparılan işlər daha da gücləndirilməli və bu sahədə qəbul olunmuş sənədlərin həyata keçirilməsi baxımından konkret işlər görülməldir;

– Müsrəqillik illərində kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin, kitabxanaçılıq təcrübəsinin rolu dərindən öyrənilməlidir;

– Kitabxanaçılıq təhsilinin inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə əlaqədar treninqlər keçirilməli, bu sahəyə dövlət və qeyri-dövlət təşkilatlarının maliyyə yardımı ayırmalarına nail olunmalıdır;

– Kitabxanaçılıq təhsilinin yaranması və inkişafı mərhələləri bir daha təsdiqləyir ki, kitabxanaçılıq təhsilinin məzmunu və ona verilən tələblər müasir dövrün tələblərinə dah sürətlə və daha operastiv şəkildə uyğunlaşdırılmalıdır;

– Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyasının strateji istiqamətləri çərçivəsində kitabxanaçılıq təhsilinin yaxın 10-15 il ərzində inkişafının mühüm istiqamətləri müəyyənləşdirililməlidir. Bu iş Respublika Təhsil Nazirliyi, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi, Mədəniyyət və Turizm Nazirliyi və müvafiq təşkilatlar tərəfindən həyata keçirilməlidir;



– Yaxın onillik ərzində ölkə kitabxanaları şəbəkəsinin kadr potensialının möhkəmləndirilməsi, hazırlanan kadrların müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəsini mənimsətmək məqsədilə xüsusi təhsil və təlim proqramları hazırlanıb həyata keçirilməlidir. Proqramların hazırlanması və həyata keçirilməsi Respublika Təhsil Nazirliyinin rəhbərliyi ilə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, eləcə də Mədəniyyət və Turizm Nazirliyinin nəzdindəki mədəniyyət işçilərinin ixtisasartırma kursu tərəfindən təmin edilməlidir. Bu məqsədlə Bakıda və respublikanın ayrı-ayrı regionlarında kurslar, seminar və treninqlər, praktikumlar təşkil edilməli, bu işə respublika və xarici ölkələrin aparıcı mütəxəssisləri cəlb edilməlidir. Həmin tədbirlərin müəyyənləşdirilməsi üçün dövlət təşkilatları ilə yanaşı bir sıra xarici donor təşkilatlarından maliyyə dəstəyi təşkil edilməli, məqsədli qrant layihələri hazırlanıb həyata keçirilməlidir.

Qeyd etdiyimiz təklif və tövsiyələrin həyata keçirilməsi Azərbaycanda kitabxanaçılıq təhsilinin optimallaşdırılmasını təmin edər, müasir dövrdə yeniləşən Azərbaycanda bu mühüm sahənin daha səmərəli inkişafı üçün əsaslı zəmin yaradar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


a) **Azərbaycan dilində**

1. Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il) / Azərbaycan Respublikasının Qanunlar Külliyyatı: II kitab. Bakı: Qanun, 2001, s.320-359.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu // "Xalq qəzeti", Bakı, 1992, 30 dekabr.
3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəz., 1998, 23 iyun.
4. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// "Azərbaycan" qəzeti, 1999,14 mart.
5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti, 1998, 18 aprel.
6. Azərbaycanda Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Pespublika" qəz., Bakı, 2008,7 oktyabr.
7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı // "Azərbaycan" qəz., 1995, 6 iyun.
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxana Direktorlarının Konfransı və "Avrasiya Kitabxanalar Assambleyası" Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubu: 17 noyabr2008-ci il // "Xalq qəzeti", 2008, 18 noyabr.
9. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., Bakı, 2007,21 aprel.
10. Azərbaycan təhsili XXI əsrin astanasında: Azərbaycan Respublikası Təhsil Nazirilyinin sifarişi ilə çap olunmuşdur / Tərt. İd: R.Ağamalıyev, red.: Ə.Quliyev; Azərbaycan Respublikası Təhsil Nazirilyi. Bakı: Çaşıoğlu, 1998, 32 s.
11. Abbasov A və b. İnformatika, telekomunikasiya, radioelektronika üzrə terminoloji lügət. Bakı, 2004, 295 s.
12. Aslan K. Elm və təhsil fədaisi: Monoqrafiya (Əməkdar elm xadimi, professor A.Xələfovun həyat və fəaliyyətinə həsr edilir). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 240 s.
13. Aslan K. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005, 300 s.





14. Aslan K. Kitab mədəniyyətimizin ağsaqqalı: Elm və mədəniyyət xadimlərimiz (Professor A.Xələfovun həyat və fəaliyyəti haqqında) // Kitabxanaşünaslıq və biblioqrafiya, 1997, №1, s.55-65.
15. Aslan K. Oxucuların bədii-estetik tərbiyəsi prosesində kitabxanaların rolu // Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya ser., Bakı, 2002, №2, s.57-75.
16. Aslan K.Azərbaycanda kitabxanaşünaslıq elminin formalaşmasında və ali kitabxanaçılıq təhsilinin inkişafında professor Abuzər Xələfovun tarixi missiyası: Məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, 2012, №3 (9), s.35-49.
17. Aslan K., Qurbanov A.Kitabxanaçılıq-informasiya fakültəsi – 65 // Kitabxanaşünaslıq və informasiya, 2012, №3 (9), s.12-34.
18. Cəbrayılov F. Mədəniyyətə xidmət edən təhsil ocağı. Bakı, "Vətən" nəşriyyatı, 2005. – 223 s.
19. Əliyev Z.Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik. Bakı, 2007, 185 s.
20. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. Bakı, 2001, 143 s.
21. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, Maarif, 1970, 255 s.
22. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920): Dərs vəsaiti. B.: ADU nəşriyyatı, 1986, 51 s.
23. Xələfov A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932). B., 1960, 188 s.
24. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958). B.: Azərnəşr, 1974, 244 s.
25. Xələfov A.Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə. H.1.). B.: Bakı Universiteti Nəşriyyatı,2004, 326s.
26. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə. H.2.). B.: Bakı Universiteti Nəşriyyatı, 2007, 552 s.
27. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B.: Azərnəşr, 2006, 312 s.
28. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə. H.1: Kitabxanaşünaslığın nəzəri əsasları; H.2: Kitabxana işi haqqında təlim). B.: Bakı Universiteti Nəşriyyatı, 2001, 400 s.
29. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə. H.3: Kitabxana işi haqqında təlim). B.: Bakı Universiteti Nəşriyyatı, 2003, 314 s.
30. Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar).B., 2006, 106 s.
31. Xələfov A Azərbaycanda kitabxanaçılıq təhsilinin inkşafı. Bakı: Maarif, 1987,130 s.
32. Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998, 124 s.

33. Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı. B.: Azərnəşr, 1986, 362 s.
34. Xəlilov A. Azərbaycanda dərslikvə dərs vəsaitlərinin nəşri// Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya, 1972, №1.
35. Xəlilov S. Təhsil, təlim, tərbiyə: Monoqrafiya. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2005, 648 s.
36. İsmayılov X. Azərbaycan Respublikasmda kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. B., 2000, 440 s.
37. İsmayılov X. Kitabxana menecmentinin əsaslari: dərs vəsaiti. Bakı, 2005, 199 s.
38. İsmayilov X. Kitabxana İnformasiya texnologiyaları. Bakı: Nurlar, 2009, 311 s.
39. İsmayilov X. Kitabxanaşünaslıq texnoloji biliyin təkamülü kimi // Kitabxanaşünaslıq və biblioqrafiya, 2009, № (2) 25, 172 s.
40. İsmayılov N. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: (biblioqrafik vəsaitlərin göstəricisi). – Bakı: Mütərcim, 2003. – 112 s.
41. Kazımov N. Ali məktəb pedaqogikası: Yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşri.Bakı: Əlfərül,2006, 391 s.
42. Kazımov N. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı, 1983, 112 s.
43. Kitabxanaçılıq-informasiya fakültəsi – 60: Biblioqrafik məlumat kitabı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 274 s.
44. Kitabxanaçılıq-informasiya fakültəsi: Biobiblioqrafik lüğət. Bakı: Mütərcim, 2012, 220 s.
45. Quliyev T. Azərbaycanda kitabxanaçılıq işi (Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında). II hissə. Bakı. "Vətən" 2004, 230 səh.
46. Mənalı ömür yolu (Prof.A.A.Xələfovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr edilir) / Tərt. ed.: K.Aslan, M.Bağırov.Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 230 s.
47. Mərdanov M. Azərbaycan təhsili inkişaf yollarında: uğurlar, problemlər, vəzifələr// Azərbaycan məktəbi, 2004, №4, s.12-39.
48. Müdriklik və alimlik zirvəsində: Məqalələr məcmuəsi(Prof. A.Xələfov – 75) / Tərt. ed.: R.Kazımov, K.Aslan. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 160 s.
49. Mükərrəmoğlu M. Şuşa Humanitar Kolleci öz ənənələrini yaşadır // "Xalq" qəz., 2011, 27 yanvar.
50. Nəcəfov Ə. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixindən (1923-1990-cı illər). Bakı: "Səda", 2000. – 234 s.



51. Professor Abuzər Xələfov – 70. ("Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi-metodik jurnalının xüsusi buraxılışı) / Tərt. ed.: K.Aslan. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, № 1, 148 s.
52. Rüstəmov Ə., Mustafayeva N. Avtomatlaşdirilmiş kitabxana-informasiya sistemləri və şəbəkələri, Bakı, 2007, 235 s.
53. Rzayev S. Kitabxana xidməti. Dərslik. Bakı: "Bakı Universiteti" Nəşriyyatı, 2009. – 337 s.
54. Təhsil sahəsinədiqqət və qayğı artırılmalıdır: Azərbaycan prezidenti Heydər Əliyevin təhsil işçilərinin bir qrupu ilə görüşü// "Azərbaycan" qəzeti, 1995, 14 fevral.
55. Verdiyeva X.T. Pedaqoji elmlərin biblioqrafik informasiya təminatında biblioqrafik vəsaitlərin rolu // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal, 2000, №2, s.124-131.

b) **Rus dilində**

1. Борисова О. О. Болонская модель на российской почве // Мир библиографии, 2012, №3, с.7-10.
2. Буслаева Ю.В. Начало библиотечного образования в России (XIX - 30-е годы XX века) // Библиотековедение, 2010, № 2, с.118-121
3. Валиуллина Н.Р. Библиотека: найм персонала: науч.-практ. пособие /Н.Р.Валиуллина. М.: Либерея-Бибинформ, 2010, 127с.
4. Ванеев А.Н. От книжно-библиотечной комиссии Института внешкольного образования до кафедры библиотековедения и теории чтения СПбГУКИ (1918-2008): исторический очерк / А. Н. Ванеев; С.-Петерб. гос. ун-т культуры и искусств. - СПб., 2009, 112 с.
5. Высшие библиотечные курсы: учеб.-метод. материалы/ Гос. публич. науч.-техн. б-ка Сиб. отд-ния РАН; сост.: Е.Б. Артемьева. Новосибирск: ГПНТБ СО РАН, 2003, 122 с.
6. Глазков М. Н. Некоторые стержневые направления отечественной библиотечной политики 1930-х гг. // Вестн. Моск. гос. ун-та культуры и искусств, 2006, №2, с.126-131.
7. Головко С.И. Специалист: образование, компетентность, новаторство: науч.-практ. пособие/ С.И. Головко. М.: Либерея-Бибинформ, 2005, 144 с.
8. Гранкина И.И. Средняя библиотечная школа в годы Великой Отечественной войны // Науч. и техн. б-ки, 2011, № 5, с. 74-83
9. Гречкина Ж.В. Подготовка специалистов библиотечно-информационной деятельности в Ставропольском государственном университете // Библиотековедение, 2011, №2, с.122-125.
10. Гришина С.М. Непрерывное профессиональное образование в условиях ЦБС : практ. пособие / С.М. Гришина. М.: Литера, 2010. 154 с.

11. Гугля Л. Как научить студента: [к вопр. овладения информ. культурой]//Библиотека, 2000, №3, с.53-54.
12. Дударева Е. "Искусство убеждать, доказывать и верить..." Из истории создания Высших библиотечных курсов // Библ. Дело, 2010, № 20. с.12-14
13. Еременко Т.В. Метод «кейс-стади» в повышении квалификации библиотекарей// Науч. и техн. б-ки, 2004, №12, с.19-31.
14. Еременко Т.В. Университетские библиотеки США и пропаганда информационной грамотности // Библиография, 2003, № 1, с.118-125.
15. Жеравина О. В классическом – по-классически. Университетское образование специалистов // Библиополе, 2010, №1, с.10-11.
16. Забелина О.Б. Формирование информационной культуры студентов университета// Науч. и техн. б-ки, 2004, №8, с.45-47.
17. Загуменная В.В. Высшее библиотечное образование в информационном обществе [Электронный ресурс] // Крым: междунар. науч.-практ. конф. Судак, 1998.
18. Зелов Н.С. Исследование высшего библиотечно-информационного образования в России // Библиография, 2010, №2, с.113-115.
19. Земскова А.И. Об организации дистанционного обучения на базе практического опыта, методических наработок и технологий ГПНТБ России// Там же. 2005, №2, с.44-49.
20. Иванова Г.А. Высшее библиотечно-информационное образование: поиск эффективных решений по подготовке кадров // Библ. дело - XXI век. - М., 2011, №2(22), с.249-262.
21. Каратыгина Т.Ф. Формирование межкультурной толерантности студентов - будущих специалистов в сфере библиотечно-информационного обслуживания//Науч. и техн. б-ки, 2012, №10, с.16-21.
22. Кинг Э. Как пользоваться библиотекой: практ. рук. для учащихся и студентов / Э. Кинг. Челябинск: Урал, 1997, 155 с.
23. Клапиюк В.Т. Начальный период Московского государственного университета культуры и искусств: методология установления // Вестн. Моск. гос. ун-та культуры и искусств. 2008, №2, с.134-139.
24. Клюев В. Магистр – после бакалавра. Уровни образования // Библиотека, 2011,№8, с.9-11.
25. Кожевникова Е.С. "Информационная культура" как фактор повышения социальной компетентности студентов // Библиография, 2006, №5, с. 14-19.
26. Колесникова М.Н. Размышления о подготовке бакалавра библиотечно-информационной деятельности // Библиосфера, 2012, №2, с.72-74.
27. Костова Д. Опыт обучения студентов основам библиографии в Софийском горно-геологическом университете: [ст. из Софии] // Горн. журн. 1998,№ 7, с. 66.
28. Кузнецова Т.В. Подготовка профессиональных кадров педагогов-библиотекарей: постановка проблемы // Шк. б-ка, 2011, № 9/10, с.114-11
29. Кузнецова Т.Я. Библиотечные кадры сегодня и завтра: пути решения проблемы кадров, которые «решают все» // Науч. и техн. б-ки, 2009, №3, с.7-12
30. Кузнецова Т.Я. Координационный центр дополнительного профессионального библиотечного образования: задачи, функции, основные направления деятельности // Науч. и техн. б-ки, 2005, №2, с.27-31
31. Кузьмин Е.И. Дополнительное профессиональное библиотечное образование: подходы к формированию системы // Там же. 2004, №1, с.98–107.
32. Майдачевский Д. На пути в экономическую аудиторию: [к вопр. обучения студентов приемам и методам библиогр. поиска] / Д.Майдачевский, А. Федорова // Библиотека, 1997, № 8. с. 40–41.
33. Обеспечение системы подготовки и повышения квалификации кадров: метод. материалы / Гос. публич. науч.-техн. б-ка России; М.: ГПНТБ России, 2003, 52 с.
34. Опарина О.Д. Пользователь побеждает читателя! : опыт обучения пользователей информ. грамотности в Науч. б-ке Урал. ун-та // Библ. Дело, 2005, №8, с. 2–5.
35. Основы библиотечно-информационного дела: учеб.-практ. пособие для студентов дневной, заоч. форм обучения с применением различ. технологий обучения (дистанц., ускор. и др.) / И.В. Булахтина [и др.]. – Владивосток : Изд-во Дальневост. гос. акад. экономики и упр., 2001, 55 с.
36. Острикова Т.А. Маршруты поиска информации для студентов-словесников // Библиография, 2006, № 4, с.17–22.
37. Паршукова Г.Б. Методика поиска профессиональной информации: учеб.-метод. пособие для студентов высш. учеб. заведений / Г.Б. Паршукова. СПб.: Профессия, 2009, 223 с.
38. Пилко И.С. Российская библиотечная школа на пороге решительных перемен // Информ. бюл. Рос. библ. Ассоциации, 2010, № 58, с.30-33
39. Подготовка информационно-библиотечных кадров XXI века: освоение новых технологий: материалы Всерос. науч.-практ. конф. (Челябинск, 18-19 дек. 2002 г.). Челябинск, 2002, 140 с.

40. Рыбальченко Е. Опыт формирования информационной компетентности пользователей вузовской библиотеки // Бібл. форум України, 2009, № 3, с.28-31.
41. Слободяник М.С. Высшее библиотечное образование: теоретико-методологические аспекты развития [Электронный ресурс] // Крым: междунар. науч.-практ. конф. Судак, 2001
42. Соков П. С. Высшее библиотечно-информационное образование в России: история и современные тенденции развития: монография / П.С. Соков; Моск. гос. ун-т культуры и искусств. М.: МГУКИ, 2008, 170 с.
43. Столяров Ю. Н. Отечественному библиотечному образованию 95 лет// Библиотековедение, 2009, №2, с.120-124.
44. Стрелкова И.Б. Модель системы формирования кадровых ресурсов вузовских библиотек и педагогические условия ее реализации // Науч. и техн. б-ки, 2008, № 11, с.32-43, Библиогр.: с. 43 (6 назв.)
45. Стрелкова И.Б. Формирование кадровых ресурсов библиотек в новой информационной среде : науч.-практ. пособие /И.Б.Стрелкова. Минск: Новое знание, 2008, 223 с.
46. Шепелева С.В. Высшее профессиональное библиотечное образование Пермского региона: от дней прошлых - к дням сегодняшним // Молодые в библ. деле, 2012, №5/6, с.72-79
47. Шилов Л.А. Высшие курсы библиотековедения Публичной библиотеки: у истоков библиотечного образования // Очерки по истории Российской Национальной библиотеки / Л. А. Шилов. - СПб., 2008, с.123-160.
48. Шрайберг Я.Л. Подготовка и переподготовка специалистов библиотечно-информационной сферы /Я.Л.Шрайберг. М.: ГПНТБ России, 2007, 102 с.

c) **İnternet resursları**
1. http://www.preslib.az
2. http://www.repk.azdata.org
3. http://www.anl.az
4. http://www.childlibbaku.aznet.org
5. http://www.kitab.az
6. http://bsulib.aznet.org/bsulibaz/index
7. http:// www.kitabxana.org
8. http://www.khazar.org/sservicesindex.shtm
9. http://www.catalog.loc.gov
10. http://www.pedslov.ru/index./0-



**Rashad Ahmadkhan Gardashov**

## Librarian studies education in Azerbaijan. (creation, development and modern condition)

## SUMMARY

Themonographconsists of an introduction, threechapters, summary and bibliographic list of used literature.The actuality of the subject has been substantiated, the level of the research of the subject has been determined, the aim, duties, objects, subjects, theoretical – methodological bases, methods and scientific novelty of the research have been generalized in introduction.The first part of the monograph is called "The foundation of Librarian studies education and the levels of development". The foundation of the Librarian studies courses, formation of the secondary school system and finally, being the main events of Azerbaijan culture and science the foundation and the levels of development of the sciences High Librarian studies have been analyses in this chapter.In the second chapter which is called" The content ofLibrarian studies education and its, components, state standards determining the strategy of librarian studies education minimum state demands for personnel training for bachelor and magistrate degree have been analyses by the way of modern national educational thoughts. The importance of educational plans in librarian-bibliographer personnel training has been shown and their comparative analyses have been given here. The increasing, dynamics, quality, indicators, have been explained by special diagrams.The third part of the monograph is called "The modern condition and prospects of Librarian Studies Science". In this chapter the development of librarian studies science, the role of the librarian studies sciencessystem and experiment in useful organization of education, the application opportunities of information-communication technology in

education process have beenanalysesin detail. One of the important processes in High Librarian studies education is electron libraries and their formation fields. This fields uses the help of CT directly.

Being the monographcomputing results electron libraries are not alternative establishment but type of service .All the mentioned problems have found their wide explanation in this The research has been summarized and future duties have been identified in the summary.



**Рашад Ахмедхан оглу Гардашов**

**Библиотечное образование в Азербайджане (возникновение, развитие и современное состояние)**

## РЕЗЮМЕ

Монография состоит из введения, 3 глав, заключения и списка использованной литературы.В введении была обобщена, актуальность темы, определена степень ее разработки также, обобщены цель, задачи, объект, предмет, теоретико-методологические основы исследования, методы исследования и ее научная новизна.

Первая глава монографииназывается «Создание и этапы развития библиотечного образования».Современное состояние тенденции развития анализ: Происходящие изменения настоятельно требуют,чтобы высшая библиотечная школа как раньше способствовала формированию профессионализма,увеличения библиотекарей высшим профессиональным образованием, улучшение кадрового потенциала библиотек как центров информации. Цель исследования - комплексная характеристика основных направлений и тенденций развития библиотечного образования. Во второй главе, которая называется «Содержание библиотечного образования и требования», на фоне современной национальной образовательной мысли, анализируются профессиональный тезаурус библиотекаря, его структура, содержание, компоненты и государственные стандарты, определяющие стратегию библиотечного образования, а также минимум государственных требований, предъявляемых к кадровой подготовке по бакалаврской и магистерской ступеням образования. Здесь вместе с тем, были комплексно изложены вопросы беспрерывной системы образования по развитию и современному состоянию научно-методической системы обеспече-

ния библиотечного образования. Третья глава монографии называется «Современное состояние и перспективы развития библиотечного образования». В этой главе к подробному изложению привлечены вопросы развития Библиотечного образования, место системы и опыта Библиотечных наук при эффективной организации образовании, возможности внедрения ИКТ, в процессе образования в годы независимости. В Заключении был подведен итог проведенному исследованию, определены предстоящие задачи.



Əlavə 1

**Kitabxanaçılıq-İnformasiya ixtisası üzrə tədris planlarında ixtisas fənnlərinin dinamikasını göstərən qrafik**



Əlavə 2.




**Kadr hazırlığına başlayarkən ixtisas fənnlərinin faiz nisbətini göstərən diaqram**




**Hazırkı dövlət standartında ixtisas fənnlərinin faiz nisbətinin göstərən diaqram**



Əlavə 3

**Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsində kadr hazırlığının kəmiyyət xarakteristikasını göstərən qrafik (10 illiklər üzrə)**



*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 12.10.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 10 ç.v. Tiraj: 200. Sifariş № 262.
Qiymәti müqavilә ilә.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail:* *mutarjim@mail.ru*
www.mutercim.az